27 dekabr 2019-cu il
№49 (8864)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

**Bu sayımızda**

Dünya azərbaycanlılarına
⇨səh.2

2019-cu il nailiyyətlər, yeniliklərlə zəngin bir təhsil ili kimi yaddaşlarda qalacaq
⇨səh.4-5

PISA-nın nəbzini necə tutaq?
⇨səh.8

Uşaqlarımızı tarixin “xəstəsi”nə çevirmək üçün...
⇨səh.9

# “Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər”

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə konfrans keçirilib



Yeni Azərbaycan Partiyası (YAP) ənənəvi olaraq ilin sonuna yaxın bu və ya digər əhəmiyyətli mövzularla əlaqədar konfrans keçirir. Builki konfransın mövzusu təhsil sahəsi ilə bağlı olub. Belə ki, YAP-ın təşkilatçılığı ilə “Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər” mövzusunda təşkil edilən konfrans dekabrın 24-də baş tutub.

YAP-ın Sədr müavini - icra katibi, Baş nazirin müavini Əli Əhmədov qeyd edib ki, bütövlükdə inkişafın fundamental əsaslarından ən birincisi təhsildir. Azərbaycanın 21-ci əsrdə sürətli inkişaf əldə etdiyini, iqtisadiyyatın inkişafı, sosial layihələrin uğurla həyata keçirilməsinin insanlarda gələcəklə bağlı müsbət fikirlər formalaşdırdığını vurğulayan Sədr müavininin fikrincə, indiyədək inkişafın müxtəlif pillələrinə qalxa bilmiş ölkələr və xalqlar bunu sadəcə təhsilin və elmin sayəsində əldə edə biliblər. Müasir cəmiyyətin inkişafı, iqtisadiyyatın tərəqqisi bütövlükdə həyatın müasirləşməsi və müasir çağırışlara uyğun şəkildə təşkil olunması təhsillə, bilik və vərdişlərin inkişaf etdirilməsi, bütövlükdə insan kapitalı ilə bilavasitə əlaqədardır: “Azərbaycan Prezidentinin dəfələrlə qeyd etdiyi kimi, insan kapitalının inkişaf etdirilməsi ölkə siyasətinin başlıca hədəfidir.

⇨Ardı səh.3

# Başa vurduğumuz il təhsil ictimaiyyətinin gözü ilə

Artıq 2019-cu ilin başa çatmasına sayılı günlər qalır. Bu ilin bütün sahələrdə olduğu kimi, təhsildə də aparılan məqsədyönlü işlər, həyata keçirilən bir sıra layihələrlə, tətbiq olunan yeniliklərlə yaddaqalan illərdən birinə çevrilərək təhsil tarixində özünəməxsus yer tutacağına əminik.

Kütləvi informasiya vasitələrinin, media orqanlarının təhsil sahəsində baş verən ciddi dəyişikliklərə, yeniliklərə olan həssaslığı göstərdi ki, bu sahədə atılan hər bir addım Azərbaycan cəmiyyətinin maraq dairəsindədir və razılıqla qarşılanmaqdadır. Xüsusilə, ölkə başçısı İlham Əliyevin təhsilin inkişafı ilə bağlı imzaladığı çoxsaylı fərman və sərəncamlar bu sahənin daim dövlət rəhbərinin diqqət mərkəzində olduğunu bir daha sübut edir. Elə ilayrıcında həmsöhbət olduğumuz təhsil işçiləri, ekspertlər də yola salmaqda olduğumuz 2019-cu ili təhsil sahəsində uğurlu il kimi dəyərləndiriblər.

### Təhsilimiz ildən - ilə daha da inkişaf edir

Bakı Dövlət Universitetinin professoru, pedaqoji elmlər doktoru, Təhsil Şurasının sədri *Hikmət Əlizadə* qeyd edir ki, təhsil zaman hadisəsidir, buna görə də təhsil sisteminə tətbiq edilən innovasiyaların səlis bir xətt üzrə inkişaf edəcəyini gözləmək utopik düşüncə olardı. Təhsilin öz təsbitini tapması strateji baxımdan onun fəlsəfəsinin düzgün müəyyən edilməsindən, nəticənin zaman müstəvisində obyektiv qiymətləndirilməsindən və qarşıya çıxan çətinliklərin korrektə edilməsi üçün uyğun taktiki gedişlərin müəyyənləşdirilməsindən asılıdır. Bu düşüncələrlə son bir il ərzində təhsil sahəsində həyata keçirilən işlərə nəzər salmaq istərdik.

Bilirsiniz ki, cəmiyyətdə müəllim nüfuzu daha yüksək təlim hədəflərinin əldə edilməsinə təsir göstərən əsas amillərdən biridir. Sevindirici haldır ki, yola saldığımız 2019-cu il ərzində müəllim nüfuzunun artması ilə bağlı müəyyən diqqətçəkən işlər görülüb. Ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək bal toplayan gənclər arasında müəllimlik ixtisasını seçənlərin sayının artması, ötən illərlə müqayisədə müəllim vəzifəsində işləmək arzusunda olanların sayının nəzərəçarpacaq dərəcədə çoxalması kəmiyyət dəyişiklikləri kimi xarakterizə olunsa da, belə deməyə əsas verir. Müəllim peşəsinin nüfuzunun artmasında bir tərəfdən müəllimlərin işə qəbulunda müsahibə mərhələsinin nəticələri, digər tərəfdən stimullaşdırıcı tədbirlər mühüm əhəmiyyət kəsb edir. Fikrimizcə, stimullaşdırıcı tədbirlərin tətbiqi istiqamətdə işlər davam etdirilməlidir.

Məktəbi maraqlandıran əsas problemlərdən biri, bəlkə də başlıcası təhsilin keyfiyyəti məsələsi olmalıdır. Bu baxımdan, məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlığı mühüm əhəmiyyət kəsb edir, şagirdin məktəb fəaliyyətinə uğurla başlaması onun yüksək təlim hədəflərinə nail olmasının ilkin şərtidir.

⇨Ardı səh.12

# Kütləvi yenidən ixtisaslaşma

## Hazırkı uşaqların 65% bizə məlum olmayan peşələrin sahibi olacaqlar

Yüksək texnologiyaların sürətlə inkişafı ona gətirib çıxarıb ki, şirkətlər və təşkilatlar daxili proseslərin idarə olunmasını getdikcə daha çox süni intellektə həvalə edirlər. Söhbət həm biznes-layihələrdən, həm işçilərin işə götürülməsindən, həm də təşkilati qərarların qəbul olunmasından gedir. Bu da təsadüfi deyil, çünki arxada qalan təcrübə nümayiş etdirir ki, tətbiq edilən sadə xətti alqoritmlər qarşıya qoyulmuş məsələlərin həllində insan düşüncəsindən daha iti olduğunu sübut edə bilib. “Accenture Research” şirkətinin 2017-ci ildə keçirdiyi sorğunun nəticələrinə görə, ABŞ-da rəhbərlərin 85% yaxın 3 il ərzində yüksək texnologiyalara daha aktiv şəkildə kapital yatırmaq niyyətindədir.

### Qərəz, yoxsa dəqiqlik?

Texnologiyanın kütləvi tətbiqi ortaya ciddi etik suallar çıxarıb. Problemin qəliz tərəfi də odur ki, insanlar getdikcə maşınlara daha çox qərar qəbul etmək səlahiyyəti vermək niyyətindədirlər. “Accenture Research” sorğusundan görünür ki, ABŞ dövlət strukturlarının rəhbərlərinə (82%) görə, süni intellekt yaxın gələcəkdə insanlarla həmkar, məsləhətçi, əməkdaş olaraq çiyin-çiyinə işləyəcəklər. “Accenture Research”in daha bir araşdırmasına görə, bütün dünya üzrə sorğuda iştirak etmiş şirkət və təşkilatların təqribən 65% ya süni intellektə kapital yatırmağa hazırlaşır, ya da bu istiqamətdə sərf etdiyi xərcləri artırmağa.

Bununla belə, rəhbərlər öz planlarında olsunlar, işçilər isə süni intellektin həyatımızda getdikcə daha fəal rol almasından o qədər də razı deyil. Elə həmin “Accenture”nin keçirdiyi sorğunun digər nəticələrindən məlum olur ki, amerikalıların 75% süni intellektə etibar etmir, yaxud da etməkdən çəkinir. Məsələn, süni intellektin idarə etdiyi avtomobilə minməyə heç də hamı cəsarət göstərə bilmir. Çünki dəfələrlə olub ki, robotun idarə etdiyi, yaxud sürücüsüz gedən taksi qəzaya uğrayıb. Pasiyentlər hələ də daha çox insan həkimə müraciət edirlər, nəinki alqoritm-həkimə. Baxmayaraq ki, robot diaqnozu daha dəqiq qoymağı bacarır. Bəzi banklarda insanlara sadə kredit və ya ipoteka vermək barədə qərarın qəbulunu robota həvalə ediblər.

⇨Ardı səh.15



# Bu nağılda “BİZ” vardı

## Sağlamlıq imkanları məhdud uşaqların bayram sevinci

Səh.16

# Məsafəni yaxınlaşdıran texnologiya - LOLA

LOLA (LOw LAtency - aşağı gecikməli) audiovizual yayım sistemi fiziki olaraq bir-birindən uzaq məsafədə olanları qabaqcıl şəbəkə xidmətləri vasitəsilə onlayn bağlantı ilə bir araya gətirir. LOLA layihəsi sayəsində bu texnologiya artıq Azərbaycan ifaçı və musiqiçilərini başqa millətlərdən olan həmkarları ilə də yaxınlaşdıracaq. Müxtəlif coğrafi ərazilərdə keçirilən tədbirlərdə iştirakı zəruri olan ifaçı və musiqiçilərimizin həmin tədbirlərə onlayn bağlantı vasitəsilə qoşulmasını təmin edəcək. Bakı Musiqi Akademiyasında daimi istismara verilən bu sistem dünyanın bir çox məkanları ilə birbaşa bağlanmağa imkan verəcək. Beləliklə, Azərbaycan musiqiçiləri olduğu yerdən dünyanın o biri ucunda keçirilən konsertlərdə ifa etmək, öz musiqisini nümayiş etdirmək imkanı əldə edəcəklər. Bu da böyük zaman itkisi və yorğunluqla müşayiət olunan səyahətlərin tarixə qovuşduğunu göstərir.

### Estoniya ilə birgə keçirilən virtual tədbir

Bu günlərdə yeni sistemin Avropa Elm və Təhsil Şəbəkələri Assosiasiyası (GEANT) nümayəndələrinin iştirakı ilə təqdimatı olub. Belə ki, aşağı gecikməli audiovizual yayım sisteminin köməyilə azərbaycanlı və estoniyalı musiqiçilərin virtual konserti keçirilib. Estoniya ilə birgə keçirilən virtual tədbirə AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev, Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanov, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli, GEANT-ın beynəlxalq layihələr üzrə meneceri Veronika Di Luna, qabaqcıl tətbiq xidmətləri üzrə koordinatoru Kladiou Allaçio, Estoniya Milli Tədqiqat və Təhsil Şəbəkəsinin (EENet of HITSA) meneceri Kristina Lillemets, Estoniya Musiqi və Teatr Akademiyasının rektoru, professor İvari İlya, Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan İanku qatılıb.

⇨Ardı səh.7

# Respublika fənn olimpiadalarının birinci mərhələsi keçiriləcək

Yanvarın 12-də ölkənin bütün şəhər və rayonlarında məktəblilərin Respublika fənn olimpiadalarının birinci - rayon (şəhər) mərhələsi keçiriləcək. Bilik yarışının ilkin mərhələsində bu il təxminən 35000 şagirdin iştirakı nəzərdə tutulur.

Qeyd edək ki, olimpiadaların təşkilində məqsəd istedadlı şagirdlərin aşkar edilməsi, onlarda fənlərin dərindən öyrənilməsinə marağın artırılması, bilik və bacarığı, eləcə də çalışqanlığı ilə seçilən şagirdlərin qiymətləndirilməsindən ibarətdir.

Respublika fənn olimpiadaları riyaziyyat, fizika, kimya, biologiya, informatika, Azərbaycan dili və ədəbiyyat, coğrafiya və tarix olmaqla 8 fənn üzrə keçirilir. IX, X və XI sinif şagirdlərinin iştirak etdiyi bu elm yarışında xüsusi istedada malik olan 8-ci sinif şagirdlərinin iştirakına da icazə verilir.

Olimpiadalar rayon (şəhər) və Respublika olmaqla iki mərhələdən ibarətdir. Respublika mərhələsi isə yarımfinal və final turları olaraq keçirilir.

# Dünya azərbaycanlılarına



Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi gün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edilir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilmişdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da güclənməsinə etibarlı zəmin yaradır və biz bu istiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və növbəti üç ildə bu Hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilmişdir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda "Nəsimi İli"nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. "Nəsimi İli" çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətini daha bir nümayiş etdirmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram.

Bu yolda hamınıza uğurlar, cansağlığı, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva daun sindromlu uşaqlar üçün təşkil olunan şənlikdə iştirak edib

Dekabrın 24-də Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzində Yeni il bayramı ilə əlaqədar şənlik təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva şənlikdə iştirak edib.

Leyla Əliyeva Mərkəzdə müalicə alan uşaqlarla söhbət edib, onlarla xatirə şəkilləri çəkdirib.

İncəsənət ustalarının çıxışları, hazırlanmış maraqlı şoular uşaqlara unudulmaz anlar yaşadıb.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva valideyn himayəsindən məhrum, xüsusi qayğıya ehtiyacı olan



uşaqlarla tez-tez görüşür, onların təlim-tərbiyəsi ilə maraqlanır, asudə vaxtlarının səmərəli təşkili üçün keçirilən müxtəlif tədbirlərdə və proqramlarda iştirak edir.

## Moskvada Leyla Əliyevanın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilən tədbir keçirilib

Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilən tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Rusiya və Azərbaycanın gənclər birliklərinin, diaspor təşkilatlarının təmsilçiləri, media nümayəndələri iştirak ediblər.

RAGB-nin idarə heyətinin üzvü Emin Hacıyev təşkilatın sədri Leyla Əliyevanın adından qonaqları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, 2019-cu ildə görülən işlər barədə məlumat verib. O, RAGB-nin üzvlərinin sayının ilbəil artdığını vurğulayaraq deyib ki, təşkilat Rusiyada fəaliyyət göstərən digər ictimai birliklər və ali təhsil müəssisələri ilə uğurla əməkdaşlıq edir: "Biz birlikdə çox böyük yol keçmişik. Fəaliyyətimizə ən böyük qiyməti Leyla xanım Əliyeva verib. RAGB-nin 10 illiyi ilə bağlı keçirilən tədbirdə Leyla xanım təşkilatın zəngin keçmişinin, eləcə də parlaq gələcəyinin olduğunu söyləyib".

Emin Hacıyev Rusiyada yaşayan və təhsil alan azərbaycanlı gənclər adından dekabrın 24-də doğum gününü qeyd edən Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib: "Azərbaycan gəncləri harada yaşamasından asılı olmayaraq, hər zaman dövlətimizin və Prezidentimizin diqqətini və dəstəyini hiss edib. Biz buna görə cənab Prezidentə təşəkkürümüzü bildiririk".

Daha sonra RAGB-nin fəal üzvlərinə gənclər təşkilatının inkişafına verdiyi töhfələrə görə fəxri fərmanlar təqdim edilib.

Tədbir Rusiyada fəaliyyət göstərən incəsənət nümayəndələrinin ifasında milli musiqi və rəqslərdən ibarət konsert proqramı ilə davam etdirilib.

## Təhsil naziri Sumqayıtda vətəndaşları qəbul edib

Dekabrın 20-də Təhsil naziri Ceyhun Bayramov Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzində Xızı, Qubadlı rayon və Sumqayıt şəhər sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Təhsil naziri Ceyhun Bayramov və Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Xızı rayonunda və Sumqayıt şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin yerdəyişməsi, işlə təmin olunma, ali təhsil sənədlərinin (diplomların) tanınması (nostrifikasiya), təhsil sənədlərinin verilməsi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

## Nazir müavini diaspor nümayəndələri ilə görüşüb

Təhsil nazirinin müavini Firudin Qurbanov "Liderliyin inkişafı proqramı" çərçivəsində Almaniya, Fransa, Gürcüstan, Ukrayna və Türkiyədəki Azərbaycan diasporunun nümayəndələri ilə görüşüb.

Görüş zamanı nazir müavini təhsilin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu, son illərdə bu sahədə mühüm strategiya və proqramların qəbul edildiyini diqqətə çatdırıb. Firudin Qurbanov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müəyyən etdiyi hədəflərə uyğun olaraq aparılan islahatlar barədə qonaqlara məlumat verib.

Firudin Qurbanov qeyd edib ki, ölkə Prezidenti cənab İlham Əliyevin davamlı diqqət və qayğısı, həyata keçirilən proqramlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə 2003-2019-cu illər ərzində 3300-ə yaxın məktəb binası tikilib və ya əsaslı təmir edilib ki, bu da bütün məktəblərin 74 faizini təşkil edir. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılıb, ikinci növbədə oxuyan şagirdlərin sayı 35 faizdən 14 faizə enib.

Nazir müavini deyib ki, istedadlı uşaqlarla bağlı həyata keçirilən ardıcıl tədbirlər nəticəsində respublika və beynəlxalq olimpiadalarda şagirdlərimizin uğurları ildən-ilə yaxşılaşıb. 2013-2019-cu illərdə şagirdlərimiz tərəfindən 4 qızıl, 50 gümüş, 126 bürünc, 35 həvəsləndirici mükafat olmaqla ümumilikdə 180 medal qazanılıb.

Nazir müavini diaspor nümayəndələrini "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" haqqında da məlumatlandırıb. Firudin Qurbanov qeyd edib ki, sözügedən proqram çərçivəsində 3500-dən artıq gənc dünyanın aparıcı ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb. Nazir müavini bildirib ki, yeni qəbul olunmuş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" isə yerli və xarici ali təhsil müəssisələri arasında ikili diplom proqramlarının həyata keçirilməsinə töhfə verəcək.

Görüş zamanı diaspor nümayəndələrini təhsil sahəsi ilə bağlı maraqlandıran suallar cavablandırılıb, mümkün əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

# "Təhsilin inkişaf strategiyası: nailiyyətlər və əsas hədəflər"

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə konfrans keçirilib






⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Bunun nəticəsidir ki, təhsilin inkişafı ilə bağlı böyük layihələr həyata keçirilir, məktəblərin infrastrukturu yenilənir, məzmun və keyfiyyətinin yüksəldilməsi üçün islahatlar həyata keçirilir. Bu işlər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə təhsilə nə dərəcədə önəm verdiyinin bariz ifadəsidir. İnanırıq ki, ölkə təhsilinin inkişafı iqtisadiyyatın inkişafının əsasını təşkil edəcək".

### Bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəriciləri yüksəlib

Təhsil naziri Ceyhun Bayramov deyib ki, bütün seqmentlərdə həyata keçirilən uğurlu islahatlar nəticəsində Azərbaycan beynəlxalq reytinqlərdə mövqeyini əhəmiyyətli şəkildə yaxşılaşdırıb, dünyanın ən islahatçı ölkələri arasında ön sıralarda yer alıb.

Ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların təhsil sektoruna da öz müsbət təsirini göstərdiyini vurğulayan nazir bildirib ki, son illərdə təhsilin inkişafı sahəsində mühüm strategiya və proqramlar qəbul edilib, təhsilin inkişafı dövlət siyasətində əsas prioritetlərdən biri olub.

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının təsdiq edilməsindən ötən dövr ərzində bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəriciləri yüksəlib. Nəticədə uşaq və gənclərin təhsilalma imkanları genişləndirilib, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilib. Ötən müddət ərzində ümumi təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı, müəllim fəaliyyətinin qiymətləndirilməsi və stimullaşdırılması, təhsil müəssisələrinin maddi-texniki bazasının müasirləşdirilməsi sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilib.

Ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi tədbirlərinin bu il də uğurla davam etdirildiyini vurğulayan nazir deyib ki, Təhsil Nazirliyi tərəfindən 50-si modul tipli olmaqla, 84 məktəbin tikintisi və əsaslı təmiri başa çatdırılıb: "Ölkə Prezidentinin davamlı diqqət və qayğısı, həyata keçirilən proqramlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə 2003-2019-cu illər ərzində 3300-ə yaxın məktəb binası tikilib və ya əsaslı təmir edilib ki, bu da bütün məktəblərin 74 faizini təşkil edir. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşıb. Bu da ikinci növbədə oxuyan şagirdlərin sayı 35 faizdən 14 faizə enməsi ilə nəticələnib".

### Təhsildə məzmun islahatlarının bir mərhələsi başa çatıb

Bu il ümumi təhsildə məzmun islahatlarının bir mərhələsi başa çatıb. Nəticədə yeni təhsil proqramlarına uyğun olaraq buraxılış siniflərində beynəlxalq təcrübəyə əsaslanan, təhsilalanların bilik və kompetensiyalarının daha səmərəli qiymətləndirilməsinə imkan verən yeni imtahan modelinə keçilib. Ümumi təhsildə istifadə edilən 400-dən çox dərsliyin məzmununun yenilənməsi prosesi başa çatıb.

Nazir deyib ki, istedadlı uşaqlarla bağlı həyata keçirilən ardıcıl tədbirlər öz müsbət nəticəsini verib: "Belə ki, respublika və beynəlxalq olimpiadalarda şagirdlərimizin uğurları ildən-ilə yaxşılaşıb. Cari ildə fənn olimpiadalarında 30 mindən çox şagird iştirak edib. Bu da əvvəlki illərə nisbətən 5 dəfə çoxdur. 2019-cu ildə beynəlxalq olimpiadalarda məktəblilərimiz 21 gümüş, 18 bürünc medal və 6 həvəsləndirici mükafat əldə edib. Halbuki 2013-2019-cu illərdə 4 qızıl, 50 gümüş, 126 bürünc, 35 həvəsləndirici mükafat olmaqla, ümumilikdə 180 medal qazanılıb".

### Müəllimlik rəqabətli peşəyə çevrilir

Son illərdə əldə edilən ən böyük nailiyyətlərdən biri müəllim nüfuzunun yüksəldilməsi ilə bağlı olub: "Cari ildə müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən 3 dəfədən çox artaraq 54 min nəfəri keçib. Son iki tədris ilində mərkəzləşdirilmiş müsabiqə nəticəsində 20 minə yaxın müəllim işə qəbul edilib, vakant yerlərin 100 faiz tutulması təmin edilib, uzun illər ərzində ixtisaslı kadr çatışmazlığı olan ucqar kənd məktəblərinin kadr təminatı problemi, demək olar ki, həll edilib. Hökumətin qərarına əsasən, kənd məktəblərində fəaliyyətə başlayan gənc müəllimlər üçün stimullaşdırıcı tədbirlər tətbiq edilib".

C.Bayramov qeyd edib ki, hazırda 10 mindən çox müəllim bu tədbirlərdən faydalanır.

Təhsil naziri ümumi təhsil müəssisələrində çalışan müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinə də toxunub. Hansı ki, bu prosesin sonunda ümumilikdə 150 mindən çox müəllimin həftəlik dərs yükü 1.5 dəfə, vəzifə maaşı 2 dəfə artırılıb: "Bu tədbirlərin davamı kimi, ölkə Prezidentinin Sərəncamına əsasən, müəllimlərin aylıq vəzifə maaşları cari il sentyabrın 1-dən orta hesabla daha 20 faiz artırılmış və beləliklə orta aylıq əməkhaqqı 600 manata çatmışdır. Bu artımlardan sonra aylıq əməkhaqqı 1000 manatdan çox olan müəllimlərin sayı təxminən 5 min nəfər təşkil edib".

Həyata keçirilən kompleks tədbirlər nəticəsində müəllimlik rəqabətli peşəyə çevrilib, ən yüksək nəticə göstərən abituriyentlər arasında müəllimlik ixtisasını seçənlərin sayı dəfələrlə artıb: "Bu il 500-dən çox bal toplayanların hər 4 nəfərindən biri müəllimlik ixtisaslarını seçib ki, bu da istər müəllim peşəsinin rəqabətliliyi, istərsə də təhsilin keyfiyyəti haqqında müsbət proqnozlar verməyə imkan verir. İnanırıq ki, bu amil müəllim hazırlığı sistemində əsaslı dönüşün yaradılmasına, yüksək peşəkarlığa malik müəllimlərin hazırlanmasına və məktəblərə cəlbinə imkan verəcək".

### Məktəbəqədər təhsilin əhatəlilik səviyyəsi artır

Təhsilin keyfiyyətinə təsir edən mühüm amillərdən biri də məktəbəqədər təhsillə əhatəlilik səviyyəsidir. Məhz bu səbəbdən son illərdə məktəbəhazırlıq Təhsil Nazirliyi üçün prioritet istiqamət olub. Ümumi təhsil müəssisələrində dövlət büdcəsi hesabına 5 yaşlı uşaqların məktəbəhazırlıq təhsili 2013-cü ildəki 24 faizdən cari ildə 80 faizə çatdırılıb, 100 mindən çox uşaq təhsilə cəlb edilib. Həyata keçirilən tədbirlər nəticəsində tarixən məktəbəqədər təhsil müəssisəsi olmayan yaşayış məntəqələrində, ucqar kəndlərdə də uşaqların məktəbəhazırlığı təmin edilib: "Növbəti ildə əhatə səviyyəsinin 90 faizə çatdırılması nəzərdə tutulur ki, bu da inkişaf etmiş ölkələrin göstəricilərinə uyğundur".

Bununla yanaşı, digər yaş qrupları üzrə uşaqların təhsilə cəlbi istiqamətində də tədbirlər həyata keçirilib. Bir neçə ildir ki, UNICEF və Avropa Birliyinin maliyyə dəstəyi ilə 3-5 yaşlı uşaqların icma əsaslı məktəbəqədər təhsilə cəlb olunması layihəsinə başlanılıb. 2019-cu ildə bu qrupların da sayı artırılıb. Artıq icma əsaslı məktəbəqədər təhsilə cəlb olunma 328 qrupda 6 min nəfərə yaxın uşağı əhatə edir. Növbəti ildə daha 250 qrup yaradılacaq. Bu da təhsilə cəlb olunan uşaqların sayının 12 min nəfərə çatması deməkdir.

### Peşə təhsili

Bu gün peşə təhsili ölkəmizin təhsil siyasətində əsas prioritetlərdən biridir. Çünki peşə təhsilinin ölkənin sosial-iqtisadi inkişafına təkan verəcəyi, gənclər arasında məşğulluğun təmin edilməsinə xidmət edəcəyi, iqtisadiyyatın bütün sahələri üçün ixtisaslı kadr hazırlığını təmin edəcəyi düşünülür. Odur ki, bu baxımdan aparıcı sayılan bu təhsil pilləsində sistemin yenidən qurulması, çevik idarəetmənin təmin edilməsi şərtdir. Bu məqsədlə son illərdə peşə təhsili şəbəkəsi optimallaşdırılıb, 24 ixtisaslaşmış peşə təhsili mərkəzi yaradılıb, mühəndis-pedaqoji heyətin diaqnostik qiymətləndirilməsi aparılıb və əməkhaqqı artırılıb.

Təhsil naziri Koreya İqtisadi İnkişaf və Əməkdaşlıq Fondu ilə imzalanan Kredit Sazişinə əsasən Bakı şəhərində peşə təhsili mərkəzinin tikintisinin başa çatdırıldığını da xatırladıb: "Burada ən müasir infrastruktur yaradılıb. Sənaye və innovasiyalar üzrə ixtisaslaşmış, regionda bənzəri olmayan bu Mərkəz cari ilin sentyabrından fəaliyyətə başlayıb. Koreyalı və yerli mütəxəssislər tərəfindən özəl sektor da cəlb edilməklə əmək bazarına uyğun kurikulum və tədris vəsaitləri hazırlanıb. Cari tədris ilində Mərkəzə 8 istiqamət üzrə 250-yə yaxın tələbə qəbul edilib. Növbəti tədris ilindən qəbul planının artırılması və qısamüddətli kursların tətbiqi nəticəsində tələbə sayının 1000 nəfərə çatdırılması planlaşdırılır".

Avropa İttifaqının dəstəyi ilə icrasına başlanılan 4 layihədən də söz açan Təhsil naziri regionlardakı peşə təhsili müəssisələrində infrastrukturun müasirləşdirilməsi, yeni məzmunun hazırlanması və mühəndis-pedaqoji heyət üçün təlimlərin təşkili ilə bağlı tədbirlərə diqqət çəkib. Hər il peşə təhsilinin əhatə dairəsi genişləndirilir, məzmun yenilənir. Təhsil Nazirliyi mühəndis-pedaqoji heyətin fəaliyyətinin stimullaşdırılması və peşəkarlığının artırılması istiqamətində tədbirlərə də xüsusi önəm verir.

### "Hər bir gəncin təhsil ala bilməsi" konsepti reallaşdırılır

Bilik iqtisadiyyatı və innovasiya cəmiyyəti ilə xarakterizə olunan müasir dünyada davamlı və hərtərəfli inkişafın təmin edilməsində ali təhsilin rolu sürətlə artır. Bunun nəticəsidir ki, Azərbaycanda da ali təhsilin əlçatanlığının artırılması, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində ölkə Prezidenti tərəfindən əhəmiyyətli qərarlar qəbul olunub. Təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı Sərəncamı xatırladan Təhsil naziri bildirib ki, sadəcə bu qərara əsasən, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı cari il martın 1-dən 16 min vahid artırılıb. Nəticədə təqaüd alan tələbələrin sayı cari tədris ilində 45 faizə çatdırılıb. Növbəti - 2020-2021-ci tədris ilində isə bu göstəricinin 50 faizə çatdırılması nəzərdə tutulub. Bununla yanaşı, tələbələrə verilən təqaüdlərin məbləği də artıb. İndi tələbələr orta hesabla 20 faiz daha çox pul alır. Bu tədbirlər 110 mindən çox tələbəni əhatə edib.

Ali təhsil müəssisələrində və magistratura səviyyəsi üzrə AMEA-da yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi nəticəsində hər bir təhsilalana düşən təhsil xərcləri orta hesabla 30 faiz artırılıb. Eyni zamanda, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişli yerlərin sayı da indi 66 faiz daha çoxdur. Son 5 il ərzində ali məktəblərə qəbul olunan tələbələrin sayında isə təxminən 21 faiz artım olub.

Hazırda ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan həssas sosial qruplardan olan 17 mindən çox tələbənin təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Həmin tələbələrin təhsil haqqının dövlət tərəfindən ödənilməsi, hər il yüksək nəticələrlə ali məktəblərə qəbul olunan 100-dən çox tələbəyə Prezident təqaüdünün verilməsi "hər bir gəncin təhsil ala bilməsi" konseptinin reallaşdırılmasına şərait yaradır.

Ali təhsilin qarşısında duran ən mühüm vəzifələrdən biri cəmiyyətin müasir inkişaf səviyyəsinə adekvat olan yüksəkixtisaslı, peşəkar, rəqabətqabiliyyətli kadrların hazırlanmasından ibarətdir. Bu baxımdan, "2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın əhəmiyyətini xüsusi vurğulayan nazir Ceyhun Bayramov Proqram çərçivəsində görülən tədbirlərə diqqət çəkib: "Proqram çərçivəsində iki istiqamət üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Birinci istiqamət üzrə ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsi və yeni akademik mühitin yaradılması, ikinci istiqamət üzrə isə yerli ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi məqsədilə xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsi və onların işəgötürənlərlə birbaşa əlaqələndirilməsi istiqamətində tədbirlər həyata keçiriləcək".

Proqram çərçivəsində, ilkin mərhələdə, 5 beynəlxalq ikili diplom proqramının təsis olunması ilə bağlı hazırlıq işlərinin görüldüyünü deyən C.Bayramov xaricdə doktorantura təhsili üçün prioritet ixtisasların artıq müəyyən edildiyini, seçim məqsədilə müvafiq elanın verildiyini deyib.

Clarivate Analytics şirkəti ilə uğurlu əməkdaşlıq nəticəsində elmi məhsuldarlıq və elmi tədqiqatların effektivliyi xeyli yüksəlib. Web of Science elmi bazasında 2018-ci ildə Azərbaycan üzrə 1482 elmi məqalə qeydə alınıb, publikasiya sayında son 25 ilin rekord həddi izlənilib. Cari ildə Web of Science indeksli elmi tədqiqat işlərinin ümumi çəkisinə və nəşr aktivliyinin son 3 ildə artım dinamikasına görə Azərbaycan Cənubi Qafqaz ölkələri arasında birinciliyini qoruyub saxlayır.

### İnnovativ elmi strategiyaların həyata keçirilməsi istiqamətində təşəbbüsləri artırıb

Müasir dövrün çağırışlarına uyğun olaraq dünyada təhsilin inkişaf tendensiyaları dəyişir. Təhsil sistemi gənc nəsli müasir dövrdən kəskin fərqlənəcək gələcək dövrə hazırlamaq üçün onlara yeni kompetensiyalar, ixtisaslar və peşələr verməlidir. Bu istiqamətdə cari tədris ilində ilk dəfə olaraq 42 məktəbdə 6 mindən artıq şagird əhatə edilməklə STEAM layihəsinə başlanılıb. Belə ki, təbiət elmləri, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın ayrı-ayrılıqda deyil, inteqrativ tədrisinə başlanıb. Bu yanaşma şagirdlərdə "XXI əsr bacarıqları"nın formalaşdırılmasını, məktəblərdə robototexnika, nanotexnologiya, süni intellekt, mexanika kimi sahələri əhatə edən məzmunun tətbiqini nəzərdə tutur. Bu, məzmun islahatları baxımından yenilikdir. İxtiraçılığın, innovasiyaların və yaradıcılığın şagirdlər arasında təşviq edilməsi layihənin əsas məqsədlərindəndir. Növbəti illərdə 20 mindən artıq şagirdin STEAM layihəsinə cəlb edilməsi, 10 bölgədə isə regional tədris mərkəzlərinin yaradılması nəzərdə tutulur.

Şagirdlərdə tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirmək, tədqiqatçılıq bacarıqları formalaşdırmaq, innovasiyaları mənimsəmək və tətbiq etmək, yüksək texnoloji ixtisaslara marağı artırmaq məqsədilə ötən tədris ilindən "Rəqəmsal bacarıqlar" layihəsinə başlanıb. Nazir bildirib ki, uğurlu nəticələri nəzərə alınaraq bu tədris ilindən layihə 123 məktəbi və 70 mindən çox şagirdi əhatə edir.

Təhsil naziri bu gün dünyada mövcud olan bir sıra riskləri xatırladıb: "Təbii resursların azalması, iqlim dəyişiklikləri və ekoloji tarazlığın pozulması, peşə və ixtisasların sürətlə dəyişməsi kimi risklər bütün ölkələri, əlbəttə ki, Azərbaycanı narahat edən problemlərdəndir. Həmin risklərin yaratdığı təhdidlərdən qorunmaq üçün isə ölkələr qlobal çağırışlara adekvat innovativ elmi strategiyaların həyata keçirilməsi istiqamətində təşəbbüsləri artırıb, yeni elmi istiqamətlər üzrə tədqiqatlara başlayıblar. Yeni çağırşlar, ilk növbədə, postindustrial cəmiyyətin yaranması, müasir informasiya və rəqəmsal texnologiyaların, süni intellektin geniş tətbiqi ilə bağlıdır. Belə bir şəraitdə ölkəmizdə də qlobal çağırışlar, dünyada elmin və təhsilin inkişaf tendensiyaları və ölkənin sosial-iqtisadi inkişaf perspektivləri əsas götürülməli, tətbiqi tədqiqatların, xüsusən də elmi-innovativ fəaliyyətin gücləndirilməsi ön plana çəkilməlidir".

Bu baxımdan nəzərdə tutulan planları da diqqətə çatdıran nazir növbəti illərdə erkən yaş dövründən uşaqların təhsilə cəlbi, ümumi təhsildə təmayülləşmə istiqamətlərinin artırılacağını deyib. Bundan başqa, şagirdlərdə "XXI əsr bacarıqları"nın formalaşdırılması, müəllim hazırlığı üzrə yeni məzmunun tətbiqi, o cümlədən təcrübə komponentinin əhəmiyyətli şəkildə artırılması istiqamətində planlar olduğunu bildirib. Nəzərdə tutulub ki, beynəlxalq akkreditasiyadan keçmiş ali təhsil proqramlarının sayı artırılsın, ali təhsil sahəsində tədqiqatlar, innovasiyalar və inkişaf tədbirləri, habelə tələbə-sahibkarlıq təşəbbüsləri dəstəklənsin: "Bununla yanaşı, Bakı Dövlət Universitetinin 100 illik yubileyində ölkə Prezidentinin proqram xarakterli çıxışındakı tövsiyələrinə uyğun olaraq təhsil müəssisələrində tərbiyə işi təkmilləşdiriləcək. Təhsilalanların milli-mənəvi dəyərlər və azərbaycançılıq ruhunda tərbiyəsi, onlarda ölkəmizin tarixinə, mədəniyyətinə bağlılıq, fəal vətəndaş mövqeyinin formalaşdırılması sahəsində kompleks tədbirlərin həyata keçirilməsi ən vacib iş istiqamətlərindən olacaq".

Nazir əminliyini vurğulayaraq onu da bildirib ki, ölkə Prezidentinin müəyyənləşdirdiyi uğurlu təhsil strategiyasının icrası nəticəsində Azərbaycan təhsili müasir dövrün çağırışlarına uyğun keyfiyyət göstəricilərinə, əhatəliliyinə və rəqabətqabiliyyətliliyinə görə aparıcı təhsil sistemlərindən birinə çevriləcək.

# 2019-cu il nailiyyətlər, yeniliklərlə zəngin bir təhsil ili kimi yaddaşlarda qalacaq

## Təhsil naziri Ceyhun Bayramov Azərbaycan Televiziyasına müsahibə verib

Son illərdə ölkə rəhbərliyinin diqqət və qayğısı, təşəbbüskarlığı sayəsində ölkəmizin bütün sahələrində olduğu kimi, təhsil sistemində də bir sıra mütərəqqi addımlar atılmış, məqsədyönlü islahatlar aparılmışdır. İslahatların davamı olaraq 2019-cu ildə də təhsilin ayrı-ayrı pillələrini əhatə edən mühüm dəyişikliklər, innovasiyalar, transformasiyalar sistemli xarakter almışdır. Dekabrın 20-də Təhsil naziri Ceyhun Bayramov Azərbaycan televiziyasının "Hədəf" verilişinin qonağı olub.

Ceyhun Bayramov 2019-cu ilin təhsil nailiyyətləri, yaddaqalan məqamlar və 2020-ci il üçün nəzərdə tutulan əsas hədəflərdən danışıb.



**- Cənab nazir, 2019-cu il Azərbaycan təhsili üçün son dərəcə dinamik, uğurlu olub. Bütün sahələrdə yeni baxışları, ideyaları həyata keçirmisiniz. Konkret olaraq, 2019-cu ilin əsas nailiyyətləri kimi şəxsən nələri qeyd etməyi vacib sayırsınız?**

- Sualınıza görə təşəkkür edirəm. 2019-cu il birmənalı olaraq təhsil sahəsində həm hadisələr, həm də nailiyyətlər baxımından, hesab edirəm ki, çox maraqlı və yeniliklərlə zəngin bir təhsil ili kimi yaddaşlarda qalacaq. Düşünürəm ki, 2019-cu il Azərbaycan təhsil tarixində ilk universitetimizin - Bakı Dövlət Universitetinin 100 illik yubiley ili kimi yadda qalacaq. Siz bilirsiniz ki, Bakı Dövlət Universitetinin 100 illik yubileyinin ölkə səviyyəsində və beynəlxalq miqyasda qeyd olunmasına dair ölkə başçısının müvafiq sərəncamı olmuşdur. Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Bakı Dövlət Universitetinin yubileyi ilə bağlı, biz artıq 2019-cu ilin yekunlarına nəzər salırıq, il ərzində çoxsaylı tədbirlər həm ölkəmizdə, həm də beynəlxalq miqyasda keçirilmişdir. Mən xüsusi olaraq Parisdə YUNESKO-nun Baş qərargahında keçirilmiş çox böyük və möhtəşəm tədbiri qeyd etmək istərdim. Eləcə də 26 noyabr 2019-cu il tarixində ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr edilmiş böyük tədbiri xüsusi olaraq qeyd etmək istərdim. Biz 2019-cu ildən danışarkən, mütləq şəkildə ali təhsil sahəsində olan bir sıra yeniliklərə nəzər salmalıyıq. Burada həm əhatəliliyin və əlçatanlığın artırılması istiqamətində qəbul edilmiş çox mühüm qərarları yada salmalı, onların müsbət nəticələrini qeyd etməliyik. 2019-cu il eyni zamanda Azərbaycanda ümumtəhsil məktəblərində buraxılış və ali təhsil müəssisələrinə yeni imtahan modellərinin tətbiqi ilə yadda qalacaq. İlk dəfədir ki, bu yenilik imtahan modelinə kifayət qədər əhəmiyyətli dəyişikliklər gətirdi. Bu il ərzində bizim istedadlı gənclərimizin respublika və beynəlxalq olimpiadalarda çox uğurlu iştirakını qeyd etməliyik. Şagirdlərimiz çoxsaylı beynəlxalq olimpiadalarda yüksək səviyyədə çıxış etdilər. Ötən illər ərzində medal sayına görə ən yüksək nəticəni bu il əldə etdilər. Xüsusi olaraq, mən onu qeyd etmək istərdim ki, 5 əsas fənn üzrə keçirilən dünya olimpiadalarında iştirak edən məktəblilərimiz onlardan 4-ü üzrə vətənə medallarla döndülər. Eyni zamanda mən əhəmiyyətli hadisə kimi 2019-cu il Dünya İnformatika Olimpiadasının Azərbaycanda keçirilməsini qeyd etmək istərdim. 2019-cu ilin təhsil sistemi üçün çox əlamətdar göstəricilərindən biri rekord sayda - 55 minə yaxın insanın mərkəzləşmiş qaydada ümumtəhsil məktəblərinə müəllim adını qazanmaq üçün müsabiqəyə və rəqabətə qatılmasını qeyd etmək istərdim. Bu rekord bir saydır, mən çox yüksək göstərici olaraq bu ilin ali təhsil müəssisələrinə qəbul kampaniyasının nəticəsi kimi ən yüksək - 500 baldan yüksək nəticə göstərən məktəb məzunları sırasında hər 4 nəfərdən birinin ixtisas seçimində birinci müəllimliyi seçməsini xüsusi olaraq qeyd edərdim. Bu istiqamət barədə danışarkən, yəqin ki, təhsil sahəsində elektron xidmətlərin tətbiqini , həm də tətbiq olunan xidmətlərin coğrafiyasının genişlənməsini, eyni zamanda bir sıra keyfiyyətli təhsil xidmətlərinin təqdim edilməsi, insanların rahatlığına xidmət edən amil kimi bir sıra digər əlavə xidmətləri də qeyd edərdim.

### Təhsil müəssisələrinin maddi-texniki infrastrukturu yaxşılaşdırılır

**- Təhsil sistemində infrastrukturun müasirləşdirilməsi çox vacib istiqamətdir və buna çox böyük önəm verilir. Söhbət burada təchizatdan gedir, təhsilalanların oxuduqları, təhsil aldıqları şərait də gərək müvafiq olsun, onlar öz intellektual potensiallarını tam bir şəkildə realizə edə bilsinlər. Bu baxımdan, ölkə rəhbərliyinin də bu məsələyə diqqəti çox böyükdür. Son illərdə müşahidə etdiyimiz bu proses 2019-cu ildə də davam etdi. Qısaca olaraq bu məsələdə, həm də cari ilin nəticələri kimi hansı məqamları vurğulamaq olar?**

- Tamamilə düzgün qeyd edirsiniz ki, təhsil sahəsində aparılan işlər sırasında təhsil müəssisələrinin maddi-texniki infrastrukturunun yaxşılaşdırılması hər zaman ölkə rəhbərliyinin fəaliyyətində prioritet istiqamətdir. Biz 2003-2019-cu illərə nəzər salsaq, burada 3300 yeni məktəb binasının tikintisini və ya əsaslı təmir olunmasını qeyd edə bilərik. Yalnız 2019-cu ilin rəqəmlərinə baxsaq, müvafiq dövlət proqramlarının icrası istiqamətində tədbirlərin həyata keçirilməsi nəticəsində 84 yeni məktəb binasının tikintisi və əsaslı təmiri nəzərdə tutulmuşdur ki, onlardan 50-si modul tipli məktəblərdir. Bu işlərin hamısı dövlət proqramlarının tələblərinə uyğun olaraq zamanında yerinə yetirilib və şagirdlərin ixtiyarına verilib. Eyni zamanda, mən bu sahədə aparılan işlər barədə söz açanda mütləq şəkildə bu istiqamətdə hər zaman Heydər Əliyev Fondunun və Fonda rəhbərlik edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini və bu sahəyə olan xüsusi yanaşmasını qeyd etmək istərdim. Əvvəlki illərdə olduğu kimi, bu il də onlarla məktəb əlavə olaraq Fondun xətti ilə yenidən tikildi və əsaslı təmir olunaraq şagird və müəllimlərin istifadəsinə verildi. Həyata keçirilən ən böyük işlər barədə danışarkən, qeyd edim ki, həm 2019-2023-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı və həmçinin Bakı şəhəri və onun qəsəbələrinin inkişafı üzrə Dövlət Proqramına əsasən növbəti illərdə də bu işlərin davam etdirilməsi nəzərdə tutulub və o işlər həyata keçiriləcək.

### Bir sıra regionlarda 60, bu il isə əlavə 80 təmayül siniflər açılıb

**- Əsas proseslər təkcə paytaxtda deyil, həm də regionlarda cərəyan edir. Təhsil Nazirliyinin xətti ilə regionlarda da böyük işlər görülür, liseylər, peşə təmayüllü məktəblər açılır. Nəhayət, siz bu il STEAM layihəsini istifadəyə verdiniz. Yəni, bunlar harmonik şəkidə təhsilalanların təhsilə qatılması və onlardan daha çox intellektual fayda götürülməsinə hesablanıb. Çünki təhsilə, intellektual inkişafa qoyulan sərmayə heç vaxt itmir, əksinə, düzgün yanaşma nəticəsində xeyir gətirir. Bu baxımdan, istərdim ki, regionlarda olan proseslərə, yeni innovativ addımlara da işıq salasınız.**

- Düzgün qeyd etdiniz, Təhsil Nazirliyinin fəaliyyətinin bir istiqaməti də ondan ibarətdir ki, mütəmadi şəkildə təhsilin ümumilikdə keyfiyyətinin artırılması, məzmuna və qiymətləndirməyə yeniliklərin gətirilməsi, məzmunun, dərsliklərin mütəmadi şəkildə nəzərdən keçirilməsi, onların təkmilləşdirilməsi istiqaməti ilə yanaşı olaraq bir sıra innovativ layihələrin də təhsil sisteminə gətirilməsi hər zaman bizim üçün prioritet istiqamətdir. Bu layihələrin, yanaşmaların qısa bir müddət ərzində ölkənin bütün ümumtəhsil məktəblərində tətbiqi, təbii ki, mümkün deyil, ona görə də Təhsil Nazirliyi bu istiqamətdə pilot layihələr həyata keçirir. Öncə hansısa konkret regionda və məktəblərdə tətbiq edilir, daha sonra layihələr özlərini doğrultduqda onların genişləndirilməsi həyata keçirilir. Sizin qeyd etdiyiniz məsələyə cavab olaraq onu da qeyd edə bilərik ki, ilkin olaraq daha çox Bakı və Sumqayıt şəhərlərində mövcud olan xüsusi təmayül məktəbləri və pilot siniflərə əlavə olaraq ötən ildən etibarən bir sıra regionlarda 60, bu il isə əlavə 80 təmayül siniflər açılıb. Bundan əlavə, bu il biz Bakıda fəaliyyət göstərən Fizika- riyaziyyat və informatika təmayüllü və Kimya- biologiya təmayüllü respublika liseylərinin Gəncə, Şəki, Quba və Şirvan şəhərlərində filiallarını açdıq və beləliklə də müxtəlif regionlardan olan istedadlı uşaqlar üçün orada təhsil almaq imkanlarını yaratdıq. Hesab edirəm ki, biz bu fəaliyyəti növbəti tədris ilində də davam etdirəcəyik. Eyni zamanda, yeni innovativ yanaşmalardan danışarkən mən "Rəqəmsal bacarıqlar" layihəsini xüsusi olaraq vurğulamaq istərdim. Bu layihəyə də bir müddət öncə start verilib və ölkənin 5 şəhərini əhatə etməklə 123 məktəbdə 70 min şagird hazırda informatika fənninin yeni formatda, çox müasir standartlarda tədrisinə cəlb olunub.

### STEAM layihəsi artıq özünü təsdiq edib

**- Çox perspektivli istiqamətdir, elə deyilmi? Yəni, informatika günün tələbində olan yanaşmadır və bütün dünya buna diqqət yetirir...**

- Birmənalı şəkildə, burada əsas diqqət nəzəri biliklərə yox, xüsusi proqram təminatı ilə tədrisin böyük bir hissəsi gündəlik əsasda şagirdlərə yeni tapşırıqların verilməsinə və kodlaşdırmanın öyrədilməsinə, şagirdlər tərəfindən proqramların yazılmasına yönəldilir, onların nəinki öz sinif yoldaşları ilə, həm də həmin layihəyə cəlb olunmuş bütün digər bölgələrdən olan şagirdlər arasında bir bilik yarışması formatında həyata keçirilməsi təmin olunur. Həm şagirdlər, həm müəllimlər arasında çox böyük marağa səbəb olur və eyni zamanda, mən onu da qeyd edim ki, artıq bəlli bir əhatəliliyi nəzərə alaraq Təhsil Nazirliyi tərəfindən ölçmələr də həyata keçirilir. Layihəyə cəlb olunmuş və cəlb olunmamış şagirdlər arasında eyni fənn üzrə standartların ölçülməsi üzrə burada biz kifayət qədər əhəmiyyətli fərqləri görürük. Ona görə də bu bizim üçün əlavə bir stimuldur ki, layihənin genişlənməsi üzərində işlərimizi davam etdiririk. Bəhs etdiyiniz STEAM layihəsi artıq özünü təsdiq edib və dünyanın aparıcı təhsil sistemlərində müəyyən dövr ərzində tətbiq olunan bir yanaşmadır. Yanaşmanın əsas fəlsəfəsi ondan ibarətdir ki, burada fənlərin ayrı-ayrılıqda deyil, daha çox inteqrativ formada, layihələr əsasında - elm, texnologiya, mühəndislik, incəsənət, riyaziyyat formatında tədrisi nəzərdə tutulur.

### Növbəti tədris ilindən layihənin genişləndirilməsi nəzərdə tutulub

**- Deməli, ideyası hardasa startaplara yaxınlaşdırılır...**

- Bəli. Layihəyə bu il ilk dəfə olaraq sentyabr ayından Azərbaycanın 42 məktəbində 6500-ə yaxın şagird cəlb olundu və bu tədris təşkil olundu. Ancaq layihənin cari ildə tətbiqinə başlamaq üçün Təhsil Nazirliyi bir il əvvəl hazırlıq işlərinə başlamışdır. Bizim 50-yə yaxın seçilmiş müəllim və 10 nəfər məktəb rəhbəri xarici ölkələrə ezam olundu, həmin layihənin tətbiq olunduğu məktəblərdə oldular, məzmunla tanış oldular. Yay aylarında isə biz digər müəllimlər üçün də bu cür təlimlər təşkil etdik. Təchizi vacib olan alətlər gətirildi və bu ildən etibarən tətbiqinə başladıq. Mən onu da qeyd edim ki, bizim çox konkret hədəfimiz var. Növbəti tədris ilindən həmin layihənin genişləndirilməsi və ən azından 20 min şagirdin bu layihəyə cəlb olunması nəzərdə tutulub.

### Peşə təhsili ölkəmiz üçün prioritet istiqamətdir

**- Ceyhun müəllim, əgər bu ilin nəticələrindən danışırıqsa, 2019-cu ildə həm də Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi də istifadəyə verildi. Açılış mərasimində cənab Prezident İlham Əliyev də iştirak edirdi. Gözləntilər nədən ibarətdir və bu mərkəzlə bağlı ilkin nəticələr barədə danışmaq olarmı?**

- İlk növbədə, qeyd etməliyəm ki, peşə təhsili ölkəmiz üçün olduqca prioritet istiqamətdir. Ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğunluğu, eyni zamanda məktəb məzunlarının daha asanlıqla əmək bazarına səriştəli, peşəkarlar formatında daxil olmasını stimullaşdıran və ümumilikdə iqtisadiyyata çox müsbət təkan verə biləcək bir təhsil pilləsi olması nəzərə alınaraq son illər bu istiqamətdə çox geniş, belə demək olarsa, profil işlər həyata keçirilir. Və siz qeyd etdiyiniz layihə bu sahədə Azərbaycanın beynəlxalq əməkdaşlığının - Koreya hökuməti ilə Azərbaycan hökuməti arasında olan birgə layihənin nəticəsidir. Siz tamamilə düzgün qeyd edirsiniz ki, artıq sentyabr ayında cənab Prezidentin iştirakı ilə Bakıda Sənaye və İnnovasiya üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışı oldu. Bu, tamamilə yeni yanaşmadır. Burada söhbət yeni infrastrukturun qurulmasından, təchiz edilməsindən, eyni zamanda 8 texniki ixtisas üzrə məzmunun gətirilməsindən gedir, yeni yanaşma ondan ibarətdir ki, bu layihə üçün seçilmiş 26 nəfər peşəkar müəllim 3 aylıq təlimlərə göndərilmişdir və artıq bu ildən etibarən 250-yə yaxın gənc seçilərək 8 texniki istiqamət üzrə Mərkəzdə təhsilə cəlb olunublar. Ən müasir standartlar əsasən təlimlər təşkil edilib, eyni zamanda çox spesifik istiqamətlərdə biliklərlə yanaşı, həmin təhsilin məzmununun daxilinə sahibkarlıqla, biznes etikası ilə bağlı modullar əlavə edilib ki, həmin insanlar gələcəkdə o cümlədən özünəməşğulluq formatında fəaliyyət göstərə bilsinlər. İndiki gedişi onu göstərir ki, növbəti ildə həm tələbə sayının artırılması hesabına, eyni zamanda bir sıra - ölkəmizdə fəaliyyət göstərən həm yerli, həm beynəlxalq şirkətlərdən olan müraciətləri nəzərə alaraq onlar da qısamüddətli və ortamüddətli həmin mərkəzin bazasında işləri üçün təlimlərin keçirilməsində maraqlıdırlar və artıq 30-dan artıq bu istiqamətdə anlaşma memorandumu imzalanıb. Bizim gözləntimiz ondan ibarətdir ki, 2020-ci ilin sentyabr ayından orada təhsil alan tələbələrin sayı təxminən 1000 nəfərə çatdırılacaq.

⇨Ardı səh.5

# 2019-cu il nailiyyətlər, yeniliklərlə zəngin bir təhsil ili kimi yaddaşlarda qalacaq

⇦ Əvvəli səh.4

### İnsan kapitalının formalaşmasında ali təhsilin rolu böyükdür

**- Strateji hədəflərdən biri də ali təhsilin əlçatanlığıdır və ölkə rəhbərliyi də bu məsələyə çox böyük ümidlər bəsləyir. Yola saldığımız il ərzində də siz bu istiqamətdə xeyli işlər görmüsünüz. Yəni, hansı irəliləyiş əldə olunub? Yaxın gələcək, perspektiv üçün bu gedişatı necə təsəvvür edirsiniz?**

- Mən qeyd etmək istərdim ki, biz postindustrial bir cəmiyyət barədə danışırıqsa, təbii ki, bu artıq təsdiq olunmuş bir faktdir ki, burada əsas amil insan amili olacaq. İnsan kapitalının formalaşmasında ali təhsilin çox böyük rolu və əhəmiyyəti var.

Azərbaycan dövlətinin qarşısında qoyduğu məqsədlərdən biri ali təhsilin daha açıq və daha əlçatanlığı istiqamətində sistemli addımların atılmasıdır. Hesab edirəm ki, bu istiqamətdə 2019-cu ildə görülmüş işlər miqyasına görə çox böyük olub və onun böyük nəticələrini görürük. Məsələn, mən nümunə kimi onu qeyd edə bilərəm ki, dövlət vəsaiti hesabına ali təhsil almaq imkanları qazanan tələbələrdən danışırıqsa, 2018-ci ildə ali təhsil müəssisələrinə dövlət vəsaiti hesabına 12300 tələbə qəbul olurdusa, 2019-cu ildə bu rəqəm 20500-ə çatdırıldı və yaxud biz bir il ərzində 66 faizlik artımdan danışa bilərik. Eyni zamanda tələbələrin, biz burada 110 min tələbə barədə danışırıq, təhsilin müxtəlif pillələrində bu il ərzində təqaüd məbləğləri orta hesabla 20 faiz artırıldı. Mart ayının 1-dən cənab Prezidentin müvafiq sərəncamına uyğun olaraq təqaüd alan tələbələrin sayında 16 min vahid artım təsdiq olundu. Növbəti dövrlər üçün çox konkret hədəflər qoyulub. Ali təhsil sistemində 2019-2020-ci tədris ili üçün təqaüd alan tələbələrin sayının 45 faizdən az olmaması, 2020-2021-ci tədris ilində isə təqaüd alan tələbələrin sayının 50 faizə çatdırılması hədəf götürülüb.

Eyni zamanda siz bilirsiniz ki, bəzi kateqoriyalardan olan, bir sıra qruplara aid olan insanlar var ki, onlar akademik göstəricilərindən asılı olmayaraq dövlət hesabına təhsil alırlar. Eyni zamanda, əhatəliliyin artırılmasından danışarkən biz yalnız maliyyədən, müxtəlif dövlət dəstəyi proqramlarından danışmamalıyıq. Eyni zamanda, bu istiqamətdə ilk dəfə olaraq 2019-cu ildə qanunvericiliyə edilmiş və artıq qüvvəyə minmiş dəyişiklikləri də qeyd etməliyik. Onların sırasında mütləq şəkildə qanunvericiliyə edilmiş dəyişikliklər nəticəsində orta ixtisas məktəblərinin məzunlarının öz ixtisaslarına uyğun olaraq təhsilin növbəti pilləsində ali təhsillərini davam etdirmək istədikləri təqdirdə, onlara əlavə imtiyazların və şansların verilməsini qeyd etməliyik. Qeyd etmək istərdim ki, 2019- cu ildə dəyişikliyin tətbiqinə başlanıldı və 5 minə yaxın bizim orta ixtisas təhsili müəssisəsinin məzunları ali təhsil almaq imkanını məhz bu imtiyazdan istifadə edərək əldə etdilər. Yaxşı yeniliklərdən biri, o cümlədən qanunvericiliyə edilmiş dəyişikliyə əsasən respublika fənn olimpiadaları və beynəlxalq olimpiadaların, müsabiqələrin, yarışların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu ilə bağlıdır. Qanunvericiliyə edilmiş dəyişikliyə əsasən 100 nəfər bizim istedadlı gənc, beynəlxalq və respublika miqyasında özlərini təsdiq etmiş gənclərimiz ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq imkanı əldə etdilər. Bütün bu kompleks tədbirlər nəticəsində, demək istərdim ki, son bir neçə il ərzində bizim ali təhsil müəssisələrində tələbələrimizin sayı 20 faiz artmışdır.

### Təhsil Nazirliyi olaraq çalışırıq ki, cəmiyyətə açıq olaq

**- İslahatlar, ümumiyyətlə çox cazibəli bir şeydir. Onları heç bir halda dayandırmaq olmaz. Təhsil daim inkişafda olmalıdır və inkişaf trendində özünü düzgün ifadə etməlidir. Siz və rəhbərlik etdiyiniz Təhsil Nazirliyinin kollektivi çox açıq siyasət aparır və müvafiq strukturlarınız məlumatları vaxtaşırı olaraq yayırlar. Bu yaxşı bir haldır, çünki ictimaiyyət bu prosesləri izləyir, bu proseslərə qatılır. Digər tərəfdən, başqa ölkələrin təcrübəsinə baxsaq görürük ki, onlarda ictimai dinləmələr keçirilir, diskussiyalar aparılır, təhsillə, innovasiyalarla bağlı məlumat verilirsə, əvvəlcədən ictimai fikir öyrənilir. Təhsil Nazirliyi sistemində də bu proses təşəkkül tapıb və nazirliyin**



**qarşısında nizam-intizam məsələlərinin daha yüksək səviyyəyə qaldırılması artıq məqsəd kimi ortaya qoyulub. Bu istiqamətdə indiki vəziyyəti siz necə dəyərləndirirsiniz? Bu sahədə vəziyyət qənaətbəxşdirmi, yoxsa bu proses intibah dövrünə qədəm qoyub və davamiyyət olacaq?**

- Mən sualın birinci hissəsi ilə bağlı qeyd etmək istərdim ki, tamamilə düzgün qeyd olundu və hesab edirəm ki, bu çox təbiidir. Təhsil onun əhatəliliyi, cəmiyyətdə qəbul edilməsi və rolu nəzərə alınaraq elə bir sahədir ki, burada ictimai diskussiyaların olması, ictimai fikrin öyrənilməsi olduqca vacibdir. Təhsil Nazirliyi olaraq biz çalışırıq ki, cəmiyyətə açıq olaq.

### Biz ictimai nəzarəti daha da gücləndirməliyik

**- Çox üzr istəyirəm ki, bildiyimə görə, siz ünvanlı ictimai sorğular da aparırsınız?**

- Bir çox istiqamətlərdə bu cür sorğular aparırıq və bunu çox faydalı hesab edirik, istənilən sahədə vacib qərarların qəbul edilməsindən öncə biz müxtəlif diskussiyalar həyata keçiririk. Bunlar daha geniş məfhumda, fokus qrupları ilə bağlı ola bilər, sorğuların keçirilməsi və rəyin öyrənliməsi, hazırlanmış sənədlərin ictimai müzakirələrə çıxarılması formatında da ola bilər. Burada mən onu deyə bilərəm ki, təxminən bir il bundan öncə təhsilin dövlət standartları sənədi hazırlanmışdır və ilkin olaraq ictimai müzakirələrə təqdim edilmişdir. İctimai müzakirələrin nəticəsində bizim topladığımız rəylər əsasında sənəd yenidən işləndi və yay aylarında ikinci dəfə ictimai müzakirələrə təqdim edildi. Biz düşünürük ki, yaxınlarda biz o sənədi yekunlaşdıracağıq.

Artıq bir neçə ildir ki, Təhsil Nazirliyi tərəfindən yeni hazırlanmış dərsliklər xüsusi yaradılmış portalda çapa getməmişdən ən azı 6 ay öncə ictimai rəyin öyrənilməsi üçün ictimai müzakirəyə çıxarılır.

Və nəhayət, mən bir vacib məqamı qeyd etmək istəyirəm. İlk dəfə olaraq 2019-cu ilin yayında Təhsil Nazirliyi yanında İctimai Şura yaradıldı və təhsil sahəsində çox təcrübəsi olan nüfuzlu insanlardan ibarət İctimai Şura öz fəaliyyətinə başladı. İctimai Şuranın fəaliyyətini biz bir neçə istiqamətdə olduqca faydalı hesab edirik. Birinci istiqamət ictimai nəzarətin olmasından ibarətdir. Digər tərəfdən ictimai fikrin, ictimai rəyin öyrənilərək daha sistemli şəkildə nazirliyə təqdim edilməsidir. Eyni zamanda, nazirliyin də bir sıra qəbul etdiyi qərarlarını və yanaşmaları bizimlə daim müzakirədən keçirməklə onu da yanaşma olaraq ictimaiyyətə çatdırmaqda, hesab edirik ki, bizim ümumi işimizə böyük bir töhfə verə bilər.

Siz, eyni zamanda bəlli bir intizam tədbirləri barədə sual verdiniz. Və hansısa bir intizam tədbirlərinin görülməsi müəyyən mənada, bu, artıq nəticələrlə mübarizədir. Təhsil Nazirliyi olaraq biz, təbii ki, hesab edirik ki, daha böyük diqqət ilkin mərhələdə maarifləndirmə, düzgün mesajların çatdırılması, xidmətlərin elə bir formatda təşkil edilməsidir ki, biz, o cümlədən elektron xidmətlərdən danışırıq, hər hansı xoşagəlməz, neqativ halların qarşısı alınsın və onlar baş verməsin. Ancaq biz, hər birimiz, eyni zamanda yaxşı başa düşürük ki, təhsil sahəsi çox böyük bir sistemdir. Əfsuslar olsun ki, il ərzində həyata keçirdiyimiz bir sıra nəzarət tədbirləri nəticəsində biz kifayət qədər ciddi pozuntuların şahidi oluruq və belə olan təqdirdə, təbii ki, Təhsil Nazirliyi üçün 2019-cu il də istisna olmamışdır. Mən hətta onu da deyim ki, 2018-ci illə müqayisədə 2019-cu ildə Təhsil Nazirliyi tərəfindən daha ciddi tədbirlər görülmüşdür. Bu il ərzində 6 nəfər rayon təhsil şöbəsi rəhbərinin, 15 nəfərə yaxın məktəb direktoru, direktor müavininin müqavilələrinə xitam verildi. Davamlı şəkildə nəticələri bir o qədər də ürəkaçan olmayan 80 nəfər məktəb direktorunun müqaviləsinin müddəti başa çatandan sonra növbəti dəfə müqavilənin müddətinin uzadılmaması barədə qərarlar qəbul edildi. 7 nəfər haqda çox ciddi pozuntuların olması nəzərə alınaraq materiallar toplanaraq hüquqi qiymət verilməsi üçün hüquq-mühafizə orqanlarına təqdim olundu. Ancaq bunları söyləməklə mən onu da qeyd etmək istərdim ki, təbii ki, nəzarətin həyata keçirilməsi və eyni zamanda nizam-intizam tədbirlərinin görülməsi - bunlar qaçılmazdır. Ancaq özümüz üçün əsas prioriteti onda görürük ki, biz maarifləndirmə işlərimizi daha da genişləndirməliyik, ictimai nəzarəti daha da genişləndirməliyik ki, bu kimi halların qarşısını alaq ki, məsələlər bəhs etdiyimiz səviyyəyə gəlib çatmasın.

### 5 yaşlıların məktəbəhazırlıq səviyyəsinin əhatəliliyinin 90 faizə çatdırılması hədəfdir

**- Sonda mən istərdim ki, siz yeni ilin əsas hədəfləri, prioritetləri barədə də danışasınız, çünki bu, həqiqətən də diqqətçəkən bir məqamdır...**

- Mən, ilk növbədə qeyd etmək istəyirəm ki, 2020-ci ildə məktəbəqədər təhsilin əhatəliliyinin genişlənməsi, 3-4 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunmasının əhatəliliyinin artırılması qarşıdakı prioritetlərdəndir. 5 yaşlıların məktəbəhazırlıq səviyyəsinin əhatəliliyinin 90 faizə çatdırılması hədəfdir. Mən onu qeyd edə bilərəm ki, biz artıq məktəbəhazırlığın əhatəliliyini 80 faizə çatdırmağa nail olmuşuq. Növbəti hədəf ondan ibarətdir ki, yeni dərs ilində bu rəqəm 90 faizə çatdırılsın və belə olan təqdirdə biz 5 yaşlı şagirdlərin məktəbəqədər təhsilə cəlb olunma səviyyəsini inkişaf etmiş ölkələrin göstəricilərinə yaxınlaşdıra bilərik.

### Təhsil sahəsində dövlət - özəl əməkdaşlığının genişləndirilməsini hədəf seçmişik

**- Biz burada öz modelimizi sınaqdan keçiririk, yoxsa digər ölkələrin də təcrübəsini nəzərə alırıq?**

- Biz, təbii ki, beynəlxalq təcrübələri nəzərə alırıq. Ancaq beynəlxalq təcrübədən nəzərə aldığımız məqamları Azərbaycanda tətbiq edərkən, təbii ki, Azərbaycan konteksti, Azərbaycan reallıqlarını hər zaman nəzərə alırıq. Eyni zamanda mən düşünürəm ki, 2020-ci il üçün növbəti hədəflərdən biri də odur ki, növbəti akademik ildən etibarən yeni modelə əsasən ilk öncə ehtiyat dərslik modelində hazırlanaraq artıq müəyyən dövr Azərbaycan məktəblərində sınaqdan keçən və əsas fənləri əhatə edən növbəti ildən birinci siniflər üçün yeni dərsliklərin məktəblərdə tətbiqinə başlanmasını planlaşdırırıq. Eyni zamanda, yuxarı siniflərdə təmayülləşmə proqramının genişlənməsini və daha çox şagirdin təmayül siniflərinə cəlb edilməsini özümüz üçün hədəf qoymuşuq. Peşə təhsili sahəsində də 2020-ci il üçün kifayət qədər çox planlar var. Həm beynəlxalq əməkdaşlılq nəticəsində xarici tərəfdaşlarla birlikdə bir sıra yeni peşə tədris mərkəzlərinin yaradılması, mövcud olan məktəblərin infrastrukturunun yaxşılaşdırılması, bu sahəyə real sektordan böyük şirkətlərin daha fəal cəlb edilməsi də 2020-ci ilin hədəflərindəndir. Ümumilkdə isə bir sıra istiqamətlərdə mövcud və mümkün olan imkanlardan istifadə edərək təhsil sahəsində dövlət-özəl əməkdaşlığının genişləndirilməsini biz 2020-ci il üçün hədəf seçmişik. Buraya ilkin mərhələdə, mən düşünürəm ki, əsas prioritetlər - bu, peşə təhsili sahəsi ola bilir, eyni zamanda tələbə yataqxanalarının tikintisinə biz özəl sektorun daha fəal formada investisiyaların qoyulması və 2020-ci il üçün hədəf kimi müəyyən etmişik. Biz ali təhsil sahəsindən danışarkən, düşünürük ki, əhatəliliyin və əlçatanlılığın artırılması istiqamətində bu il çox geniş formada tətbiq olunan yeni yanaşmalar növbəti ildə də davam etdirilsin və müəyyən dövlət dəstəyi mexanizmlərinin genişlənməsi istiqamətində işlər davam etdirilsin. Xüsusi olaraq mən onu vurğulamaq istəyirəm ki, "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq növbəti il üçün bir sıra istiqamətlər - həm bakalavriatura, həm magistratura səviyyələri üzrə bizim universitetlərimizin dünyanın aparıcı universitetləri ilə əlavə beynəlxalq ikili diplom proqramlarının tədrisinə başlanmasını da planlaşdırırıq. Yenə də həmin dövlət proqramına uyğun olaraq bizim gənc alimlərin və tədqiqatçıların dünyanın aparıcı universitetlərində doktorantura təhsilinə göndərilməsi və dövlət vəsaiti hesabına onların maliyyələşdirilməsini də gələn ildə geniş vüsət almasını gözləyirik.

### Ali məktəblərimiz bir sıra beynəlxalq elmi platformalara çıxış əldə edib

**- Yəqin ki, bu proqramların həm də universitet elminin inkişafına çox böyük təsiri olacaq. Çünki bütün dünyada universitet elminin mövqeyi son dərəcədə fəaldır. Universitetlərdə çox mütərəqqi layihələr həyata keçirilir, yeni tapıntılar, innovativ yanaşmalar və s. dünyaya göz açır. Yəqin ki, Azərbaycanda da bu prosesi gözləməyə dəyər...**

- Təbii ki, bu istiqamətdə biz deyək ki, dünyanın aparıcı reytinqlərində universitetlərin mövqeyini müəyyən edən əsas göstəricilərə nəzər salsaq, onların hər birinin daxilində universitetin elmi potensialının çox böyük yer aldığını görə bilərik. Bunu başa düşərək bir neçə il əvvəl Təhsil Nazirliyi və bir sıra universitetlər "Web of Science" elmi platforması ilə müqavilə imzalamışdır. Nəticədə bizim ali təhsil müəssisələrimizin bir sıra beynəlxalq elmi platformalara çıxışı əldə edilmişdir. Eyni zamanda, mən onu da qeyd etmək istərdim ki, hazırda bu işin daha da genişlənməsi istiqamətində növbəti digər elmi baza ilə danışıqlar yekunlaşmaq üzrədir. Biz düşünürük ki, 2020-ci ildə Azərbaycan ali təhsil müəssisələrinin növbəti beynəlxalq reytinqlərdə müsbət qarşılanan elmi bazalara çıxışları genişlənəcək.

Onu da qeyd etmək istərdim ki, bu fəaliyyət başlanandan sonra bizim universitetlərimizdə çalışan alimlərimizin, ümumilikdə Azərbaycanda müxtəlif təşkilatlarda çalışan alimlərin elmi nəşrlərinin sayında çox ciddi artım müşahidə edilir. Azərbaycan bu istiqamətdə xüsusilə son illər ərzində davamlı olaraq Cənubi Qafqaz ölkələri arasında lider mövqeyini əldə edib və öz mövqeyini saxlayır.

Biz düşünürük ki, növbəti il üçün biz kəmiyyət göstəricisi ilə yanaşı olaraq, çox ciddi şəkildə keyfiyyət göstəricilərinə də nəzər salacağıq. Çünki yalnız beynəlxalq nəşrlərdə, yüksək impakt-faktorlu jurnallarda elmi məqalələrin sayı deyil, eyni zamanda, onlara istinad əmsallarının təhlili aparılacaq və son bir neçə il ərzində Azərbaycanda nəşr olunan və aparıcı elmi bazalara daxil olan elmi jurnalların da sayında bu il artım var. Amma, hesab edirik ki, Azərbaycan ali təhsil sisteminin potensialı ondan daha yüksəkdir. Növbəti gözləntilərimiz də buna uyğundur.

# Təhsil naziri Vəndam qəsəbəsindəki yeni məktəbin açılışında



Dekabrın 25-də Qəbələ rayonu Vəndam qəsəbəsi Hikmət Rəşidov adına 2 nömrəli tam orta məktəbin yeni inşa olunan binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində Təhsil naziri Ceyhun Bayramov, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev iştirak ediblər.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Daha sonra məktəbin açılışını bildirən rəmzi qırmızı lent kəsilib, nazir və digər iştirakçılar yeni məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar. Bildirilib ki, məktəb 360 şagird yerlikdir. 2 mərtəbəli tədris korpusundan ibarət olan məktəbdə 15 sinif otağı ilə yanaşı məktəbəhazırlıq, tibb, texnologiya, kompüter otaqları, kimya, fizika və biologiya laboratoriyaları, çağırışaqədərki hazırlıq kabineti, 162 yerlik akt zalı, 100 yerlik yeməkxana, texniki otaq və kitabxana da vardır.

Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri, internet və telefon xətləri çəkilib. Binanın istiliklə təmin olunması üçün müasir tələblərə cavab verən qazanxana və nasosxana tikilib.

# Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının üzvləri ilə görüş



Dekabrın 25-də Təhsil naziri Ceyhun Bayramov Qəbələyə səfəri çərçivəsində Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının üzvləri ilə görüşüb.

Qəbələ rayonu Vəndam qəsəbəsi Hikmət Rəşidov adına 2 nömrəli tam orta məktəbin akt zalında baş tutan görüşdə Təhsil naziri bildirib ki, son illərdə müəllim peşəsinin nüfuzu daha da yüksəlib, müəllim olmaq istəyənlərin sayı xeyli artıb. Ceyhun Bayramov qeyd edib ki, müəllimin əsas vəzifəsi cəmiyyət üçün layiqli vətəndaş yetişdirməkdir. Müəllim yalnız tədris fəaliyyəti ilə deyil, davranışı ilə də şagirdlərinə nümunə olmalıdır.

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının fəaliyyətini qiymətləndirən nazir deyib ki, bu qurum müəllimlərin inkişafına stimul verir. Assosiasiyanın fəaliyyəti çərçivəsində gənc müəllimlər üçün onlayn platformanın istifadəyə veriləcəyini deyən nazir müəllimlərin bu platforma vasitəsilə fəaliyyətlərinə dair məlumatları, yenilikləri paylaşa biləcəklərini qeyd edib.

Çıxışının sonunda Təhsil naziri Ceyhun Bayramov müəllimlərin hər birinə uğurlar arzulayıb.

Daha sonra görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Təhsil nazirinin müavini prorektorlarla görüşüb






**Oruc MUSTAFAYEV**

Dekabrın 26-da Təhsil nazirinin müavini Firudin Qurbanov ali təhsil müəssisələrinin prorektorları ilə görüşüb.

Orta ixtisas təhsili müəssisələrinin direktorları, direktor müavinlərinin də iştirak etdiyi görüşdə çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, tədbirin məqsədi təhsil müəssisələrində tərbiyə işinin təşkili ilə bağlıdır. Firudin Qurbanov bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş tədbirdəki konseptual çıxışında dünyadakı çağırışlar, Azərbaycanın bu çağırışlara müvafiq yanaşması, ölkəmizdə aparılan islahatlar, eləcə də təhsil müəssisələri qarşısında duran həlli vacib vəzifələrə, həmçinin bir sıra digər məsələlərə xüsusi diqqət çəkib.

IV sənaye inqilabından danışan Təhsil nazirinin müavini qeyd edib ki, bu dövr həm də süni intellektin sənaye və istehsalatda geniş tətbiq olunması ilə müşayiət olunur. Yeni çağırış və dəyişikliklərin təhsil sisteminə təsirindən danışan Firudin Qurbanov bildirib ki, belə bir şəraitdə təhsil müəssisələri qarşısında hərtərəfli, müasir biliklərlə yanaşı, həm də ünsiyyət qurma bacarıqlarına malik, komanda mühitində işləməyi, öz işini proqnozlaşdırmağı bacaran gənclərin yetişdirilməsi mühüm şərtdir. Nazir müavini xüsusi qeyd edib ki, ali təhsil müəssisələri təkcə bilik və bacarıqlara deyil, həm də müxtəlif insani keyfiyyətlərə, qabiliyyətlərə malik insan yetişdirməlidir ki, onlar cəmiyyətə fayda versinlər. Bu mənada ali təhsil müəssisələri qarşısında çətin, məsuliyyətli vəzifə durur.

Təhsil nazirinin müavini gənclərin milli ruhda tərbiyəsi, onlarda vətənpərvərlik hissinin aşılanmasında ali təhsil müəssisələrinin qarşısında duran mühüm vəzifələrdən danışıb. Ali təhsil müəssisələrində gənclərlə müvafiq işlərin aparılmasının zəruriliyini qeyd edən Firudin Qurbanov gənclərin mühüm mədəni-kütləvi, incəsənət tədbirlərinə, intellektual oyunlara, idman yarışlarına cəlb olunmasının vacibliyini vurğulayıb. Nazir müavini təhsil müəssisələrində təlim-tərbiyə işinin gedişi ilə bağlı müvafiq monitorinqlər aparılacağını əlavə edib.

Daha sonra qarşılıqlı fikir mübadiləsi şəklində davam etdirilən görüşdə təhsil müəssisələrində tərbiyə işinin gücləndirilməsi və digər məsələlərlə bağlı təkliflər səsləndirilib.

# Məktəblilərin Bakı şəhər birinciliyinin bağlanış mərasimi

"Olimpiya hərəkatı" layihəsi çərçivəsində məktəblilərin Bakı şəhər birinciliyinin bağlanış mərasimi keçirilib.

İlk olaraq həndbol üzrə yarışların final oyunları baş tutub. Daha sonra birinciliyin proqramına daxil olan badminton, həndbol və velosiped idman növləri üzrə qalib komandalar mükafatlandırılıb. Qalibləri Təhsil nazirinin müavini Firudin Qurbanov, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, Azərbaycan Velosiped Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov, Azərbaycan Badminton Federasiyasının baş katibi Nəsimi Musayev, Azərbaycan Həndbol Federasiyasının baş katibi Orxan Məmmədov, Olimpiya çempionları Fərid Mansurov, Zemfira Meftahətdinova və Lüdmila Şubina təltif edib.

I, II, III yerləri tutan məktəb komandalarına kubok, diplom, medal və həvəsləndirici hədiyyələr təqdim olunub.

Qeyd edək ki, noyabr-dekabr aylarında keçirilən yarışlara badminton, həndbol və velosiped idman növləri üzrə Bakı şəhərinin 12 rayonundan 291 məktəb, 13 mindən çox məktəbli qatılıb.

Badminton idman növü üzrə I yeri Yasamal rayonu 286 nömrəli, II yeri Xətai rayonu 260 nömrəli, III yeri Binəqədi rayonu 276 nömrəli tam orta məktəblərin komandaları, velosiped idman növü üzrə I yeri Yasamal rayonu 308 nömrəli, II yeri Xətai rayonu 29 nömrəli, III yeri Nəsimi rayonu 111 nömrəli tam orta məktəblərin komandaları tutub. Həndbol idman növü üzrə isə I yerə Xəzər rayonu 183 nömrəli, II yerə Nizami rayonu 12 nömrəli, III yerə 80 nömrəli tam orta məktəblərin komandaları layiq görülüb.

Birinciliyin keçirilməsində məqsəd məktəblilər arasında olimpiya hərəkatını təşviq etmək, təhsil müəssisələri ilə idman federasiyaları arasında əməkdaşlığı gücləndirmək, ümumi təhsil müəssisələrində fiziki tərbiyə fənninə marağı artırmaq, olimpiya idman komplekslərindən səmərəli istifadəni təşkil etmək və hədəf idman növləri üzrə kütləviliyi artırmaqdan ibarətdir.

"Olimpiya hərəkatı" layihəsi Təhsil və Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsi və Beynəlxalq Olimpiya Komitəsinin ümumdünya tərəfdaşı olan "Coca-Cola" şirkətinin birgə tərəfdaşlığı ilə keçirilir.

# Rayon təhsil şöbələrinin fəaliyyətinə dair hesabat tədbiri

Dekabrın 20-də Hacıqabul rayon Heydər Əliyev Mərkəzində Şirvan şəhəri, Hacıqabul və Kürdəmir rayon təhsil şöbələrinin fəaliyyətinə dair hesabat tədbiri keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Şirvan şəhəri, Hacıqabul və Kürdəmir rayon təhsil şöbələrinin müdirləri, təhsil işçiləri və məktəb direktorları iştirak ediblər.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Tədbirdə Şirvan şəhəri, Hacıqabul və Kürdəmir rayon təhsil şöbələrinin müdirlərinin dərs ilinin prioritet fəaliyyət istiqamətləri üzrə Təhsil Nazirliyinin müvafiq əmrlərinin icra vəziyyəti ilə əlaqədar hesabat məruzələri dinlənilib.

Daha sonra Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək hesabatlar barədə fikrini bildirib. Nazir müavini məktəblərdə tədris prosesinə rəhbərlik və nəzarət mexanizminin təkmilləşdirilməsinin vacibliyini vurğulayıb, həmçinin təhsil sahəsinə göstərilən diqqət və qayğıdan, qazanılan uğurlardan, qarşıda duran vəzifələrdən ətraflı bəhs edib.

Sonra qeyd olunan rayonların məktəb direktorlarının iştirakı ilə görüş keçirilib. Görüşdə ümumi təhsil müəssisələrində həyata keçirilən tədbirlərin məqsədyönlü və səmərəli təşkili, tədrisin keyfiyyətinin yüksəldilməsi məsələlərinə toxunulub.

Çıxışının sonunda Məhəbbət Vəliyeva tövsiyə və tapşırıqlarını verib, təhsil işçilərinə uğurlar arzulayıb.

Tədbirdə xüsusi fəaliyyətinə görə seçilən təhsil işçiləri təltif edilib.

Sonda tədbir iştirakçılarının təklifləri dinlənilib və suallar cavablandırılıb.

# Xızıda məktəb açılışı olub

Dekabrın 26-da Rafiq İsmayılov adına Xızı şəhəri 1 nömrəli tam orta məktəb üçün inşa olunan yeni binanın açılış mərasimi keçirilib.

Açılış mərasimində Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, məktəb kollektivi iştirak ediblər.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Daha sonra məktəbin açılışını bildirən rəmzi qırmızı lent kəsilib, nazir müavini və digər iştirakçılar yeni məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Nazir müavini Məhəbbət Vəliyeva məktəb kollektivi ilə söhbət zamanı bildirib ki, müəllim və şagirdlər onlar üçün yaradılan bu şəraiti dəyərləndirməlidirlər. Nazir müavini qeyd edib ki, şagirdin milli-mənəvi dəyərlər ruhunda düzgün tərbiyələndirilməsi hər bir müəllimin vəzifə borcu olmalı və bu istiqamətdə iş düzgün təşkil edilməlidir.

Məhəbbət Vəliyeva təhsil sahəsində həyata keçirilən uğurlu islahatlar, müəllim fəaliyyətinin stimullaşdırılması, məktəb tikintisi istiqamətində görülən işlərdən də danışıb.

Qeyd edək ki, sözügedən məktəb 420 şagird yerlikdir. 2 mərtəbəli tədris korpusundan ibarət məktəb binasında 17 sinif otağı ilə yanaşı kompüter, məktəbəhazırlıq, tibb, texnologiya otaqları, kimya, fizika və biologiya laboratoriyaları, çağırışaqədərki hazırlıq kabineti, 168 yerlik akt zalı, 68 yerlik yeməkxana, idman zalı və kitabxana vardır. Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri, internet və telefon xətləri çəkilib. Binanın istiliklə təmin olunması üçün müasir tələblərə cavab verən qazanxana və nasosxana tikilib.

# "Günəşə doğru" adlı ədəbi-bədii kompozisiya

**Sifai SƏFƏROVA**

Dekabrın 25-də Azərbaycanın böyük şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Günəşə doğru" adlı ədəbi-bədii kompozisiya keçirilib.

Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə Təhsil nazirinin müavini İdris İsayev, Peşə Təhsili üzrə Dövlət Agentliyinin sədr müavini Amil Əlili, Xəzər Rayon İcra Hakimiyyətinin birinci müavini Elşən Qurbanov, tanınmış ictimaiyyət nümayəndələri, peşə təhsili mərkəzlərinin direktorları, incəsənət nümayəndələri və digər şəxslər iştirak ediblər.

İştirakçılar əvvəlcə Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin zərgər, kostyum ustası və dərzi , interyer və eksteryerin bədii tərtibatçı qruplarının əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Daha sonra tələbələrin ifasında ədəbi-bədii kompozisiya təqdim olunub. Ədəbi-bədii kompozisiyada tələbələrin ifasında ilk insan yaranışı İmadəddin Nəsiminin qəzəllərində təcəssümünü tapmış ilahi yaranış, od, su, torpaq fəlsəfəsinin səhnə həlli nümayiş olunub.

Tədbirin sonunda Təhsil nazirinin müavini İdris İsayev və digər qonaqlar çıxış edərək lisey tələbələri tərəfindən təqdim olunmuş bu kompozisiyadan məmnunluqlarını ifadə ediblər.

# Məsafəni yaxınlaşdıran texnologiya - LOLA

## Bakı Musiqi Akademiyasında texnologiya və şəbəkələrin misilsiz xariqələr yarada bildiyini nümayiş etdirən virtual konsert keçirilib





⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

Layihə ilə bağlı çox yüksək fikirdə olan Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli bunu Azərbaycanın elm və təhsili üçün mühüm əhəmiyyət kəsb edən hadisə kimi qiymətləndirib. O, yeni tətbiqin musiqi dünyasına əvəzsiz töhfə verəcəyini düşünür.

### Müasir texnologiyalardan təhsildə geniş istifadə olunur

AzScienceNet ölkədə elm və təhsil sahələrinin inteqrasiyasında böyük imkanlara malikdir. AMEA və Təhsil Nazirliyi arasında bu istiqamətdə işgüzar əməkdaşlıq əlaqələri yüksələn xətt üzrə inkişaf edir. Artıq ölkənin 18 təhsil müəssisəsi AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun AzScienceNet şəbəkəsi və Data Mərkəzin xidmətlərindən yararlanmaq imkanı əldə edib. Təhsil Nazirliyi AzEduNet şəbəkəsinin AzScienceNet şəbəkəsinə inteqrasiyası istiqamətində həyata keçirilən tədbirləri daha da genişləndirib. Təklif edilən 1 Gbit/san İnternet trafikdən 700 Mbit/san sürət AzEduNet şəbəkəsinə təqdim olunub. GEANT ilə əməkdaşlıq əlaqələri isə Azərbaycan təhsil müəssisələrində aparılan elmi tədqiqatların səmərəliyinin artırılmasına geniş imkanlar yaradacaq. Təhsil nazirinin müavini Firudin Qurbanov hesab edir ki, musiqi və müasir texnologiyalar bu gün dünyada çox böyük əhəmiyyətə malik iki sahədir: "Müasir texnologiya sürətlə inkişaf etdiyindən onu tənzimləmək lazımdır. Eyni zamanda, rəqəmsal texnologiyalar musiqinin qorunmasında, geniş auditoriyaya çatdırılmasında böyük imkanlara malikdir. Bu layihənin özəlliyi ondadır ki, bu iki sahənin sintezi nəticəsində insanlar məsafədən asılı olmayaraq, çox gözəl musiqi nümunələrini izləyə biləcək. Müasir texnologiyalardan təhsildə geniş istifadə olunur. Nəticədə dünyadakı qabaqcıl təcrübələri, mühazirələri qısa zamanda nəinki tələbə və müəllimlərə, bütövlükdə hər kəsə çatdıra bilərik. Master-klasların keçirilməsinə də imkan yaradacaq bu texnologiya tədris prosesində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqində önəmlidir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə ali təhsilin rəqabətliliyinin artırılması ilə bağlı proqram təsdiq edilib. Hesab edirəm ki, bu kontekstdə sözügedən sistemin əhəmiyyəti böyükdür".

Nazir müavini Təhsil Nazirliyinin ilk gündən bu layihəni dəstəklədiyini xüsusi qeyd edib.

### Sürətin 70 faizi təhsil müəssisələri üçün ayrılıb

"Şərq Tərəfdaşlığının əsas məqsədlərindən biri genişzolaqlı internet şəbəkəsinin yaradılması və müvafiq ölkələrin aidiyyəti qurumlarının Avropanın elm və təhsil şəbəkəsinə inteqrasiyası, həmin ölkələrdə fəaliyyət göstərən alim və mütəxəssislərin beynəlxalq elmi əməkdaşlığına dəstək verilməsidir", - deyən akademik R.Əliquliyev rəhbərlik etdiyi qurumun öz missiyasına uyğun olaraq bu prosesdə fəal iştirak etdiyi qənaətindədir. Onun sözlərinə görə, "EaPConnect" layihəsi çərçivəsində İnternet sürətinin 3Gb/s və backup (ehtiyat) xəttinin isə 1Gb/s sürətə çatdırılması üçün işlər aparılıb, təqdim olunan sürətin 70 faizi təhsil müəssisələri üçün ayrılıb.

Ötən ilin iyununda "Azərbaycan elm və təhsilinin Avropaya inteqrasiya olunmasında GEANT şəbəkəsinin rolu" mövzusunda keçirilən toplantıda Bakı Musiqi Akademiyasında LOLA xidmətinin yaradılmasının təklif olunduğunu xatırladan R.Əliquliyev qeyd edib ki, məhz LOLA sisteminin akademiyada tətbiqindən sonra BMA ilə Estoniya Musiqi və Teatr Akademiyası arasında yeni əməkdaşlığa dair memorandum imzalanıb. Hətta Latviya, Belarus kimi ölkələr birgə layihələrin hazırlanması məqsədilə Azərbaycana müraciət ediblər. O, sistemin İtaliyanın elm və tədqiqat şəbəkəsi olan GARR ilə əməkdaşlıq edən Cuseppe Tartini adına Triest Konservatoriyası tərəfindən yaradıldığını diqqətə çatdırıb. Hazırda bu sistemə dünyanın 30-dan çox ölkəsi və 80-ə yaxın şəhərindən 107 nöqtədə qoşulma həyata keçirilir.

### Yerli alim, tələbə və tədqiqatçıların qlobal tədqiqat və təhsil əməkdaşlığında iştirakı asanlaşır

"Bu gün biz rəqəmsal texnologiyaların ölkələr arasında elmi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsinə, eləcə də dünya xalqlarının mədəni irsinin təbliğinə əvəzolunmaz töhfələr verdiyinin şahidi oluruq", - deyən Veronika Di Luna "EaPConnect" layihəsinin məqsədlərinə diqqət çəkib. Onun sözlərinə görə, Avropa Komissiyasının maliyyə dəstəyi ilə reallaşdırılan, əsas koordinatoru GEANT Assosiasiyası olan və artıq 4 ildir ki, davam edən "EaPConnect" layihəsi rəqəmsal fərqin aradan qaldırılmasına xidmət edir. Region daxilində qarşılıqlı əlaqələrin yaxşılaşdırılması və yerli alim, tələbə və tədqiqatçıların qlobal tədqiqat və təhsil əməkdaşlığında iştirakının asanlaşdırılmasına imkan yaratmağı qarşısına məqsəd qoyub. Qloballaşan dünyada çoxsaylı tədqiqat müəssisələri arasında əlaqələrin möhkəmləndirilməsində "EaPConnect" layihəsi geniş imkanlar açır.

### LOLA beynəlxalq şəbəkələri inkişaf etdirir

LOLA texnologiyasının 2017-ci ilin oktyabrında Estoniyada "Sərhədsiz musiqi" adlı tədbiri keçirilərkən işə salındığını qeyd edən İ.İlya o zamandan etibarən bu texnologiyanın beynəlxalq şəbəkələri inkişaf etdirdiyini deyib. Nüfuzlu beynəlxalq institutlarla birgə LOLA-dan istifadə edildiyini diqqətə çatdırıb: "Bakı Musiqi Akademiyası ilə mühazirələr və ustad dərsləri də daxil olmaqla, gündəlik elmi və yaradıcılıq fəaliyyətini əhatə edən uzaq məsafəli əməkdaşlığımızı yeni üslubda yeni nailiyyətlər ilə davam etdirmək bizim ən ümdə arzularımızdandır".

### LOLA gənc musiqiçilərin qarşısında yeni qapılar açır

K.Allaçio təxminən 15 il bundan əvvəl dünya musiqiçilərinin öz xəyallarını gerçəkləşdirə bilmələri üçün informasiya-kommunikasiya texnologiyaları mütəxəssislərinə müraciət etdiklərini xatırladıb. "Biz bu gün həmin musiqiçilərin arzusunun reallığa çevrildiyinin şahidi oluruq. Artıq dünyanın müxtəlif ölkələrindən olan musiqiçilər eyni anda "eyni məkan"da birgə konsert keçirə bilir, dünya mədəniyyətinə misilsiz töhfələr bəxş edirlər. LOLA audiovizual yayım sistemi gənc musiqiçilərin qarşısında yeni qapılar açır. Gənc musiqiçilər və tələbələr LOLA-nın köməyilə peşəkarlardan ustad dərsləri ala, müxtəlif layihələrdə özlərini sınaya bilərlər".

K.Lillemets Estoniya Milli Tədqiqat və Təhsil Şəbəkəsinin keçmiş tədbirlərdə "EaPConnect" layihəsinin tərəfdaşları, eləcə də Estoniya Musiqi və Teatr Akademiyası ilə əməkdaşlıq etdiyini, texniki sahələrdə əldə etdiyi təcrübəni daha da təkmilləşdirdiyini, ən önəmlisi, məhsuldar əməkdaşlıq münasibətlərini qurmaq imkanı yaratdığını diqqətə çatdırıb.

### Azərbaycanlı və estoniyalı musiqiçilərin virtual konserti

Bilik, incəsənət, elm və texnologiya arasında sərhəd olmadığını nümayiş etdirən LOLA səs və videonu aparatlar vasitəsilə birləşdirməklə insanları qəlbən və ruhən bir-birinə yaxın hiss etdirir. Bakı Musiqi Akademiyasında estoniyalı musiqiçilərlə birgə təşkil edilən virtual konsert də texnologiya və şəbəkələrin misilsiz xariqələr yarada bildiyini nümayiş etdirib.

# "High Performance Computing" (HPC) mərkəzinin açılış mərasimi keçirilib

Dekabrın 25-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) "High Performance Computing" (HPC) Mərkəzinin açılış mərasimi keçirilib.

Tədbirdə ADNSU-nun rektoru Mustafa Babanlı, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, Təhsil nazirinin müavini İdris İsayev, "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə, digər hökumət üzvləri, eləcə də ölkənin aparıcı ali təhsil müəssisələrinin rektorları, AMEA-nın institut direktorları, universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

ADNSU-nun rektoru Mustafa Babanlı qonaqları salamlayaraq HPC Mərkəzi haqqında məlumat verib. Mustafa Babanlı bildirib ki, yüksək sürət tələb edən hesablamaları həyata keçirmək üçün istifadə oluna bilən müasir elmi istiqamət olan HPC Mərkəzi kompüter elmlərində, o cümlədən kompüter hesablamalarının istifadə olunduğu müxtəlif elm sahələrində kvant mexanikası, hava proqnozlaşdırması, molekulyar modelləşdirmə, fiziki modelləşdirmə kimi istiqamətlərdə çox böyük tətbiq imkanlarına malikdir. Belə bir mərkəzin təsis olunmasında əsas məqsəd ölkədə HPC ilə bağlı elmi texnoloji məsələlərin həlli və kadr hazırlığını təmin etməkdir.

Açılış mərasimində HPC Mərkəzinin elmi-təşkilati işlər üzrə icraçısı Nigar İsmayılova məruzə ilə çıxış edərək mərkəzin fəaliyyəti haqqında geniş məlumat verib.

Sonra Təhsil nazirinin müavini İdris İsayev, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı çıxış edərək ADNSU-da yaradılan HPC Mərkəzinin ölkəmizdə innovasiya proseslərinin inkişafına töhfə verəcəyini vurğulayıblar. Qeyd edilib ki, universitet ilkə imza atmaqla cəmiyyətimizin bütün fəaliyyət sahələri üçün faydalı ola biləcək bir layihəni reallaşdırıb.

Tədbir çərçivəsində mərkəzdə çalışan universitet tələbələrinə və mərkəzin bir neçə əməkdaşına sertifikatlar təqdim olunub.

Sonra mərkəzin fəaliyyəti ilə bağlı iştirakçıların sualları cavablandırılıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

# "Fövqəladə hallar uşaqların gözü ilə"

## Müsabiqə qalibləri mükafatlandırılıb



Dekabrın 26-da Fövqəladə Hallar Nazirliyinin (FHN) Akademiyasında FHN-in, Təhsil Nazirliyinin birgə təşkilatçılığı və FHN işçilərinin Həmkarlar İttifaqının dəstəyi ilə məktəblilər arasında "Fövqəladə hallar uşaqların gözü ilə" mövzusunda IX Respublika Uşaq Yaradıcılıq Müsabiqəsi qaliblərinin sərgisi və mükafatlandırma mərasimi keçirilib.

Müsabiqənin keçirilməsində məqsəd ictimaiyyətin diqqətinin fövqəladə hallarla bağlı problemlərə yönəldilməsi, məktəblilərə təhlükəsiz həyat fəaliyyəti və mədəniyyətinin aşılanması, onların vətənpərvərlik ruhunda yetişdirilməsi, istedadlı uşaqların üzə çıxarılması və onlara dəstək verilməsidir.

Tədbirdə Təhsil nazirinin müavini İdris İsayev, Fövqəladə Hallar nazirinin müavini tibb xidməti general-leytenantı Faiq Tağızadə, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, UNICEF-in ölkəmizdəki nümayəndəliyinin Təhsil şöbəsinin rəhbəri Leyla Həsənova, FHN-in müvafiq strukturlarının rəhbərləri, KİV və ictimaiyyət nümayəndələri, valideynlər iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları "Fövqəladə hallar uşaqların gözü ilə" mövzusunda IX Respublika Uşaq Yaradıcılıq Müsabiqəsinə həsr olunmuş sərgi ilə tanış olublar.

Sərgiyə baxışdan sonra müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Birinci yerə 31, ikinci yerə 37, üçüncü yerə 47 nəfər layiq görülüb, 52 nəfərə isə həvəsləndirici diplomlar təqdim edilib. Qaliblər fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Mükafatları Təhsil nazirinin müavini İdris İsayev, Fövqəladə Hallar nazirinin müavini Faiq Tağı-zadə, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, UNICEF-in ölkəmizdəki nümayəndəliyinin Təhsil şöbəsinin rəhbəri Leyla Həsənova, FHN işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov və digər şəxslər təqdim ediblər.

Tədbir bədii hissə ilə davam etdirilib.

Qeyd edək ki, ölkənin bütün şəhər və rayonlarının ümumtəhsil məktəblərinin qatıldığı müsabiqəyə sentyabrın 27-dən start verilib. Müsabiqə rəsm, plakat, əl işi, yanğın və qəza-xilasetmə texnikasının modeli, yumşaq oyuncaq nominasiyalarında məktəb, rayon və ümumrespublika birinciliyi mərhələləri üzrə keçirilib. Təşkilat komitəsinə rayon və şəhər müsabiqələrinin yekunları üzrə 518 rəsm, 210 plakat, 236 əl işi, 205 yanğın və qəza-xilasetmə texnikasının modeli və 139 yumşaq oyuncaq təqdim olunub. Müsabiqəyə təqdim olunmuş işlər FHN, Təhsil Nazirliyi, Rəssamlar İttifaqı, Yazıçılar Birliyi və Rəssamlıq Akademiyasının nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib və qaliblər müəyyənləşdirilib.

# PISA-nın nəbzini necə tutaq?

## Təhsil Nazirliyi gözləntilər və hədəflərə dair ilkin müzakirələr keçirib

**Oruc MUSTAFAYEV**

Dekabrın əvvəllərində dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan 80-ə yaxın ölkəsinin təhsil sistemlərinin nəbzi 32 milyondan artıq şagirdin iştirak etdiyi PISA tədqiqatının gözlənilən nəticələri ilə döyünməyə başladı. Nəticələri Azərbaycanda da gözləyirdilər. Azərbaycanın 15 yaşlıları PISA marafonunda hansı yerdədir? PISA-nın nəbzini necə tuta bilərik? Nəticələr təhsilimizə nə verəcək? Biz hansı hədəfləri prioritet seçməliyik? Bütün bu suallara Təhsil Nazirliyinin təşəbbüsü ilə Təhsil İnstitutunda PISA (Programme for International Student Assessment) - Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramının 2018-ci il üzrə nəticələrinin müzakirəsinə həsr olunmuş tədbirdə cavab tapmaq mümkün oldu.



**Dünya qeyri-standart texnologiyalara doğru gedir. Gələcəkdə cəmiyyət o qədər qeyri-müəyyən olacaq ki, insan peşəsini, əvvəllər deyildiyi kimi, 3 dəfə deyil, 7 dəfə dəyişməli olacaq. Hazırda universitetlər, təhsil müəssisələri elə məsələlər üzərində işləyir ki, insanlar qeyri-müəyyənliklərlə dolu olan gələcəkdə öz yerini tapa bilsinlər. Onun üçün də əsas səriştələrdir.**

Tədbiri açan Təhsil Nazirliyinin Aparat rəhbəri Muxtar Məmmədov diqqətə çatdırıb ki, Azərbaycan artıq bir neçə ildir beynəlxalq qiymətləndirmə proqramlarında iştirakını bərpa edib. Ölkəmiz PIRLS qiymətləndirməsində iştirak edib, nəticələr ötən il elan olunub. 2018-ci ildə isə Azərbaycan PISA tədqiqatında iştirak edib. Bu ayın əvvəllərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən PISA-2018 qiymətləndirməsinin nəticələri elan olunub. M.Məmmədov qeyd edib ki, hesabat bir neçə hissədən ibarətdir, orada yalnız ölkələrin sıralaması deyil, eyni zamanda qiymətləndirmə zamanı ayrı-ayrı ölkələrdə aparılmış sorğuların nəticələri də əks olunub. Hazırda Təhsil İnstitutu tərəfindən milli hesabat üzərində iş aparıldığını deyən M.Məmmədov əlavə edib ki, sənəd hazırlanana qədər bu kiçik formatda təhsil ictimaiyyətinin nümayəndələri, Təhsil Nazirliyi yanında İctimai Şura üzvləri, təhsil müəssisələrinin rəhbərləri, pedaqoqların iştirakı ilə ilkin müzakirənin keçirilməsinə qərar verilib.

Daha sonra Təhsil İnstitutunun Milli və beynəlxalq qiymətləndirmə tədqiqatları şöbəsinin aparıcı mütəxəssisi Leyla Abbaslı PISA - 2018-in nəticələrilə bağlı təqdimatla çıxış edib. O qeyd edib ki, PISA beynəlxaq şagird qiymətləndirmə proqramı OECD tərəfindən 2001-ci ildən hər 3 ildən bir həyata keçirilir və tədqiqatın əsas məqsədi 15 yaşlı şagirdlərin riyaziyyat, oxu və təbiət elmləri üzrə bilik və bacarıqlarının real həyatda, məişətdə tətbiq edə bilmə bacarığını ölçməkdir. Qiymətləndirmədə iştirak OECD təşkilatına üzv ölkələr üçün məcburi, digər ölkələr üçün isə könüllüdür.

PISA 2018-də 79 ölkə və iqtisadiyyatdan 600 minə yaxın şagird iştirak edib. 600 min şagird 32 milyon 15 yaşlı şagirdi təmsil edib. 600 min şagirdin nəticəsi aktiv müşahidə əsasında 32 milyon şagirdə şamil olunur. PISA-2018 kompüter və kağız əsasında olmaqla, 2 cür təşkil edilib. Tədqiqatda testlə yanaşı, şagirdlər, müəllimlər, direktorlar və valideynlərlə müxtəlif səpgili sorğular təşkil olunub. Şagird və direktor sorğusu məcburi, digər sorğular isə könüllüdür. L.Abbaslı sorğuların metodologiyası, mövzular, səviyyələr, qiymətləndirmə ölçüləri, dünya ölkələri və Azərbaycan üzrə qiymətləndirmə nəticələrini diaqramlarla diqqətə çatdırıb. Təqdimatda oxu, riyaziyyat və təbiət elmləri üzrə Azərbaycan və OECD ölkələri üzrə orta ballar göstərilib. Azərbaycan oxu üzrə 389 (OECD - 487), riyaziyyat üzrə 420 (OECD-489), təbiət elmləri üzrə 398 (OECD- 489) orta bal toplayıb.

Təqdimatdan sonra hesabatla bağlı fikirlər səsləndirilib.

### Milli hesabat hazırlanır

Təhsil Nazirliyinin Aparat rəhbəri M.Məmmədov PISA-2018-in nəticələrinə dair Azərbaycan üzrə milli hesabatın hazırlanması məsələsinə toxunub və qeyd edib ki, hazırda Təhsil İnstitutunda hesabat üzərində iş gedir. Sənədin hazırlanmasına 3 aya qədər vaxtın lazım olacağını bildirən M.Məmmədov onun ayrıca təqdimatının da nəzərdə tutulduğunu deyib.

Aparat rəhbəri qeyd edib ki, hesabatda əksini tapmış rəqəmlər nisbi anlayışdır, onlar birmənalı olaraq ölkənin təhsil səviyyəsini əks etdirmir. Azərbaycan 3-cü dəfədir ki, beynəlxalq qiymətləndirmədə iştirak edir. Nəzərə almaq lazımdır ki, biz 10 il bu qiymətləndirmədə iştirak etməmişik. Şagirdlərin bu sorğulara cavablarında belə, onların bu kimi sorğulara alışmamaları, əvvəlki illərdə bu kimi tədqiqatlarda iştirak etməmələri, onların verdiyi cavablar nəticələrə hansı formadasa təsir edib. İstisna olunmur ki, verilən suallar şagirdlərə bəlkə də ilk dəfədir ki, ünvanlanıb. 2016-cı ildən etibarən bu istiqamətdə iş aparılır, qiymətləndirmələr keçirilir. Növbəti illərdə şagirdlər yeni tədqiqatların keçirilməsi zamanı həm tədqiqatda əksini tapan suallara, eyni zamanda sorğuların mahiyyəti ilə bağlı daha hazırlıqlı olacaqlar.

Tədqiqatda bizi maraqlandıran əsas məsələ hansı ölkədən daha yuxarı və ya aşağıda olmağımız deyil. Əsas məqsəd odur ki, bu tədqiqatın nəticəsində biz buradan nə götürməliyik, bundan sonrakı təhsil islahatlarında atacağımız addımları necə qiymətləndirməliyik, bizim mövcud problemlərimiz ümumən nədən ibarətdir. Hər ölkənin öz təhsil siyasəti var, bu cür qiymətləndirmələr ölkələr üçün öz siyasətlərini həyata keçirməkdə əlavə, yardımçı vasitə kimi şıxış edir.

### “Biz güclü məktəblər yaratmalıyıq”

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov Azərbaycanın ən azından riyaziyyat üzrə yaxşı nəticələr göstərməsinə görə şad olduğunu deyib. Ekspert qeyd edib ki, riyaziyyat müasir dövrün ən vacib elementidir: “Problemi görmək onun yarısının həllidir. Təqdimatdan irəli gələn bir sıra vəzifələr var ki, biz onları həll edəcəyik. Mən problemin həllində Təhsil Nazirliyinin iradəsini görürəm. Bu iradə ortadır. Biz yaxşı məktəblər yaratmağa borcluyuq. Texnologiyaların və cəmiyyətin sürətlə inkişaf etdiyi bir dövrdə biz güclü məktəblər yaratmalıyıq. Məktəb təhsil sistemi çox vacibdir. Tədris ilinin əvvəlində Təhsil Nazirliyi yeni bir təşəbbüslə çıxış etdi, İctimai Şura yaradıldı. Bunun yaranmasının əsas məqsədi, daşıyıcı ideyası təhsildə olan bütün problemlərin həllinə nail olmaqdır. Mən inanıram ki, bizim iradəmiz imkan verəcək ki, biz yüksək reytinqləri tutaq”.

### “Biz müəllim hazırlığını kökündən dəyişməliyik”

İctimai Şuranın üzvü, professor Asif Cahangirov hesab edir ki, nəticələr proqnozlaşdırılandır. Onun sözlərinə görə, məsələ heç də Azərbaycanın PISA reytinqində hansı yerdə olmasında deyil, yanaşmalardadır: “Biz səriştə əsaslı təhsilə keçməliyik. Bu məsələ “Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda strateji istiqamət kimi əksini tapıb. Biz yenə də səriştə əsaslı təhsilə keçmirik. PISA-da öndə olan ölkələr niyə qabaqdadır? Çünki onlar qabaqlayıcı təhsili təşviq etdilər. Son illərdə Estoniya təhsilində sıçrayışlar oldu. Estonlar Avropada birinci yerdədir, Finlandiya və digər qabaqcıl ölkələri qabaqlayıb öz kurikulumlarına yaradıcı yanaşıblar. Kurikulumları öz milli xüsusiyyətlərinə, ölkənin inkişaf strategiyasına uyğunlaşdırıblar, bunsuz mümkün deyil. Biz uşaqları nə qədər ki, şəxsiyyətyönlü deyil, fənyönlü tədrisə yönəldəcəyik, nə qədər ki, fənləri bir tezis kimi qəbul edəcəyik, belə olacaq. İnsanı fənlər formalaşdırmır. Fənlər insanı formalaşdıran bir vasitədir. Hər bir fənn səriştələrin, dəyərlərin formalaşmasına və inkişafına xidmət etməlidir. Ən böyük problemimiz budur. Bizim kurikulumlar, proqramlar dəyişməlidir, onlar səriştələr formatında olmalıdır. Ünsiyyət qurmaq səriştəsini formalaşdırmaq üçün riyaziyyatın, ədəbiyyatın, tarixin də, coğrafiyanın da imkanı var. Biz müəllim hazırlığını kökündən dəyişməliyik. Bizim pedaqoji təhsilimizi sovet pedaqoqları hazırlayıb”.

A.Cahangirov qeyd edib ki, əvvəlki PISA tədqiqatlarında Almaniyanın da nəticələri qaneedici olmayıb, lakin onlar yeni proqramlar, kurikulumlar hazırlayıblar: “Dünya qeyri-standart texnologiyalara doğru gedir. Gələcəkdə cəmiyyət o qədər qeyri-müəyyən olacaq ki, insan peşəsini, əvvəllər deyildiyi kimi, 3 dəfə deyil, 7 dəfə dəyişməli olacaq. Hazırda universitetlər, təhsil müəssisələri elə məsələlər üzərində işləyir ki, insanlar qeyri-müəyyənliklərlə dolu olan gələcəkdə öz yerini tapa bilsinlər. Onun üçün də əsas səriştələrdir. Tənqidi təfəkkürü, aparıcı ideyanı seçməyi bacarmaq, ömürboyu təhsil almaq üçün zəruri olan səriştələr, təhliletmə bacarığı, ümumiləşdirmə bacarığı kimi bacarıqların formalaşdırılması əsas götürülür. Biz uşaqlarımızda riyazi təfəkkürü inkişaf etdirməliyik, onlarda yaradıcı təfəkkürün inkişafına nail olmalıyıq”.

### “Proqram yenilənməlidir”

İctimai Şuranın üzvü Etibar Əliyev qeyd edib ki, məktəblərdə xüsusi siniflər yaradılsa da, dərsliklər köhnədir: “Xüsusi siniflərin şagirdləri üçün yaxşı şərait yaradılıb, ancaq proqram yenilənməlidir. Bu istiqamətdə ciddi işlər görülməlidir. PISA-da oxu savadlılığı var, onlar şagirdlərin funksional savadlılığını ölçmək istəyirlər. Builki kriteriyalar həddən artıq fərqli olub. Məktəbdaxili mühit, müəllimlərin motivasiyası, internetin anadangəlmə və ya sonradan qazanılması kimi məsələlər çox vacibdir. Bu, nəinki PISA üzrə hazırlaşan şagirdlər, bütün məktəb üçün çox maraqlı məsələlərdir. Qeyd olunan məsələləri ekspertlər, müəllimlər vasitəsilə qiymətləndirmək çox vacibdir. Uşaqlara şərait yaratmaq lazımdır ki, onlar düşünə bilsinlər. Onlarda elə motivasiya yaratmaq lazımdır ki, öz gələcəklərinə özləri bir yol tapsınlar”.

### “Biz standartları təkmilləşdirməliyik”

Təhsil Şurasının sədri professor Hikmət Əlizadənın sözlərinə görə, bizim kurikulumlar səriştə əsaslı deyil: “Şagirdlərimizə səriştəliliyi aşılaya bilən müəllimlərimiz kifayət qədər varmı? Biz müəllim hazırlığından başlamalıyıq. Bizdə kurikulumun nə olduğunu bilməyən müəllimlər var. Onların arasında elələri var ki, məktəb müəllimlərinə təlim keçir. Müəllimlərin diaqnostik qiymətləndirməsi keçirilir. Hesab edirəm ki, onlar qarşısında qoyulan tələblər daha çox olmalıdır. Fikrimcə, biz standartları təkmilləşdirməliyik, bundan ötrü isə müəllim hazırlığına diqqəti artırmalıyıq. Bu proses təkmilləşməlidir, buna nail olmasaq, lazımi nəticələr əldə edə bilməyəcəyik”. H.Əlizadə qeyd edib ki, PISA nəticələrimizin aşağı olmasının səbəblərini araşdırmalıyıq. Bu səbəbləri aradan qaldıra bilsək, işimizdə dönüş yarada bilərik.

### “PISA-da bizi düşündürən xeyli məsələ var”

Təhsil İnstitutunun direktor müavini Ənvər Abbasov bildirib ki, tədqiqatda əksini tapmış rəqəmlərlə bağlı araşdırmalar aparıb işimizdə olan səhvləri aradan qaldırmalı, təhlillər aparmalıyıq. Bu yanaşmada zəif nəticələrin səbəbləri üzə çıxacaq. Bundan sonra biz növbəti addımları ata bilərik: “Biz indiyə qədər rəqəmlərlə işləməmişik. Bizim rəqəmlərlə işləmək bacarığımız yoxdur. Biz onları indi görürük. Hesab edirəm ki, təqdimatda göstərilən rəqəmlər çox uğurlu rəqəmlərdir. PISA-2018-ə dair tədqimatda bizi düşündürən xeyli məsələ var, biz onların üzərində düşünə bilərik”.

Ə.Abbasova görə, bu gün təhsilin məzmunu standartlara əsaslanır. Yeni məzmun səriştə əsaslı standart və kurikulumdan ibarətdir. Təhsilin bütün səviyyələri üzrə səriştə əsaslı yeni məzmun, standart kurikulumlar yaradılmalıdır. Bundan ötrü isə metodologiya hazırlanmalıdır. Bu metodologiya ölkənin inkişaf xüsusiyyətləri, mentalitetinə uyğun şəkildə hazırlanmalıdır. Biz inteqrativ təlimə keçməliyk.

### “Nəticələr ölkəmiz üçün böyük irəliləyişdir”

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini İlhamə Abdullayeva Bakı şəhərində tədqiqatın keçirilmə xüsusiyyətləri və nəticələri ilə bağlı müvafiq məlumat verib: “Hesab edirəm ki, hesabatda əksini tapmış nəticələr ölkəmiz üçün böyük irəliləyişdir. Təklif edərdim ki, bundan sonra da tədqiqatda iştirak etmiş məktəblərlə də analoji müzakirələr aparılsın, təhsil müəssisələrinin hansı səviyyədə olmasını öyrənək. Bizim tədris məzmununa görə xarici ölkə məktəblərindən fərqlidir. Bu ildən məktəblərimizdə müxtəlif fənlərin sıx inteqrasiya şəraitində tədrisini nəzərdə tutan STEAM yanaşma tətbiq edilir. Bu yanaşmanı davam etdirməklə biz daha da inkişaf edə bilərik. Uşaqlarımızda sorğuları cavablandırmaq mədəniyyəti formalaşdırılmalıdır. Biz məzmuna sorğuları cavablandırmaq bacarıqları gətirməliyik”.

### “Təhsilə baxışlarımızı dəyişməliyik”

İctimai Şuranın üzvü Nadir İsrafilov təhsildə hər hansı müqayisənin əleyhinə olduğunu deyərək, təqdimatda əksini tapan nəticələrin daha geniş müzakirə olunması vacibliyini bildirib: “Təhsilə baxışlarımızı dəyişməliyik. Biz yenə də bilikyönümlü tədrisə üstünlük veririk. Şagirdləri ballarla müqayisə edirik. Ancaq şəxsiyyətyönlü təhsildə rəqəmlər yoxdur. Şəxsiyyətyönlü təhsililin ölçüyə gələn kriteriyalarını hazırlamamışıq. Biz qiymətləndirməni yenə də biliklər əsasında, keçid balları və s. ilə aparırıq. Səriştə vacib məsələdir. Ancaq biz onu necə ölçək? Onun ölçüyə gələn meyarları hazırlanmalıdır”.

Tədbiri yekunlaşdıran Təhsil İnstitutunun direktoru vəzifəsini icra edən Emin Əmrullayev qeyd edib ki, il ərzində institutda 5 tədqiqat həyata keçirilir. PISA tədqiqatının son nəticələrinin paylaşımlarının çox yaxşı hal olduğunu deyən E.Əmrullayev təqdimatla bağlı diskussiyalarda səslənən fikirlərə aydınlıq gətirib. O, PISA-nın kifayət qədər uzun proses olduğunu deyərək, bu prosesin hazırlığına təxminən 1 il vaxt sərf olunduğunu bildirib. Onun sözlərinə görə, növbəti mərhələdə Azərbaycan tədqiqatda elektron formatda iştirak edəcək. Bu, o deməkdir ki, PISA sualları şagirdə kağızda yox, kompüter ekranından təqdim olunacaq.

E.Əmrullayev elektron qiymətləndirmənin mahiyyəti və suallarla bağlı fikirlərini tədbir iştirakçılarına çatdırıb. O, standartlar, yeni kurikulumlar, tədris proqramlarının yenilənməsi, dərsliklərlə bağlı fikirlərə də münasibət bildirib və qeyd edib ki, beynəlxalq qiymətləndirmədən gələn nəticələri nəzərə alaraq ehtiyat dərsliklər hazırlanıb, bu dərsliklər konseptual olaraq dəyişib: “O ki qaldı yekun hesabata, hər bir ölkə özünün yekun hesabatını hazırlamalıdır. Mart ayının sonunda, düşünürəm ki, hesabatın ilkin versiyası hazır olacaq və ictimaiyyətə təqdim edəcəyik. PISA -nın bütün məlumatı onlayn rejimdədir. Bu, kifayət qədər böyük Datadır, burada 600 min şagirdin hər biri barədə məlumat var. Çox yaxşı olardı ki, bizim universitetlər bu məlumatlardan istifadə etsinlər. Tədqiqatçılar bu məlumatlardan daha çox dissertasiya işlərində istifadə edə bilərlər. Bu, dünyada analoqu olmayan məlumat sistemidir. Bu sistem Azərbaycanda var. Yaxşı olardı ki, alimlərimiz bu məlumatlardan istifadə etsinlər”.

# Zəngin təhsil ənənələrinə malik kollec

## Azərbaycan Dövlət Pedaqoji Kollecinin 100 illik yubileyi qeyd olunub

Samirə KƏRİMOVA



Başa vurmaqda olduğumuz 2019-cu il bir sıra ali və orta ixtisas təhsili müəssisələrinin yubileyləri ilə yadda qalacaq. İlin son günlərində daha bir təhsil ocağı- ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci özünün 100 illik yubileyini qeyd etdi. Dekabrın 25-də "Pullman" oteldə təşkil olunan təntənəli mərasimə dəvət olunan qonaqlar Azərbaycan Dövlət Pedaqoji Kollecinin (ADPK) 100 illlik yubileyində iştirak edərək bu qocaman təhsil müəssisəsinin kollektivi ilə bayram sevincini birgə yaşayıblar.

Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər güllər düzülüb.

Yubiley tədbirində Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri və digər qonaqlar iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başlanan tədbirdə pedaqoji kollecin 100 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent İsrayil İsgəndərov rəhbərlik etdiyi təhsil ocağının fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, adı yaddaşlarımızda daha çox Mirzə Ələkbər Sabir adına Bakı Pedaqoji Texnikumu kimi qalan bu təhsil ocağı 1919-cu ildə Bakı Kişi Müəllimləri Seminariyası kimi fəaliyyətə başlasa da, müxtəlif zamanlarda öz adını dəyişsə də, bu gün həyata keçirdiyi ali və şərəfli missiya qətiyyən dəyişməyib. 1999-cu ilin dekabrından Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərən təhsil müəssisəsində hazırda əyani və qiyabi şöbələr üzrə dörd mindən artıq tələbə təhsil alır. Birinci buraxılışda cəmi 9, ikinci buraxılışda 24, üçüncü buraxılışda 28, dördüncü buraxılışda 56 məzunu olan bu təhsil ocağı hər il 800-850 nəfər olmaqla müxtəlif ixtisaslar üzrə məzun yetişdirir. Hazırda kollecdə "Məktəbəqədər təhsildə korreksiyaedici təlim", "İbtidai sinif müəllimliyi", "Məktəbəqədər təlim və tərbiyə", "Peşə təlimi", "Texnologiya müəllimliyi", "Fiziki tərbiyə müəllimliyi", "Ailə və ev təhsili", "Təsviri incəsənət müəllimliyi" ixtisasları üzrə 4800-ə yaxın tələbə təhsil alır. Bu tələbələrin təhsili ilə 270 müəllim, 135 inzibati və tədris-köməkçi heyəti məşğul olur. Kollec "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda müəyyənləşdirilmiş hədəflərə çatmaq, peşəkarlıq səviyyəsinin artırılmasına nail olmaq məqsədilə bir sıra işlər həyata keçirir, eyni zamanda yerli və beynəlxalq proqramlara qoşulmaqla seminarlar, konfranslar təşkil edib. Təhsil ocağı həmçinin, Türkiyənin Bilkent Universiteti ilə əməkdaşlığa başlayıb.

Kollecin direktoru daha sonra bildirib ki, uzunillik təhsil ənənələrinə malik bu qocaman təhsil müəssisəsi millimənəvi dəyərlərə, dövlətə və dövlətçiliyə xidmət edən, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə olunan, müasir düşüncəyə, yeni təhsil-tərbiyə texnologiyasına, əxlaqi və mənəvi saflığa, yüksək ixtisas bacarığına malik kadrlar hazırlamaq işini ən ümdə məqsəd və vəzifəsini bilir: "Bu vəzifəni yerinə yetirmək üçün kollecimizin kollektivi öz fəaliyyətini Təhsil Nazirliyinin ölkə təhsilində apardığı islahatlara müvafiq olaraq qurur. Kollecimiz təhsilin idarə edilməsində şəffaflıq, bilik və bacarıqlara uyğun dəyərləndirmə, vətənpərvər, milli-mənəvi dəyərlərə malik kadrların yetişdirilməsinə töhfə verir".

Daha sonra bildirilib ki, görkəmli Azərbaycan ziyalıları H.Cavid, Ü.Hacıbəyli, A.Şaiq, S.M.Qənizadə, C.Cəbrayılbəyli, M.Qiyasbəyli, Ə.Sumbatzadə, M.Təhmasib, M.Dilbazi, C.Novruz, Ə.Cəfərzadə və onlarla digər tanınmış şəxslərin həyatı, ilkin peşə-ixtisas təhsili, pedaqoji fəaliyyəti uzun illər bu kolleclə bağlı olub. Zəngin ənənələrə əsaslanan Azərbaycan Dövlət Pedaqoji Kolleci 100 illik fəaliyyəti dövründə yeniləşərək ölkə təhsilinin müasir inkişaf mərhələsində özünəməxsus yer tutur.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva kollecin fəaliyyətini yüksək dəyərləndirib. ADPK-nın keçdiyi tarixi yola nəzər salan nazir müavini qeyd edib ki, kollec 100 il ərzində müxtəlif adlar altında fəaliyyət göstərsə də, öz ilkin missiyası olan xalqının maariflənməsi istiqamətində əvəzedilməz işlər aparıb, çoxlu sayda layiqli kadrlar yetişdirib. Kollec bu gün də öz təhsil ənənələrini uğurla həyata keçirərək pedaqoji kadr hazırlığını davam etdirir: "Bu qocaman maarif ocağı mövcud olduğu müddətdə adı 10 dəfə dəyişdirilsə də, müqəddəs amalımillətə, elm və təhsilin inkişafına, dövlətə xidmət missiyasını heç zaman dəyişmədi. Fəaliyyət göstərdiyi müddətdə Azərbaycan xalqına, maarifinə, müəllimliyinə və məktəbinə ləyaqətlə xidmət etdi, ötən əsrin 20-30-cu illərində savadsızlığın aradan qaldırılması işinə böyük töhfələr verdi".

Nazir müavini bildirib ki, bu təhsil ocağı mövcud olduğu dövrdə Azərbaycan məktəbi üçün 56 mindən artıq orta ixtisaslı müəllim hazırlamış, ölkə təhsilinin inkişafına layiqətlə xidmət etmiş və hazırda bu şərəfli işi uğurla davam etdirməkdədir. Məhəbbət Vəliyeva çıxışında dövlət başçısı İlham Əliyevin BDU-nun 100 illik yubiley tədbirində gənclərlə bağlı söylədiyi fikirlərə xüsusi diqqət çəkib: "Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə, Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var... Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq...".

Nazir müavini söyləyib ki, ölkə başçısı İlham Əliyevin milli tərbiyə məsələlərinə dair konseptual xarakterli bu fikirləri hər bir təhsil müəssisəsinin, o cümlədən müəllim hazırlığı ilə məşğul olan Azərbaycan Dövlət Pedaqoji Kollecinin fəaliyyət proqramı kimi qəbul edilməlidir. Məhəbbət Vəliyevanın sözlərinə görə, tərbiyə məsələsinə məhz bu cür baxış hər bir müəllimin həyat idealı, müqəddəs amalı, başlıca hədəfi olmalıdır.

Çıxışının sonunda nazir müavini 100 illik yubileyi qeyd olunan kollecin müəllim-tələbə heyətinə ən xoş arzularını bildirib: "Bu gün zəngin təhsil ənənələrinə malik olan kollecin yubileyi qeyd edilərkən, onun yaradılmasında və inkişafında əməyi olan insanları böyük minnətdarlıq duyğuları ilə yad edərək ümidvaram ki, uzun illər təşəkkül tapmış mütərəqqi ənənələr təhsil ocağında bundan sonra da uğurla davam etdiriləcək və təhsilimizin inkişafında mühüm rol oynayacaqdır".

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov kollecin kollektivini təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb. ADPK-da bacarıqlı, savadlı müəllim heyətinin çalışdığını deyən rektor bu təhsil müəssisəsinin peşəkar müəllim kadrlarının hazırlanmasındakı rolunu xüsusi vurğulayıb.

Kollecin məzunu, Təhsil Nazirliyi tərəfindən keçirilən builki müəllimlərin işə qəbulu müsabiqəsində ən yüksək nəticə-58 bal toplayaraq Abşeron rayonunun Qobu qəsəbəsi Qəzənfər Xalıqov adına 1 nömrəli tam orta məktəbdə müəllim kimi fəaliyyətə başlayan Aidə Mikayılova ona dərs demiş müəllimlərinə öz təşəkkürünü bildirib, yorulmaz fəaliyyətlərində uğurlar arzulayıb.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Ceyran Mahmudova çıxış edərək vaxtilə burada neçə-neçə tanınmış ziyalıların, şair və yazıçıların təhsil aldığını, eləcə də onun babası, görkəmli yazıçı Sabit Rəhmanın da buranın məzunu olduğunu iftixar hissi ilə qeyd edib. Rektor kollecin müəllim və tələbələrini bir daha yubiley münasibəti ilə təbrik edərək onlara yeniyeni nailiyyətlər arzulayıb.

Sonra kollecin bir qrup əməkdaşına bu təhsil müəssisəsinin 100 illik yubileyi münasibəti ilə və təhsilin inkişafındakı xidmətinə, gənc nəslin təlim-tərbiyə sahəsində səmərəli fəaliyyətinə görə Təhsil nazirinin müvafiq əmrinə əsasən "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı, Fəxri fərmanlar təqdim olunub.

Tədbir respublikanın Xalq artistləri Teyyub Aslanov, Azər Zeynalov, Tünzalə Ağayevanın ifaları və kollecin tələbələrinin hazırladığı ədəbi-musiqili kompozisiya ilə davam etdirilib.

# Uşaqlarımızı tarixin "xəstəsi"nə çevirmək üçün...



Vəfa ALLAHVERDİYEVA

Uşaqlar lap balacalıqdan döyüş animasiyalarına aludə olur. Vaxt keçir, zövq dəyişmir-savaş filmlərinə meyil artır. Təbii ki, fantastikadan uzaq, maraqlı ideyası, real motivi olan mükəmməl bir savaş filmi yeniyetmə və gəncin asudə vaxtının səmərəli təşkili üçün əla bir vasitədir. Xüsusilə tətil günlərində "uşaqların başını necə qatmalı"- sualına cavab axtarmaqla əlləşirik...

...Azərbaycan kino mütəxəssisləri çağdaş film sənayesini tənəzzüldən çıxarmağın yolunu gözəl tarixi ssenarilərdə axtarır. Yəni, "bu gün necə mövzulara müraciət olunmalıdır"- sualına kino professionallarının birmənalı cavabı belədir: tarixi filmlər. Nəyə görə? Çünki tarixin möhtəşəm bir cazibəsi var! Tarixin gəncliyin yaddaşına ötürülməsinə ciddi zərurət var! Üstəgəl, vətənpərvərlik təbliğatında tarixi filmlərdən gözəl piar vasitəsi yoxdur.

film müstəvisində millətin keçmişini, düşmənləri kim olubsa onunla mücadiləsini, mənəvi dəyərlərini, ailə ənənələrini, gözəl rituallarını elə təqdim etsin ki, yeniyetmə-tamaşaçı ovsunlansın, əməllibaşlı təsir altına düşsün, bir gün ayılıb görək ki, evimizdə böyüyən uşaqlar tariximizin "xəstə"sinə çevrilib, daha telefonun yox! Sosial şəbəkələrin yox!

Elə milli film ki, ekran nümayişi uzun çəkdiyi halda, gecə yuxusuna təslim olan uşaq, səhər mütləq qaldığı fraqmentdən sonranı internet üzərindən izləsin. Flaqmanı acgözlüklə axtarsın. Filmdən sadəcə, zövq almasın, eyni zamanda aldığı zövqün nəticəsində müstəqil şəkildə həmin tarixi dövrə aid hər şeyi araşdırmağa meyillənsin. Qonşunun uşağı çöldə qantər içində dalaşa-dalaşa futbol oynayarkən, internetdə yaşına zidd müxtəlif xarakterli səhnələrə baxarkən, səninki əlindəki telefonda məsələn, Nadir şahın

**Etnos kimliyinin təbliğatını yaradan mövzu ilə istedadlı komanda tandemi film müstəvisində millətin keçmişini, düşmənləri kim olubsa onunla mücadiləsini, mənəvi dəyərlərini, ailə ənənələrini, gözəl rituallarını elə təqdim etsin ki, yeniyetmə-tamaşaçı ovsunlansın, əməlli-başlı təsir altına düşsün, bir gün ayılıb görək ki, evimizdə böyüyən uşaqlar tariximizin "xəstə"sinə çevrilib.**

Çünki zəngin milli tariximiz var! Tarixi şəxsiyyətlərimiz var.

Tarixi filmlər kitabın insan həyatında daşıdığı rolu oynayır, bəlkə də ondan daha effektiv. Çünki göz yaddaşı beyin yaddaşından daha güclüdür və tamaşaçı olmaq oxucu olmaqdan ona görə yaxşıdır ki, hadisələri asan qavrayırsan, mövzunun, ideyanın, aktyor məharətinin cazibəsinə rahatca düşə bilirsən!

Bu tarixi filmlərin əsas tamaşaçı hədəfi kimdir? Əsas olan da budur! Sözsüz ki, dünya kino siyasətində tarixi filmlər, əsasən yeniyetmələr və gənclərə hesablanır. Fikir vermisinizsə, işarə də 12+ göstərilir.

Əvvəla, orta və ali məktəblərdə tədris olunan tarix elmi özü bunu diktə edir ki, tarixdəki maraqlı hadisələr, tarixi personajlar ekran içində daha canlı təqdim olunsun, daha təsirli təbliğ edilsin.

İkinci tərəfdən, tədris illərində məktəbliyə, tələbəyə verilən tətilləri səmərəli keçirmək, dincəlmək, yanlış məşğuliyyətlərdən uzaq qalmaq nöqteyi-nəzərindən mükəmməl tarixi filmlərin çəkilməsi və gəncliyin ixtiyarına verilməsi heç də pis ideya deyil. Özü də uzun olmasa da, bir neçə seriya şəklində.

Bu gün Türkiyə kino sənayesinin tamaşaçıya təqdim etdiyi bir neçə uğurlu ssenari var ki, türk gəncliyini ekran qarşısına möhkəmcə kilidləyə bilib. Bu metodla əməlli-başlı tarixin təbliğatını da aparır, gəncliyinin incəsənət zövqünü də formalaşdırır, başlıcası, onun zamanını faydalı yöndə xərcləməsinə şərait də yaradır.

Bizim belə bir təşviqə ehtiyacımız yoxdurmu - əlbəttə ki, var.

Bir halda ki, kino mütəxəssisləri tarixi filmlərin çəkilməsini problemin həlli yolu kimi təklif edirlər, elə film ortaya qoyulmalıdır ki, türk tarixi filmləri uşaqlarımızda necə Monqol imperiyasına, Osmanlı imperiyasına, Səlcuqlu dövrünə inanılmaz bir maraq oyadır, bu maraq eynən öz tariximizə də yaransın. Həm tarixi mövzu, həm ortaya qoyulan işin professional aspektləri, həm aktyor istedadı maqnit kimi tamaşaçını özünə çəksin. "Babək" necə çəkilmişdi, "Nəsimi" necə rəğbət qazanmışdı-elə! Hətta ondan da yaxşı!

Etnos kimliyinin təbliğatını yaradan mövzu ilə istedadlı komanda tandemi gücünü, siyasət zəkasını izləsin; Qacarı araşdırsın. Xətaini, Xiyabanini, Səttar xanı, Cavad xanı bilmədiyi istiqamətlərdən öyrənməyə cəhd etsin. Necə ki, türk gəncliyi türk tarixi filmlərinin "acgöz" seyrçisi kimi belə edir. Necə ki, türk tarixi filmlərinin tamaşaçısı olanda, məhz bizim övladlarımız da elə belə edir. Yəni, kompüterin, telefonun yaddaşında saxlanılan axtarış komandasının məzmunundan dərk edirsən ki, məsələn, Osmanlı dönəmi, Atatürk dönəmi ciddi şəkildə sənin uşaqlarının maraq obyektinə çevrilib. Monqolların kimliyi suallar yaradıb. Səlahəddin Eyyubinin şəxsiyyəti ilgisini çəkib. Nəyin sayəsində? Məhz türk tarixi filmlərinin mükəmməl çəkimi sayəsində...

"Cəsur ürək"ə baxıb, xəritədə Şotlandiyanın yerini axtarıb tapmağa çalışırsa, İngiltərənin bir dövlət kimi tarixini incələyirsə, "Sezar"a, "Qladiator döyüşü"nə tamaşa edib, Romanı əlavə mənbələrdən araşdırırsa, milli kinodan da eyni həvəsə, eyni marağa düşsün. Çünki ilham aldığı gözəl tarixi filmlər başqa mənbələrdən bilgi toplamaq həvəsini də güclü edir. Dövlətin ayrı-ayrı dönəmlərdə böyüyən və kiçilən sərhədlərini belə, xəritə üzərində cizgiləndirə bilir, ona mühakimə həvəsini, qabiliyyətini ortaya qoymağa imkan verir.

Beləliklə, tarix kitablarının gündəlik dərs prosesində öyrətdiklərinə o qədər zəngin bilgilər qarışır ki, uşaq öz tənbəl, başqa xəyallar quran məktəb yoldaşlarından belə fərqlənir. Söhbət film müstəvisində tarixin istedadlı təqdimatından, ağıllı, düşünülmüş təşviqindən, yaxşı zövq formalaşdırmasından, yetişməkdə olan gəncliyə aşılaya bildiyi pozitivliyə diqqət verməkdən, uğurlu kino nümunələrindən örnək götürməkdən gedir.

Çünki çağdaş dünyanın bir qisim uşaqlarını, gənclərini telefon, internet, min cür bəlalar öz təsiri altına aldığı halda, şükür edirsən ki, İngiltərənin, Türkiyənin, Romanın nəhəng bir epopeya olan tarixi, bu tarixdən bəhs edən filmlərin yaxşı mənada təsiri altına düşən nə qədər uşaqlar da var!

Odur ki, uşaqlarımız niyə öz tariximizin də "xəstə"si olmasın! Məncə, kino mütəxəssisləri, ssenaristlər, yazıçı-dramaturqlar ciddi düşünməlidir. Çünki vətənpərvərlik təbliğatında da möhtəşəm tarixi filmlərin alternativi yoxdur!

# Bakı məktəbləri 2019-cu ili necə başa vurur?

## *Rəşad Tağıyev:* "Həyata keçirdiyimiz tədbirlər və tətbiq edilən yeniliklər 2020-ci ildə qazanacağımız nailiyyətlərin əsası olacaq"



**Ruhiyyə DAŞSALAHLI**

**Təhsil ölkəmizdə ən çox inkişaf edən, demək olar ki, hər il xüsusi fərq yaradacaq yeniliklərin tətbiq edildiyi sahələrdəndir. Sadəcə Bakı məktəblərində və ancaq 2019-cu ilin yaddaqalan yeniliklərinə nəzər salmaq kifayətdir ki, bu yeniliklərin ölçü və miqyası ilə bağlı rəy formalaşsın. Tutaq ki, bu il ilk dəfə olaraq ümumi təhsil müəssisələrinin tədris digər dildə aparılan bölmələrində I sinfə qəbul uşaqların şifahi nitq bacarıqlarının qiymətləndirilməsi vasitəsilə aparıldı. Başqa bir yenilik, 2019-cu ildən etibarən ilk dəfə olaraq ümumi təhsil müəssisələrində şagird yerdəyişməsi prosesi elektron sistem vasitəsilə həyata keçirildi. Bu tədris ilinin ən çox rezonans doğuran və insanların çox həvəslə qarşıladığı daha bir yenilik isə Bakıdakı 5 ümumi təhsil müəssisəsində peşə təmayüllü siniflərin yaradılması oldu.**

Nümunələrdən aydın görünür ki, ölkə təhsilindəki inkişaf təsadüfi deyil. Təhsildə keyfiyyət göstəricilərinin artırılması dövlət siyasətinin əsas prioritetlərindəndir və bu yanaşma, ilk növbədə paytaxtda fəaliyyət göstərən məktəblərdə özünü göstərir.

Uzun sözün qısası, 2019-cu il də keyfiyyətin artırılması istiqamətində görülən məqsədyönlü işlər və parlaq uğurlarla əlamətdar oldu. Bu gün dönüb ötən bir ilə baxanda ilk nəzərə çarpan Bakı məktəbləridir. Niyə də olmasın? Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsil müəssisələrinin fəaliyyətinin müasir tələblər səviyyəsinə çatdırılması və tədris ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ötən bir ildə üzərinə düşən iş səmərəli şəkildə həyata keçirildi. Nəticədə fəaliyyətinin səmərəsi BŞTİ-nin tabeliyində fəaliyyət göstərən 309 ümumi təhsil məktəbi, 3 xüsusi ümumi orta məktəb və 7 əyani-qiyabi axşam məktəbi olmaqla, demək olar ki, 319 ümumtəhsil müəssisəsinin və 5 Uşaq-Gənclər İnkişaf Mərkəzinin hər birində özünü göstərdi.

Sadəcə təhsil müəssisələrinin də deyil, BŞTİ-nin tabeliyindəki məktəblərdə çalışan 27192 müəllimin peşəkarlığının artırılması istiqamətində qəti addımlar atıldı. Nəticədə 441077 şagird aldığı təhsilin keyfiyyət dəyişikliyini hiss etdi.

Yeri gəlmişkən xatırladaq ki, BŞTİ-nin tabeliyindəki məktəblərin I siniflərində 45637, IX siniflərində 30945, XI siniflərində 19521, XII siniflərində isə (əyani-qiyabi tam orta məktəb və qiyabi sinifləri) 182 şagird təhsil alır.

"Azərbaycan müəllimi" qəzeti ötən bir ilə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Rəşad Tağıyevlə birlikdə nəzər salıb. Bakı məktəbləri də, məktəblilər də əldə etdikləri nailiyyətlərlə ilə damğasını vurub.

### Bakı məktəblilərinin medalları

Məsələn, bu il Bakıda məzunlardan 15 nəfəri qızıl və gümüş medalın sahibi olub: "Təhsil nazirinin müvafiq əmrinə əsasən, BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinin XI sinif məzunlarından 14-ü qızıl, 1-i isə gümüş medala layiq görülüb".

Eləcə də məzunların 1433 nəfəri fərqlənmə attestatı alıb. BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərini ümumi orta təhsil səviyyəsi üzrə 877, tam orta təhsil səviyyəsi üzrə isə 556 nəfər fərqlənmə attestatı ilə bitirib.

Son illər Azərbaycanda genişlənən məktəblilərin olimpiya hərəkatı müsbət nəticələr verir. IX, X və XI sinif şagirdlərinin iştirakı ilə keçirilmiş Respublika Fənn Olimpiadalarının final mərhələsinin nəticələrinə əsasən, BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərdən 5-i qızıl, 11-i gümüş, 31-i bürünc medal olmaqla, ümumilikdə 47 məktəbli uğur qazanıb.

VI və VII sinif şagirdləri arasındakı V Respublika fənn müsabiqələrinin ilk mərhələsində Bakı şəhəri üzrə 9000-ə yaxın şagird iştirak edib. Müsabiqənin final mərhələsinin nəticələrinə əsasən, Bakı şəhəri üzrə 18 nəfər riyaziyyat, 13 nəfər kimya, 18 nəfər fizika, 8 nəfər biologiya, 14 nəfər isə informatika fənni üzrə yüksək bal toplayaraq, I, II və III yerlərə layiq görülüb.

V-VI sinif şagirdləri arasında təşkil olunan Lütfi Zadə adına Məktəblilərarası IV Məntiq Olimpiadasının ilk turunda 15 minə yaxın şagird iştirak edib. Olimpiadanın final mərhələsinin nəticələrinə əsasən, 44 nəfər şagird I, II, III yerlərə layiq görülüb. 349 şagird isə olimpiadanın final turunda fəal iştirakına görə Tərifnamə ilə təltif edilib.

Paytaxtdakı ümumi təhsil məktəbləri və uşaq-gənclər inkişaf mərkəzlərinin şagirdləri arasında gənc fiziklərin, kimyaçıların və bioloqların yaradıcılıq müsabiqələri təşkil edilib. Gənc fiziklərin yaradıcılıq müsabiqəsinin rayon mərhələsində 266 ümumi təhsil müəssisəsindən 798 şagird mübarizə aparıb. Gənc kimyaçıların yaradıcılıq müsabiqəsinin rayon mərhələsində 256 ümumi təhsil müəssisəsindən 768 şagird iştirak edib. Gənc bioloqların yaradıcılıq müsabiqəsinin rayon mərhələsində isə 261 ümumi təhsil müəssisəsinin 783 şagirdi yarışıb.

Paytaxt məktəbliləri IV İngilis Dili Olimpiadasında iştirak edib. İki mərhələdən ibarət olan olimpiadada Bakı şəhəri üzrə 164 məktəbdən 556 şagird iştirak edib.

Ölkəmizi VIII Avropa Qızlar Riyaziyyat Olimpiadasında (EGMO) təmsil edən Bakı şəhəri 257 nömrəli tam orta məktəbin şagirdi Fidan Qarayeva bürünc medal qazanıb. Bu, 2016-cı ildən bəri olimpiadada iştirak edən məktəbli qızlarımızın qazandığı ilk medaldır.

Bakı şəhəri 220 nömrəli məktəb-liseyin şagirdi Yusif Qasımov Yeniyetmələrin 23-cü Balkan Riyaziyyat Olimpiadasında gümüş medal, 313 nömrəli tam orta məktəbin şagirdi Fərid Əlizadə isə bürünc medal qazanıb.

Paytaxt məktəbliləri 17-ci beynəlxalq kompüter layihələri olimpiadasından (İnfomatrix Asia) medalla qayıdıblar. Qazaxıstanın Almatı şəhərində keçirilən olimpiadada 62 nömrəli məktəb-liseyin sagirdi Yusif Eyvazlı və X sinif şagirdi Nicat Dəmirçiyev bürünc medala layiq görülüblər.

177 nömrəli tam orta məktəbin şagirdi Leyla Məmmədzadə və 16 nömrəli Texniki-Humanitar Liseyin şagirdi Əli Bağırov Sankt-Peterburq şəhərində keçirilən "Özündə alimi kəşf et" VI Ümumrusiya elmi-innovasiya konfransında uğurla iştirak edərək III dərəcəli diploma layiq görülüblər.

18 nömrəli tam orta məktəbin məzunu Faiq Məmmədzadə Rumıniyada keçirilən beynəlxalq robototexnika yarışında I yeri tutub və qızıl medala layiq görülüb. Həmçinin, beynəlxalq yarışda 276 nömrəli tam orta məktəbin şagirdi Sübhan Seyfullayev II yeri tutub və gümüş medalın sahibi olub.

2019-cu ildə Bakı məktəbliləri idman sahəsində də ciddi nailiyyətlərə imza atıblar. Paytaxtın idman məktəblərinin yetirmələri müxtəlif idman növləri üzrə beynəlxalq və respublika yarışlarında 365 qızıl, 308 gümüş, 320 bürünc olmaqla ümumilikdə, 993 medal əldə ediblər.

### Qəbulda elektron sistem

Bu il 48 mindən çox uşaq ümumi təhsil müəssisələrinin birinci sinfinə qəbul edilib. R.Tağıyev bildirib ki, 2019-2020-ci tədris ili üçün paytaxtın ümumi təhsil məktəbləri üzrə I sinfə 48763 uşaq üçün sorğu yerləşdirilib. Onlardan 45637-si ümumi təhsil məktəblərini, 3126-sı isə lisey və gimnaziyaları seçib. Bu il 25832 uşaq məktəbəhazırlıq məşğələlərinə cəlb olunub. BŞTİ-nin tabeliyindəki 268 ümumi təhsil müəssisəsində 983 məktəbəhazırlıq qrupu fəaliyyət göstərir.

Həyata keçirilən bu proses isə tamamilə elektronlaşdırılıb: "Bakı şəhərinin ümumi təhsil məktəblərinin və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların I sinfinə şagird qəbulu 2015-2016-cı tədris ilindən elektron sistem vasitəsilə həyata keçirilir. İlk dəfə Bakı məktəblərində tətbiq edilən sistem bu il ümumi təhsil müəssisələrində şagird yerdəyişməsində də həyata keçirilib və heç bir problem müşahidə edilməyib".

R.Tağıyevin sözlərinə görə, Təhsil Nazirliyi tərəfindən şagirdlərin elektron yerdəyişməsi prosesinə start verilməsi vətəndaşlar üçün daha bir imkan deməkdir: "2019-cu ildən etibarən ilk dəfə olaraq ümumi təhsil müəssisələrində şagird yerdəyişməsi prosesi elektron sistem vasitəsilə həyata keçirilib. Elektron yerdəyişmə nəticəsində 6791 şagird bir məktəbdən digərinə köçürülüb".

### Təmayülləşmə: peşə sinifləri

Artıq bir neçə ildir ki, X sinifdən məktəblilər təhsilinə təmayüllü siniflərdə davam edir. Bu prosesin miqyası ildən-ilə böyüyür və artıq bütün ölkə ərazisini əhatə edir. Təkcə BŞTİ-nin tabeliyindəki 161 məktəbdə 348 təmayül sinif təşkil olunub. Bu ildən isə Bakıdakı 5 ümumi təhsil müəssisəsində ilk dəfə olaraq həm də peşə təmayüllü siniflər yaradılıb. X-XI sinif şagirdləri üçün nəzərdə tutulan peşə təmayüllü siniflər ümumi təhsil müəssisələrinin ərazi, eləcə də maddi-texniki tədris imkanları nəzərə alınmaqla müəyyən edilib və bu məqsədlə paytaxtdakı 117, 120, 234, 274, 293 nömrəli tam orta məktəblər seçilib. R.Tağıyevin sözlərinə görə, peşə təmayüllü siniflər ümumi orta təhsil bazasında təhsilalanların müxtəlif peşələr üzrə ilkin bilik və bacarıqlara yiyələnməsini təmin edəcək, peşə ixtisasları barədə məlumatlandırılmaqla əmək bazarına, eləcə də peşə təhsilinə hazırlanacaqlar: "Təhsilalanlara ilkin sahibkarlıq bacarıqlarının aşılanması, əmək bazarının peşəyönümü hazırlıqlı və əmək qabiliyyətli şəxslərlə təmin edilməsi bu layihəni həyata keçirməkdə qarşımıza qoyduğumuz əsas hədəflərindəndir".

### "Sağlam təhsil" məktəbəhazırlıqdan başlayır

Ölkəmizdəki ümumi təhsil müəssisələrində uğur qazanan layihələrdən biri də Təhsil Nazirliyinin həyata keçirdiyi "Sağlam təhsil, sağlam millət" layihəsidir. Hər il ümumi təhsil müəssisələrində tətbiqi genişləndirilən layihə çərçivəsində paytaxtdakı 39 ümumi təhsil müəssisəsində 170 "Sağlam təhsil" sinfi fəaliyyət göstərir. Onların arasında artıq məktəbəhazırlıq qrupları da var. İdarə müdirinin sözlərinə görə, bu ildən ilk dəfə olaraq paytaxtdakı 20 məktəbdə 26 "Sağlam təhsil" məktəbəhazırlıq qrupu fəaliyyətə başlayıb.

### Bakıda "Kiçik Akademiya"ların sayı artır

İstedadlı şagirdlərin aşkara çıxarılması və inkişaf etdirilməsi təhsildə prioritet istiqamətlərdən biridir. R.Tağıyevin sözlərinə görə, bu məqsədlə yaradılan "Kiçik Akademiya"lar şagirdlərdə XXI əsrin vacib kompetensiyalarını formalaşdıracaq, onların tədqiqatçılıq bacarığını inkişaf etdirəcək, elmi axtarışlara ruhlandıracaq: "Hazırda BŞTİ-nin tabeliyindəki 285 ümumi təhsil məktəbində "Kiçik Akademiya" fəaliyyət göstərir. 22 məktəbdə isə "Kiçik Akademiya"ların yaradılması ilə bağlı hazırlıq işləri görülür. İstedadlı şagirdləri vaxtında aşkara çıxarmaq, onların elmə olan marağını artırmaq, nəzəri və təcrübi biliklərini təkmilləşdirmək, şagirdlərin məntiqi biliklərinin artmasına təkan vermək təhsilin əsas hədəfləri kimi diqqət mərkəzində saxlanılır. Məktəblərdə fəaliyyət göstərən "Kiçik Akademiya"lar yuxarı sinif şagirdlərinin elmi axtarışlara sövq edilməsi və onların müasir tədqiqat metodlarına yiyələnməsi məqsədlərinə xidmət edir".

### "Rəqəmsal bacarıqlar"

Şagirdlərdə tədqiqatçılıq bacarığını formalaşdırmaq, onların yüksək texnoloji ixtisaslara marağını artırmaqla təfəkkürün inkişafına nail olmaq məqsədilə Təhsil Nazirliyi və Alqoritmika MMC-nin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Rəqəmsal bacarıqlar" layihəsinə artıq 75 ümumi təhsil məktəbi cəlb olunub. Layihə çərçivəsində 205 informatika müəlliminin iştirakı ilə "İnformatika müəllimlərinin metodiki biliklərinin və texniki bacarıqlarının təkmilləşdirilməsi" mövzusunda 36 akademik saatlıq ixtisasartırma təlimi keçirilib.

Layihə çərçivəsində 12 ümumi təhsil məktəbində "Kod saatı" aksiyası keçirilib. Aksiyada ümumilikdə 1757 şagird iştirak edib.

### Bakıda 60 şagird inklüziv təhsilə cəlb edilib

Bakı şəhəri üzrə 4 ümumi təhsil müəssisəsində 60 şagird inklüziv təhsilə cəlb edilib. R.Tağıyevin sözlərinə görə, inklüziv təhsilin təmin edilməsi istiqamətində fəaliyyət 2019-cu ildən davamlı xarakter alıb: "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın qəbulundan sonra ölkəmizdə bu istiqamətdə fəaliyyət intensivləşib. Bakı şəhərində də məhz Dövlət Proqramının tələblərindən irəli gələrək çoxsaylı işlər görülüb. Fəaliyyətimiz, təbii ki, sadəcə sağlamlıq imkanları məhdud şəxsləri təhsilə cəlb etməklə yekunlaşmır və yekunlaşa da bilməz. Onların təhsil şəraitini yaxşılaşdırmaqla yanaşı, bu sahədə çalışacaq müəllimlərin üzərinə düşən vəzifələr də müəyyənləşdirilib. Hesab edirik ki, sağlamlıq imkanları məhdud şəxslərin təhsilində effektivlik təhsil şəraiti ilə yanaşı, təhsilverənlərin vəzifələrini bilməsi, həmin vəzifələrə sədaqətindən asılıdır".

### Ali məktəblərə qəbul

Təhsilin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ali və orta ixtisas məktəblərinə qəbul göstəricilərində də müsbət dinamika müşahidə olunur. Belə ki, qəbul imtahanlarına müraciət edən 17505 abituriyentin 13012 nəfəri, yəni 74 faizi respublikanın müxtəlif ali və orta ixtisas müəssisələrinə qəbul olub. 500 və 500-dən yuxarı bal toplayan abituriyentlərin sayı qəbul olunanların 22 faizini təşkil edir.

2019-2020-ci tədris ilində imtahanlarda ən yüksək nəticə göstərərək ali məktəblərə daxil olmuş 102 tələbəyə Prezident təqaüdü verilib. Onlardan 26-sı BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinin məzunlarıdır.

### Məktəblilərin sosial-emosional sağlamlığı

Təhsil Nazirliyi tərəfindən başlanmış #MənimləDanış sosial kampaniyası ilə bağlı maarifləndirici görüşlər keçirilir. BŞTİ tərəfindən direktor müavinləri, məktəb psixoloqları, uşaq birliyi təşkilatı rəhbərləri, müəllim və şagirdlərin iştirakı ilə məktəblərdə "Bullinq" mövzusunda seminarlar təşkil olunub.

Paytaxtın ümumi təhsil müəssisələrində Təhsil Nazirliyi və BMT-nin Uşaq Fondunun (YUNİSEF) birgə əməkdaşlığı çərçivəsində VI-VIII sinif şagirdləri üçün "Mənimlə danış" kampaniyası çərçivəsində "Bullinq" mövzusunda seminarlar keçirilib.

Eləcə də Təlimə Dəstək Mərkəzi tərəfindən BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində maarifləndirici seminarlar keçirilib. Seminarlarda məktəblərin pedaqoji kollektivinə, Vll-Xl sinif şagirdlərinə və valideynlərə "Yeniyetməlik yaş dövrünün xüsusiyyətləri, problemləri", "Valideyn-övlad münasibətləri", "Valideyn-məktəb əməkdaşlığı" mövzularında məlumat verilib.

### İşə qəbul üzrə 1442 vakansiya təqdim olunub

Üstəlik, sadəcə sağlamlıq imkanları məhdud şəxslərlə işləyəcək müəllimlər yox, ümumiyyətlə, təhsilverənlərin peşəkarlığı önəmlidir. Bakı şəhəri üzrə təhsil müəssisələrində də bu məsələ xüsusi əhəmiyyət daşıyır. Bunun da nəticəsidir ki, Təhsil Nazirliyi tərəfindən keçirilən müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqələrinə BŞTİ tərəfindən 2019-2020-ci dərs ili üçün 1442 vakansiya təqdim olunub: "2019-cu ildə 943 nəfər işə qəbul olunub.Təhsil Nazirliyi tərəfindən keçirilən müsabiqə və müsahibələrdən uğurla keçən həmin şəxslər Bakının müxtəlif məktəblərində daimi əsaslarla işə başlayıblar. Onlardan 414 nəfər müəllimlərin işə qəbulu müsabiqəsinin müddətsiz müqavilə ilə işə qəbul mərhələsi nəticəsində, 274 nəfər vakant yer üzrə müddətli əmək müqaviləsi əsasında çalışan müəllimlərin daimiləşmə prosesi nəticəsində daimi iş yeri qazanıblar. 255 nəfər isə, sadəcə iş yerini dəyişdirib".

R.Tağıyevin sözlərinə görə, bu il müəllimlərin işə qəbulu müsabiqəsinin müddətli müqavilə ilə işə qəbul üzrə elektron yerləşdirmə prosesi nəticəsində 1099 namizəd müddətli müqavilə ilə işə qəbul olunaraq Bakı məktəblərinə göndərilib. BŞTİ-nin tabeliyindəki müəssisələrdə çalışmanın yaş həddinə çatmış 1245 işçidən 563 nəfəri ilə dərs ilinin sonunadək müddətli müqavilənin bağlanması məqsədəuyğun hesab edilib.

Bu il müəllim kimi işə başlayanlarla yanaşı, təhsil müəssisələrində ayrı-ayrı vəzifələrin icrasına cəlb edilənlər də kifayət qədər çoxdur. Belə ki, 2019-cu ildə təşkil edilən müsabiqələr vasitəsilə BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində 29 nəfər təlim-tərbiyə işləri üzrə direktor müavini, 27 nəfər tərbiyə işləri üzrə direktor müavini (təşkilatçı), 23 nəfər psixoloq, 24 nəfər kitabxanaçı, 9 nəfər gənclərin çağırışaqədərki hərbi hazırlığı üzrə rəhbər, 18 nəfər uşaq birliyi təşkilatı rəhbəri, 152 nəfər laborant vəzifələrinə işə qəbul olunub. Ümumilikdə, 282 nəfərin işə qəbulu həyata keçirilib. Nəhayət, BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrinə 2019-cu il ərzində 26 nəfər direktor vəzifəsinə işə qəbul edilib: "13 direktorun iş yeri dəyişdirilib.

111 məktəb direktorunun müddətli əmək müqaviləsinin müddəti uzadılıb.

Çalışmanın yaş həddinə çatmış 30 direktorla müqavilənin müddəti cari tədris ili çərçivəsində uzadılıb.18 direktorla bağlanmış əmək müqaviləsi ləğv edilib".

### 36 qalib layihə

Bakı məktəbləri Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsində də fərqlənib. Bu il paytaxt üzrə 36 layihə qalib olub. BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrindən 39, 58, 84, 129, 145, 147, 150, 155, 177, 212, 214, 216 və 232 nömrəli tam orta məktəblərə məxsus layihələr "Ümumi təhsil müəssisələri" kateqoriyası üzrə qaliblər sırasında yer alıb. BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan müəllimlər tərəfindən 23 layihə isə fərdi kateqoriya üzrə qalib gəlib.

### Beynəlxalq əməkdaşlıq genişləndirilir

Təhsil sahəsində beynəlxalq əlaqələri genişləndirmək və qarşılıqlı əməkdaşlıq çərçivəsində ümumi təhsilin inkişafını daha da sürətləndirmək məqsədilə genişmiqyaslı tədbirlər həyata keçirilib.

2019-cu ildə İrlandiyanın Dublin şəhərinə təhsil səfəri təşkil edilib. Təhsil səfəri "Məktəb İnspeksiyalarında İnnovasiyaların Tətbiqi" mövzusuna həsr edilib.

Təhsil Nazirliyi, Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, Təhsil İnstitutu və BŞTİ-nin əməkdaşlarından ibarət nümayəndə heyəti İspaniya Krallığının Barselona şəhərinə işgüzar səfər edib. Səfər təhsil sistemində dövlət-özəl tərəfdaşlığının təşkili və idarə edilməsi sahəsində İspaniya Krallığının təcrübəsi ilə tanış olmaq və Azərbaycanda tətbiqi imkanlarını öyrənmək məqsədilə həyata keçirilib.

Ankara, İstanbul, İzmir Milli Təhsil idarələrinin və Moskva Şəhər Elm və Təhsil Departamentinin nümayəndə heyətləri ölkəmizə səfərlər edib. Səfərlər çərçivəsində BŞTİ-də geniş tərkibli görüşlər keçirilib. BŞTİ ilə İstanbul, Ankara və İzmir Milli Təhsil idarələri arasında Niyyət protokolu imzalanıb. Qonaqlar məktəblərdə olub, təhsil müəssisələri arasındakı əməkdaşlığın indiki vəziyyəti və genişləndirilməsi imkanları müzakirə edilib.

### Bakıda təhsil şəraiti yaxşılaşdırılır

Təhsildə keyfiyyət həm də şəraitdən asılıdır. Odur ki, təhsilin keyfiyyəti ilə yanaşı, təhsil müəssisələrinin durumu da daim diqqət mərkəzində saxlanılır: "2019-cu ildə BŞTİ-nin tabeliyində fəaliyyət göstərən 6 məktəbdə əsaslı təmir işləri aparılıb. Bundan əlavə, mövcud olan 1 məktəbin binası yenilənib, 1 məktəb üçün digər ərazidə yeni bina inşa olunub, ehtiyac olan ərazidə 1 yeni məktəbin inşası başa çatıb və 2 məktəbin köhnə korpusları sökülərək yenidən tikilib. Eləcə də, 224 təhsil müəssisəsində cari təmir və mühəndis-kommunikasiya işləri aparılıb.

2 məktəbin sökülərək yenidən tikintisinə, 2 məktəbin isə korpuslarının sökülərək tikintisinə başlanılıb. Hazırda 1 məktəb üçün əlavə korpusun tikintisi davam etdirilir".

R.Tağıyev, bütövlükdə 2019-cu tədris ilini Bakı məktəbləri üçün uğurlu hesab edir: "Çağdaş dünyanın təhsil trendləri islahat və yeniliklərin çevik tətbiqini tələb edir. Çünki müasir dövrün inkişaf meyilləri təhsilin yetişdirdiyi insanların bacarıqlarından asılıdır. Bu baxımdan, ölkə ümumi təhsilinin flaqmanı olan Bakı təhsilinin fəaliyyət istiqamətləri məktəbyaşlı uşaqları dünyanın rəqabət mühitinə hazırlamağa, təhsildə keyfiyyətin artırılması istiqamətində irəliləyişə nail olmağa imkan verir. Bu gün təhsil sahəsində davamlı olaraq həyata keçirilən islahatlar əminlik yaradır ki, müasir Azərbaycan təhsili özünün zəngin və mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcək. Yaradılan şərait və dövlət qayğısı təhsil işçilərini daha da ruhlandırır, öz fəaliyyətlərinə daha yaradıcı yanaşmağa sövq edir. 2020-ci il də ümumilikdə ölkəmiz, eləcə də təhsilimiz üçün uğurların davamı ili olacaq. Əminik ki, 2019-cu ildə həyata keçirdiyimiz tədbirlər, islahatlar və tətbiq edilən yeniliklər 2020-ci ildə qazanacağımız nailiyyətlərin əsası olacaq".

# ADPU-nun Quba filialı böyük hədəflərə doğru







**Yusif ALIYEV,**
*ADPU-nun Quba filialının direktoru, dosent*

Min illər boyunca davam edən iqtisadi, hərbi, siyasi dəyişmələr nəticəsində Şərq təhsil sisteminin təməlində özünə yer tapan Qərb təhsil sistemi quruldu. Ortaya Şərq düşüncə təfəkküründən fərqli insan yetişdirən modellər çıxdı və bu təhsil sistemi əsasında onlar, bizdən yan ötən üç sənaye inqilabı dövrü keçdi.

Hazırda qloballaşan dünya 4-cü sənaye inqilabı dövrünü yaşayır. Sürətlə dəyişən və yeniləşən texnoloji tərəqqi özü ilə bir çox dəyərləri silib aparır, əvəzində isə yeni-yeni fərqli dəyərlər gətirərək, cəmiyyətdə təhsilə, elmə, mədəniyyətə baxışları dəyişir. İntellektual təfəkkürün intellektual istehsalata yönəldilməsi ilə yeni elmi rəqabət meyarları, dəyərləri formalaşır.

Hər sahədə yeni uğurlu dönəmə daxil olan ölkəmizdə təhsil sahəsində də yeni era yaşanmaqdadır. Təbii ki, güclü iqtisadiyyata, sağlam cəmiyyət quruluşuna malik, bir çox müsbət xüsusiyyətləri ilə dünyanı qabaqlayan Azərbaycanda insan kapitalının formalaşmasında keyfiyyətli təhsil və təlim sistemi dayanır. Təhsil və elm sahəsində isə daha mükəmməl uğurların əldə edilməsi üçün rəqabətədavamlı, tədqiqat meyilli, mobil və çevik təhsil mühiti formalaşdırılmalıdır.

Bəli, missiyası milli şüura malik, dövlətə bağlı, dərin elmi tədqiqatçılıq qabiliyyətli, iti düşüncəli, insan azadlıq və hüquqlarına hörmət edən, yaradıcı və innovativ fərdlər yetişdirərək cəmiyyətin texnoloji, sosial-iqtisadi və mədəni səviyyəsinin yüksəldilməsinə töhfə vermək olan Azərbaycan Dövlət Pedaqoji Universiteti də fəaliyyətini məhz qeyd edilən tələblər əsasında qurub.

Tərkibində beş filialı, bir kolleci birləşdirən, 20 mindən çox kontingentlə 100 illik yubiley yaşına konkret hədəflərlə gedən Azərbaycan Dövlət Pedaqoji Universiteti pedaqoji sahədə təhsil və tədqiqatın əsas mərkəzi olmaq iddiası ilə uğurlu rəqabətə başlayıb. Qarşısına böyük hədəflər qoyaraq təhsildə və elmdə qətiyyətli addımlar atan ADPU artıq böyük hədəflərin kiçik uğurlarını qazanıb. ABŞ-ın nüfuzlu Corc Vaşinqton Universiteti ilə ADPU arasında ikili diplom proqramının təşkili üzrə universitetlərarası bəyannamənin imzalanması pedaqoji ictimaiyyət üçün evalyusiyadan revalyusiyaya keçid kimi qəbul edilə bilər. Həmçinin, elm, innovasiyalar sahəsində həyata keçirilən islahatlar nəticəsində son üç ildə ADPU-nun nəşr aktivliyi 2.3 dəfə artdığından, "Web of Science" elmmetrik bazasının ən proqressiv universitetlər nominasiyası üzrə mükafata layiq görülüb.

### Uğurların miqyası və coğrafiyası genişləndiriləcək

Hazırda ölkə rəhbərliyi tərəfindən həyata keçirilən davamlı inkişaf siyasəti, uğurlu islahatların gedişində təhsilə göstərilən dövlət qayğısı artdıqca, ADPU təhsil və elm sahəsində əldə edəcəyi uğurların miqyasını və coğrafiyasını genişləndirəcək. Çünki Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubiley tədbirindəki çıxışında da qeyd etdiyi kimi, bu gün doğrudan da, əsl müstəqillik dövrüdür. Müstəqillik dövründə isə qərarları özü qəbul edə bilən, xalqın iradəsi ilə formalaşan, dünya miqyasında müasir, sürətlə inkişaf edən dövlətin iqtisadiyyatı, elmi, həmçinin, təhsili də sürətlə və dinamik inkişafda olmalıdır.

Azərbaycan Respublikasının inkişaf konsepsiyasında önəmli istiqamət kimi əksini tapan rəqabətədavamlı insan kapitalının yetişdirilməsi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının da qarşısındakı mühüm vəzifələrdəndir. Azərbaycan təhsilinin inkişaf prioritetlərini rəhbər tutaraq etik dəyərləri təbliğ edən, təhsildə bərabər imkanları təmin etməyə səy göstərən, qarşısına qoyduğu hədəflərə nail olmağa çalışan Quba filialı haqqında bir qədər ətraflı məlumat vermək istərdik.

Şimal bölgəsində pedaqoji kadr hazırlığı məqsədilə 1941-ci ildə yaradılan Quba Dövlət Müəllimlər İstitutunun varisi hesab olunan filial 1991-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Quba filialı, 2000-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Quba filialı, 2015-ci ildən isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı kimi fəaliyyət göstərir.

### Geniş maddi-texniki baza və infrastruktur

Qubanın ən səfalı məkanında 2,5 hektar ərazidə iki və üç mərtəbəli 2 tədris binası, 42 otaqdan ibarət 70 tələbə üçün nəzərdə tutulan ikimərtəbəli yataqxana binası filialın geniş maddi-texniki bazaya və infrastruktura malik təhsil kompleksinə - kampusa malik olduğunu göstərir.

Azərbaycanın şimal bölgəsində mədəni həyatın inkişafında müstəsna əhəmiyyətli ali təhsil ocağı olan ADPU-nun Quba filialında 6 ixtisas - Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Riyaziyyat və informatika müəllimliyi, Tarix və coğrafiya müəllimliyi, İbtidai sinif müəllimliyi və Təhsildə sosial-psixoloji xidmət, Məktəbəqədər təlim və tərbiyə ixtisasları fəaliyyət göstərir. Bakalavriatura təhsili alan 825 nəfər tələbəyə 83 nəfər professor-müəllim heyəti təhsil verir. Nizam-intizamın yüksək olduğu, tələbə-müəllim işinin şəffaf qurulduğu filialda 43 nəfər tədris köməkçi, 20 nəfər xidmətedici heyət də fəaliyyət göstərir. Əməkdaşların maddi rifah halı daim yaxşılaşma istiqamətində dəyişir. Belə ki, 2019-cu il ərzində filial əməkdaşlarının əməkhaqları orta hesabla 30% artırılıb. Növbəti ildən tədbiq olunacaq "Reytinq qiymətləndirilməsi" ilə fəaliyyətin dəyərləndirilməsi sayəsində fərqlənən əməkdaşlar daha çox maddi təminat əldə edəcəklər.

Azərbaycanda ali və orta təhsil müəssisələri beynəlxalq təcrübələr və milli yanaşmalar əsasında qabaqcıl texnologiyaların tətbiqi ilə həyata və cəmiyyətə sürətli inteqrasiya etməyi bacaran vətəndaş hazırlamağı qarşısına məqsəd qoyub. Bunun üçün təhsil strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsində, dayanıqlı və keyfiyyətli təhsil göstəricilərinin əldə edilməsində mütləqdir ki, mövcud yanaşmalar və müasir trendlər əsasında səmərəli idarəetmə metodu seçilsin. Bu baxımdan ADPU-nun Quba filialında həyata keçirilən idarəetmə metoduna və təhsilverənlə, təhsilalan arasında yaradılan ünsiyyət münasibətlərinə nəzər salaq...

### Tələbələrlə iş

825 nəfər tələbəni bir ailə çətiri altında birləşdirən filial rəhbərliyi onların bütün qayğıları ilə maraqlanmağa çalışır. Buna görə də filialda tələbə nəticələrinin dinamikası ildən-ilə yaxşılaşır.

2019/2020-ci tədris ilində Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda 210 plan yeri üzrə 202 nəfər ADPU-nun Quba filialının tələbələri sırasına daxil olub. Onlardan 9 nəfər 500-dən yuxarı, 1 nəfər - Əliyeva Aliyə Hümmət qızı isə 602 bal toplayaraq, filial üzrə ən yüksək nəticə göstərmiş tələbə adını qazanıb.

Filialda tələbələrlə iş ulu öndər Heydər Əliyevin "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır" prinsipi əsasında qurulub.

Gəncliyin ən çılğın, ən aktiv, ən enerjili dövrü tələbəlik dövrü olduğundan bu enerjini tənzimləyərək, onu doğru istiqamətə - keyfiyyətli tədrisə, intellektual inkişafa, ümumilikdə şəxsiyyətin inkişafına yönəltmək filialda ən vacib işlərdən biridir.

Bunun üçün tələbələrin tədrislə yanaşı, universitetin ictimai həyatında fəallığını artırmaq, onların asudə vaxtlarının səmərəli təşkili, maraq və meyillərini müəyyənləşdirmək, ixtisaslararası əlaqələrin möhkəmləndirilməsi məqsədilə son üç ay ərzində Elmi Şuranın qərarları ilə filialda "Kitab klub", "Psixologiya klubu", Bəkir Nəbiyev adına "Bilgə ocağı", "Talant" İncəsənət (ART) klubu yaradılıb. Bu klublar da tələbə çılğınlığını, enerjisini ədəbiyyata, incəsənətə, bir sözlə, ümumi şəxsiyyət kimi inkişafına yönəldə bilir.

Filialda tələbələrin təşəbbüsü ilə yaradılan "Fərqlilik və yenilik, əylənərək öyrənmək" şüarı ilə "Gələcəyin müəllimi" layihəsi çərçivəsində tələbələr, əsasən özlərini inkişaf etdirən layihələr həyata keçirirlər. Bu layihələr tələbələrin innovativ ideyalarının yaranmasına vəsilə olur. Həmçinin burada keçirilən məşğələlər vasitəsilə imtahanların çətin mövzularını birgə müzakirə edərək mənimsəməni möhkəmləndirirlər.

Bütün bu qeyd edilənlər tələbələr arasında korporativ mədəniyyətin formalaşdırılması, dünyagörüşlərinin zənginləşdirilməsi, sağlam düşüncə, özünə inam, vətənpərvərlik, tolerantlıq, dövlətçilik ideologiyasının təbliği baxımından olduqca önəmli və vacibdir.

Filialda, həmçinin müstəqil olan TGT, THİK kimi tələbə özünüidarəetmə qurumları da fəaliyyət göstərir ki, bu qurumlar da tələbə həyatının maraqlı keçməsində, asudə vaxtlarının səmərəli təşkilində və sosial layihələrin icra edilməsində əsaslı işlər görürlər.

Filialda 79 tələbə dövlət təqaüdü, 4 tələbə "Gələcəyin müəllimi" təqaüdünü alır. İlk dəfə olaraq Elmi Şuranın qərarı ilə III tədris ilindən başlayaraq ümumi orta müvəffəqiyyət göstəriciləri ən yüksək olan tələbələr üçün ümummilli lider Heydər Əliyev adına ali təqaüd, müvafiq ixtisaslar - Tarix və coğrafiya müəllimliyi- Fətəli xan adına, Məktəbəqədər təlim və tərbiyə - Abbasqulu ağa Bakıxanov adına, Azərbaycan dili və ədəbiyyat müəllimliyi - Səməd Vurğun adına, Riyaziyyat və informatika müəllimliyi - Nadir İbrahimov adına, Təhsildə sosial-psixoloji xidmət - Kübra Fərəcova adına, İbtidai sinif müəllimliyi üzrə - Badisəba xanım Köçərli adına məbləği 50 manat olan təqaüdlər təsis olunub.

Filial tarixində ilk dəfə olaraq, ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə ADPU-nun Quba filialının tələbələri arasında 9 dekabr 2019-cu ildə Azərbaycan dili, tarix, coğrafiya, riyaziyyat, informatika, psixologiya üzrə olimpiadalar keçirilib və qaliblər diplom, qiymətli hədiyyələr, pul mükafatları ilə təltif ediliblər.

Bütün bunlar tələbələrin MİQ və magistratura imtahanlarında uğurlu nəticələr göstərərək Quba filialının məzun-koordinasiya izlənməsi baxımından yüksək pilləyə qalxmasına səbəb olacaq. Beləliklə, filialda yetişən bu gənclər ölkəmiz üçün gələcək illərdə elmi tədqiqatlar baxımından böyük ümidlər vəd edir.

### Doktorantlarla iş

Son illər dünyada elm və təhsilin bir-biri ilə əlaqələndirilməsi və hər iki sahənin innovasiyaların tətbiqi ilə paralel inkişaf etdirilməsi xüsusi diqqət mərkəzindədir. Filialda da tədris prosesinin elmi tədqiqatla əlaqələndirilməsi, tələbə və doktorantlarda tədqiqatçılıq, peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq, vərdişlərin formalaşdırılması məqsədi ilə tanınmış universitetlər və AMEA-nın müvafiq institutları ilə sıx elmi əlaqələr yaradılıb. Belə ki, filialdan 19 nəfər fəlsəfə doktorluğu, 2 nəfər isə elmlər doktorluğu proqramı üzrə doktorantura pilləsində təhsil alır. Doktorantların elmi işlərinin vahid mərkəzdən koordinasiya edilməsi və elm-innovasiya sahəsində potensialının artırılması, pedaqoji sahədə mütəxəssis hazırlığının səviyyəsinin yüksəldilməsi məqsədilə Elmi Şuranın qərarı ilə filialda Doktorant və Gənc Tədqiqatçılar Şurası yaradılıb. Şuranın aktiv fəaliyyəti ilə doktorant, dissertant, magistrantlar Respublika və beynəlxalq elmi konfranslarda, tədbirlərdə fəal iştirak edirlər. Bunun sayəsində filialın Almaniya, Polşa, Türkiyə, Rusiya universitetləri ilə qurulan elmi əlaqələri daha sıx formaya keçməkdədir.

### Kitabxana və informasiya-kommunikasiya fəaliyyəti

Müasir dövrdə hər hansı bir təhsil müəssisəsini kitabxanasız təsəvvür etmək mümkün deyil. Dünya universitetlərinin reytinq sırasında yüksək pillələrə iddia edən universitetlər, həmçinin öz zəngin kitabxanaları ilə də üstün xallar qazanırlar. Buna görə də son dörd ay ərzində 19060 nüsxə kitab fondu olan filial kitabxanasının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində, kitabxana fondunun yenilənməsi, oxucu sayının artırılması, kitabxanada kompüterlərin genişzolaqlı fiber optik internet xəttinə qoşulması istiqamətində böyük işlər görülüb. Dekabr ayında kitabxana fondu üçün 92 adda 200 nüsxəyə yaxın dərslik, dərs vəsaitləri və xarici ədəbiyyatlar alınaraq kitab fondu zənginləşdirilib. 27 noyabr 2019-cu ildə ADPU-nun Quba filialı ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanası arasında elmi və mədəni irsin araşdırılması, toplanılıb qorunması, təbliği və tədrisi sahəsində birgə fəaliyyətə dair qarşılıqlı Memorandum imzalanıb. Memoranduma uyğun olaraq, filialda kitabxana proseslərinin avtomatlaşdırılması, elektron kataloqların mübadiləsi, elektron kitabxanalardan qarşılıqlı istifadə imkanları həyata keçiriləcək. Region ali məktəbləri içərisində ilk dəfə olaraq Quba filialında Sərbəst ensiklopedik resurslarda (Vikipediya) regionun maddi-mədəniyyət abidələrinə, adət-ənənələrinə, tanınmış şəxsiyyətlərinə və sair informasiyalara aid Azərbaycan və xarici dillərdə məqalələrin hazırlanması işi də Memorandumda öz əksini tapıb.

Görülən məqsədyönlü işlər sayəsində bir ay ərzində kitabxanadan istifadə edən professor-müəllim heyətinin sayı 6 dəfə artaraq 34 nəfərə, tələbələrin sayı isə 3 dəfə artaraq 190 nəfərə çatıb.

Ümummilli lider Heydər Əliyevin müəllim peşəsinə verdiyi qiymətin işığında Ulu Öndər irsinin öyrənilməsi, Azərbaycançılıq ideologiyasının təbliği və qorunması yönündə filialda Heydər Əliyev Məktəbi və Heydər Əliyev Məktəbinin lektoriyası yaradılıb.

Tələbələrin və professor-müəllim heyətinin informasiya-kommunikasiya texnologiyaları ilə işinin səmərəli təşkili istiqamətində atılan addımlardan ən vacibi də oktyabr ayında filialda genişzolaqlı fiber optik internet xəttinə qoşulmuş 20 ədəd kompüterdən ibarət İnformasiya-Kommunikasiya Texnologiyaları auditoriyasının yaradılması olub.

### Gələcək hədəflər haqqında

ADPU-nun Quba filialında görülən işlərlə əlaqədar qarşıya qoyulan məqsədlər, nəinki region, eləcə də respublika, hətta beynəlxalq miqyaslı tədbirlərlə əhatələnir. Filial beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində mühüm addımlar atır. Belə ki, 2020-ci ilin oktyabrında "Regionlarda ali təhsil: reallıqlar və perspektivlər" mövzusunda beynəlxalq elmi konfransın Quba filialının təşkilatçılığı və ev sahibliyi ilə keçirilməsi nəzərdə tutulub.

Filialın beynəlxalq layihələrə çıxışını, tələbə və müəllimlərin beynəlxalq mübadilə proqramlarında iştirakını təmin etmək məqsədilə Beynəlxalq layihə mərkəzinin yaradılması, həmçinin şimal regionunun zəngin mədəni irsinin, milli-mənəvi dəyərlərinin öyrənilməsi və beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə Azərbaycan-YUNESKO əlaqələrini nəzərə alaraq, eyni zamanda Təhsil Nazirliyinin müvafiq məktubuna əsasən Quba filialında "YUNESKO" kafedrasının yaradılması da planlaşdırılır.

Əminliklə deyə bilərik ki, dünən də, bu gün də dövlətçiliyə sadiq, vətənə layiq, təhsilli, bilikli, düşüncəli vətəndaş hazırlayan filial sabah da bu yolda böyük fədakarlıq və əzmkarlıqla davam edərək vətənimiz Azərbaycan üçün çalışacaq.

ADPU-nun Quba filialının kollektivi əldə olunan uğurları filial üçün əsaslı nailiyyətlər hesab etsə də, ən böyük uğurların qarşıda olduğu düşüncəsi ilə yorulmadan, əzmlə çalışır. Bölgə ali məktəbi üçün qaneedici elmi-pedaqoji kadr potensialı formalaşdıran filial gələcəkdə müstəqil Azərbaycanın uğurlu inkişafı fonunda mövcud bazasında kadr hazırlığı sahəsində sərbəst universitet statusuna malik ali məktəb formalaşdırmağı qarşısına hədəf qoyub.

# "Müasir məktəb-Uşaq hüquqları"



**Niyazi RƏHİMOV**

Paytaxtın Səbail rayonunda yerləşən 239 nömrəli tam orta məktəbdə "Müasir məktəb-Uşaq hüquqları" mövzusunda tədbir keçirilib. Tədbirdə məktəbin müəllim-şagird kollektivi ilə yanaşı, AMEA-nın professoru Qənirə Paşayeva, Kərkükdən qonaq gələn şair-jurnalist Şəmsəddin Küzəçi, BŞTİ-nin əməkdaşı Şirindil Əhmədov, Səbail Rayon İcra Hakimiyyətinin, rayon polis idarəsinin əməkdaşları, Atatürk Mərkəzinin şöbə müdiri Əkbər Qoşalı, Regional Hüquqi və İqtisadi Maarifləndirmə təşkilatının rəhbəri Arzu Bağırova, KİV nümayəndələri və digər şəxslər iştirak edib.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra tədbiri giriş sözü ilə açan məktəbin direktoru Sədaqət Əzimova ölkəmizdə aparılan uğurlu təhsil islahatlarından söz açıb. Ölkə Prezidenti cənab İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi diqqət və qayğıdan danışıb. BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına toxunan direktor bildirib ki, ölkəmiz də bu konvensiyaya qoşulub. S.Əzimova Uşaq hüquqları bəyannaməsində göstərilən müddəalardan söz açaraq bildirib ki, fiziki və əqli cəhətdən yetkin olmadığına görə uşağın istər doğulmazdan əvvəl, istərsə də doğulduqdan sonra xüsusi mühafizəyə və qayğıya, o cümlədən lazımi hüquqi müdafiəyə ehtiyacı var. Uşaq hüquqları haqqında geniş məlumat verən direktor onu da qeyd edib ki, təhsil ocağında bu istiqamətdə maarifləndirmə işləri həyata keçirilir.

Tədbirdə çıxış edən Qənirə Paşayeva uşaqların təhsil hüququndan geniş məlumat verib. Ölkəmizdə uşaqların təhsil almaları üçün hər bir şəraitin olduğunu vurğulayan Q.Paşayeva bildirib ki, dünyada hazırda elə uşaqlar var ki, onlar təhsil ala bilmir, bu hüquqdan məhrumdular. Bu baxımdan, ölkəmizdəki şəraitin fərqində olmağı şagirdlərə bildirən natiq, bu imkanlardan maksimum istifadə etməyi onlara tövsiyə edib. Bildirilib ki, hər bir insan öz hüquqlarını bilib qorumaqla yanaşı, digərlərinin də hüquqlarına hörmətlə yanaşmalıdır. Uşaq hüquqları ilə yanaşı, insan hüquqları haqqında da danışan Q.Paşayeva bu kimi məsələlərə təhsil ocaqlarında böyük önəm verilməsinin vacibliyindən də söz açıb.

Şair-jurnalist Şəmsəddin Küzəçi çıxışında İraqda olan uşaqlardan, onların hüquqlarının məhdudiyyətindən söz açıb. Azərbaycan hökumətinin təhsilə göstərdiyi diqqət və qayğıdan söz açan qonaq, ölkəmizdə uşaqların təhsil alması üçün maksimum şəraitin olduğunu da xüsusi vurğulayıb.

Digər çıxış edənlər də mövzu ətrafında şagirdlərə maarifləndirici məlumatlar verib.

Tədbirdə məktəbin "Xor" kollektivinin ifa etdiyi "Uşaqlar heç ağlamasın" mahnısı iştirakçılar tərəfindən alqışla qarşılanıb. Məktəbin yuxarı sinif şagirdlərinin "Uşaq hüquqları" haqqında təqdimatları iştirakçılarda marağa səbəb olub.

# Başa vurduğumuz il təhsil ictimaiyyətinin gözü ilə


Hikmət ƏLİZADƏ


Nadir İSRAFİLOV


İlqar ORUCOV


Yəhya ABBASOV


Lalə ABDULLAYEVA

⇦ Əvvəli səh.1

**Samirə KƏRİMOVA**

Uşaqların məktəb həyatına psixoloji dayanıqlığını və ünsiyyət bacarıqlarını artırmaq, təlim prosesində bilik, bacarıq və vərdişlərə yiyələnmələri üçün onlarda sadə əqli əməliyyatları formalaşdırmaq məqsədinə müvafiq olaraq məktəbəqədər yaşlı uşaqların məktəbəhazırlıq təhsilinin əhatəliliyi daha da artırılıb. Düşünürük ki, bu qruplarla keçirilən məşğələlərdə məntiqi oyunların üstünlük təşkil etməsi qarşıya qoyulan hədəfə daha tez nail olmaq imkanı verir.

2008-ci ildə məktəblərdə kurikulumun tətbiqi də təhsilin keyfiyyətinin yeni səviyyəyə qaldırılması üçün atılan mühüm addımlardan biri idi. Kurikulumun tətbiqi köhnə sistemin yenisi ilə əvəz olunması prosesi idi. Bu çox mürəkkəb, çətin bir addım idi və onu asanlıqla həyata keçirmək, təbii ki, mümkün deyildi. Belə ki, kurikulumun tətbiqi məktəbin bütün fəaliyyətinin yeni məzmunda qurulması demək idi: təhsilin fəlsəfəsi, müəllimin rəhbərlik üslubu, müəllim - şagird münasibətləri, təlimin prinsipləri, metodları, dərsin təşkili qaydaları, dərslik, dərs vəsaitləri, qiymətləndirmə mexanizmləri dəyişməli, yenilənməli idi. Bu həcmdə işi qısa müddət ərzində səlis yerinə yetirmək sadəcə olaraq mümkün deyildi. Mətbuatda bununla bağlı geniş danışılıb. Yeniliklərin tətbiqi həmişə çətinliklərin yaranması ilə müşahidə olunur. Məhz Təhsil Nazirliyi hər vaxt bu çətinliklərin aradan qaldırılması müstəvisində zəruri taktiki addımlar atmaqdadır.

2018-2019-cu tədris ili yeni kurikulumların məktəbin sonuncu - XI sinfinə tətbiq edilməsi ilə əlamətdar idi. Hər il olduğu kimi, bu il də Təhsil Nazirliyi tərəfindən bu istiqamətdə pedaqoji, psixoloji və metodiki baxımdan bir sıra zəruri addımlar atıldı: dərsliklər, məktəbdaxili qiymətləndirmə sistemi təkmilləşdirilmiş, dərsin keyfiyyətinin artırılması baxımından müəllimlər üçün yeni metodiki vəsaitlər hazırlanmış, məktəblərin maddi-texniki bazası daha da yaxşılaşdırılmışdır və s.

Keçən tədris ilində XI sinfi bitirən şagirdlər bu il yeni kurikulumlar əsasında ümumi təhsil müəssisələrini başa vuran ilk məzunlar olublar. Bu ölkəmizin təhsil həyatında əlamətdar hadisələrdən biridir. Təbii ki, təhsilini kurikulum əsasında bitirən şagirdlərin biliyinin qiymətləndirməsi yeni məzmuna uyğun yeni qaydalar tələb edir. Təhsil Nazirliyi bu məsələyə də həssaslıqla yanaşdı və Dövlət İmtahan Mərkəzi ilə birlikdə buraxılış və qəbul imtahanları yeni formatda həyata keçirildi.

Təklif olunan model öz məzmunu və mütərəqqiliyi baxımından fərqlənir. Düşünürük ki, bu imtahanlarda açıq sualların çəkisi məntiqi quruluş baxımından artırılacaq, imtahan verənlərin təkcə yaddaş meyarı əsasında deyil, həm də analiz və sintez qabiliyyətlərinin ölçülməsinə üstünlük veriləcəkdir. Fikrimizcə, yaxın gələcəkdə bütün ixtisaslar üzrə qəbul imtahanları zamanı qabiliyyət imtahanlarının keçirilməsi bu modelin daha da təkmilləşməsinə xidmət edə bilər.

Təhsil sistemində uğurlu addımlardan biri də İKT-dən istifadənin genişləndirilməsidir. Bu bir tərəfdən şəffaflığın təcəssümü kimi diqqət çəkirsə, başqa tərəfdən isə valideynlərin işini yüngülləşdirir. Elektron sistem vasitəsilə həm məktəbəhazırlıq qruplarına, həm də I sinfə şagird qəbulunun əhatə dairəsi genişləndirilib.

Gənclərin peşə təhsilinin təkmilləşdirilməsi Təhsil Nazirliyinin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Cari tədris ilində bu aspektdə maraqlı innovasiyaya imza atılıb. Mingəçevirdə Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə layihəsi olan "ASAN Peşə" təhsil mərkəzi yaradılıb, peşə təhsili sahəsində beynəlxalq əməkdaşlıq genişlənib, peşə təhsili müəssisələrinin fəaliyyətinə dəstək məqsədilə Avropa İttifaqının 4 qrant layihəsinin icrasına başlanılıb (bu layihələr peşə təhsili müəssisələrinin həm məzmun baxımından, həm də onların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir). "ASAN peşə" layihəsi çərçivəsində peşə təhsili sahəsində də müəllimlərin diaqnostik qiymətləndirilməsinə və yeni əməkhaqqı sisteminin tətbiqinə başlanılıb. Cari tədris ilində "Peşə təhsili haqqında" Qanunun qəbul olunması bu işlərin daha yüksək səviyyədə həyata keçməsinə imkan verəcəkdir. Fikrimizcə, biz yaxın gələcəkdə yeni nəsil peşə təhsili müəssisələrinin şəbəkəsinin şahidi olacağıq.

2019-cu ildə Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi isə təhsil ictimaiyyətinin əsl bayramı kimi qiymətləndirilməlidir. Bu yubileydə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edib. Proqram məzmunlu çıxışında dövlət başçısı ölkəmizin gələcək inkişafının təmin edilməsi baxımından təhsilin qarşısına yeni hədəflər qoymuşdur. Yubiley tədbirində Şərqin ilk ali məktəbi kimi milli kadrların hazırlanmasında, dövlətçilik ənənələrinin, milli-mənəvi dəyərlərin formalaşmasında, Azərbaycanda elm və təhsilin inkişafında, Azərbaycançılıq ideologiyasının formalaşmasında müstəsna rol oynamış Bakı Dövlət Universitetinin keçdiyi tarixi yola nəzər salınaraq gələcək perspektivlər müəyyənləşdirilib.

Ölkəmizdə təhsil sahəsində görülən işlər məzmun etibarı ilə çoxşaxəlidir. Biz ölkəmizdə təhsil sahəsində görülən bəzi işlərə nəzər saldıq. Fikirləşirik ki, son bir il ərzində həm strateji, həm də taktiki baxımdan müasir keyfiyyət meyarlarına cavab verən xeyli maraqlı işlərin görülməsi, təhsilin yenilənməsi istiqamətində əsaslı islahatların uğurla davam etdirilməsi təhsilimizin ildən-ilə daha da inkişaf edəcəyini deməyə əsas verir.

### Təhsil sistemimizi xalqımızın tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini *Nadir İsrafilov* bildirir ki, 2019- cu il ölkəmizin sosial, iqtisadi inkişaf sahələrində olduğu kimi, təhsilimiz üçün də uğurlu illərdən biri sayıla bilər.

- Hər şeydən əvvəl təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resurslarının inkişaf etdirilməsi, strateji hədəf kimi müəllimlərin karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması üzrə yeni sistemin yaradılması, təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması və müəllim peşəsinin nüfuzunun artırılması sahəsində xeyli irəliləyiş əldə olundu. Təhsilin məzmun və formaca yeniləşməsi, təhsildə mütərəqqi metod və müasir texnologiyaların tətbiqi sahəsində xeyli nəzərəçarpacaq işlər görülüb. Təhsil müəssisələrinin rasionallaşdırılması və optimallaşma istiqamətində davamlı tədbirlər həyata keçirilir. Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlər müəyyən edilib.

Hazırda strategiyamız hazırlanıb, "Strategiya"dan irəli gələn Fəaliyyət planımız var, məqsədimiz müəyyənləşib, vəzifələrimiz aydınlaşıb, sistemin tam oturuşması üçün hədəflərimiz dəqiqləşib. Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də budur ki, biz artıq öz təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq.

Bu il Təhsil Nazirliyi yanında İctimai Şuranın yaradılması da düşünürəm ki, təhsil həyatında baş verən ən maraqlı hadisələrdən biri hesab oluna bilər. Onu da deyim ki, bu, Azərbaycanın təhsil sistemində yaradılan ilk İctimai Şuradır. Məqsəd cəmiyyət və Təhsil Nazirliyi arasında körpü rolunun təminatıdır. Təhsillə bağlı vətəndaşların etdiyi müraciətlər, o cümlədən, 11 nəfər üzvün bu məsələ ilə əlaqəli fikirləri İctimai Şurada səsləndiriləcək və yekun qərarın qəbulu Təhsil Nazirliyinin ixtiyarında olacaq. Tam əminliklə deyə bilərəm ki, İctimai Şuranın fəaliyyəti öz müsbət nəticələrini göstərəcək...

### Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə rəqabət daha da artıb

2019-cu ildə Azərbaycan təhsili üçün xeyli yaddaqalan hadisələrin olduğunu təsdiqləyən Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fəlsəfə doktoru *İlqar Orucov* ilk növbədə, yeni məktəb binalarının tikilməsi, təmir edilməsi və bütövlükdə infrastrukturun yenilənməsi və müasirləşdirilməsi istiqamətində ciddi işlər görüldüyünü diqqətə çatdırır: "Eyni zamanda müəllim nüfuzunun artırılması, peşəkarlığın yüksəldilməsi qeyd olunmalıdır. Bunun nəticəsidir ki, 2019-cu ildə müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə rəqabət daha da artıb, xeyli gənc müəllim işə qəbul olunub".

İ.Orucov Azərbaycan Prezidenti İlham Əliyevin "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı ilə cari ilin mart ayının 1-dən təqaüd alanların sayının xeyli artmasını xüsusi qeyd edərək bunu həm də, dövlət sifarişli yerlərin artması istiqamətində də ciddi addım sayır. Deyir ki, beynəlxalq olimpiada və bilik yarışlarında məktəblilərimizin göstəriciləri xeyli yaxşılaşıb və bu da özünü qazanılan medalların sayında göstərir.

Cari tədris ilində 6000-dən artıq şagirdi əhatə edən STEAM-ın (Təbiət elmləri, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrativ tədrisi) tədrisinə başlanılması da tətbiq olunan yeniliklərdən biridir. Bu, həm də ümumi təhsil müəssisələrinin yuxarı siniflərində peşə təmayüllü siniflərin yaranması istiqamətində bir yenilik deməkdir. İcma əsaslı siniflərin yaradılması ilə bağlı görülən işlər də xüsusi olaraq vurğulanmalıdır.

### Təhsil müəssisələrimizdə əlverişli təlim mühiti formalaşıb

Bakıdakı 244 nömrəli tam orta məktəbin direktoru *Yəhya Abbasov* bu il təhsil sistemində aparılan uğurlu işlərin çox olduğunu söyləyir.

-Başa çatmaqda olan 2019-cu il ölkəmizin və xalqımızın həyatında bir sıra əlamətdar hadisələrlə yadda qalacaq. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş balanslaşdırılmış müdrik daxili və xarici siyasət, milli təhsil quruculuğu işləri onun siyasi varisi, müasir təfəkkürlü siyasətçi ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Düşünürəm ki, yola saldığımız il ölkəmizin təhsil tarixində də uğurlu il kimi qalacaq.- Çünki məhz bu ildə təhsil quruculuğu sahəsində Dövlət Strategiyasına uyğun olaraq aparılan islahatlar müvəffəqiyyətlə davam etdirilib, bir sıra uğurlara imza atılıb.

Təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı ölkə başçısı tərəfindən imzalanan çoxsaylı sərəncamları təhsilin inkişafına davamlı dövlət qayğısının daha bir parlaq nümunəsi hesab etmək olar. Əldə edilmiş ən mühüm nailiyyətlərdən biri ümumi təhsil pilləsi üzrə təhsil qanunvericiliyinin əsaslı şəkildə yenilənməsi ilə bağlı olub, təhsil tarixində ilk dəfə olaraq ayrıca "Ümumi təhsil haqqında" Qanun qəbul edilib.

Mən xüsusilə, son illər Təhsil Nazirliyi tərəfindən həyata keçirilən müəllimlərin işə qəbulu müsabiqəsini təhsil sistemində atılan ən müsbət bir addım kimi qiymətləndirirəm. Cari tədris ilində 8 mindən çox müəllim işə qəbul edilib. Məhz ildən-ilə daha da təkmilləşən bu müsabiqədə müəllimliyə namizədlərin böyük həvəs və inamla iştirakının şahidiyik. Bu da müəllim nüfuzunun artmasında, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsində, istedadlı gənclərin müəllim peşəsinə cəlb edilməsi istiqamətində mühüm rol oynayır. Müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edən namizədlərin sayının artması, təbii ki, prosesin şəffaflığından və obyektiv keçirilməsindən soraq verir. 2019-cu ildə 500 və daha artıq bal toplayan məzunlar arasında müəllimlik ixtisasını seçənlərin sayı xeyli artıb. Daha dəqiq desək, ali məktəbə qəbul imtahanlarında 500-dən çox bal toplayanların 25 faizi müəllimliyi seçib. O cümlədən rəhbərlik etdiyim təhsil ocağının məzunları arasında da müəllimlik peşəsinə marağın artdığını və bu ixtisası seçənlərin sayının çoxaldığının şahidiyəm. Məsələn, məktəbin məzunu Rəşidə Həqiqətli 666 balla Azərbaycan Dillər Universitetinin "İngilis dili müəllimliyi" ixtisasına qəbul olub.

Aparılan məqsədyönlü işlərin nəticəsidir ki, təhsil müəssisələrimizdə əlverişli təlim mühiti formalaşıb, təlim göstəricilərinin yaxşılaşdırılmasına ciddi diqqət artırılıb, şagirdlərə keyfiyyətli təhsil imkanları yaradılıb. Bu il təhsilverənlərin də bilik və bacarıqlarının artırılması istiqamətində mühüm işlər həyata keçirilib. Artıq təhsil ocaqlarımız öz fəaliyyətlərində daha innovativ, müəllimlər isə daha yaradıcı olmaları, kreativ fikirləri ilə seçilirlər. Təbii ki, bütün bu imkanları bizlərə Təhsil Nazirliyi yaradır. Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi nazirliyin həyata keçirdiyi uğurlu layihələrindəndir. Artıq 3-cü ildir ki, keçirilən müsabiqənin əsas məqsədi də məhz təhsil müəssisələrində, təhsilverənlərdə sağlam rəqabəti və innovativ fəaliyyəti stimullaşdırmaqdır. Bir təhsil işçisi olaraq mən bu müsabiqənin məhz yaradıcı müəllimlərin tanıdılmasında, eyni zamanda müasir dövrün tələblərinə uyğun öz işini quran təhsil müəssisələrinin maraqlı layihələr işləyib təqdim etməsində xüsusi əhəmiyyəti olduğunu vurğulamaq istərdim.

### Respublika olimpiadalarında iştirak edənlərin sayı artmaqda, beynəlxalq olimpiadalarda şagirdlərimizin uğurları ildən-ilə yaxşılaşmaqdadır

31 illik pedaqoji staja malik *Lalə Abdullayeva* Bakıdakı 220 nömrəli məktəb-liseyin riyaziyyat müəllimidir. Özü də Əməkdar müəllimdir. Deyir ki, təhsil işçisi kimi ölkənin təhsil həyatında baş verənləri çox diqqətlə izləyir. Təhsil Nazirliyi tərəfindən təhsilin keyfiyyətinin yüksəldilməsi, müəllimlərin bilik, bacarıq və peşəkarlıq səviyyələrinin artırılması istiqamətində reallaşdırılan tədbirlər ürəyincədir. Bu gün hər bir müəllimə özünü tanıtmaq, bilik səviyyəsini göstərmək üçün əlverişli şərait və imkanlar yaradılıb. Sözlərinə onu da əlavə edir ki, istedadlı uşaqlarla iş sahəsində görülmüş işlər nəticəsində həm respublika olimpiadalarında iştirak edənlərin sayı artmaqda, həm də beynəlxalq olimpiadalarda şagirdlərimizin uğurları ildən-ilə yaxşılaşmaqdadır. Bu yarışların qaliblərinin ali məktəblərə müsabiqədənkənar qəbul hüququ əldə etməsi olimpiada hərəkatının daha da genişlənməsinə səbəb olacağına əmin olduğunu söyləyir. Təhsil Nazirliyinin həyata keçirdiyi xüsusi siniflər layihəsinin paytaxt Bakı ilə yanaşı, bir sıra bölgələri də əhatə etməsi orada təhsil alan şagirdlərin də istedadlarının müəyyənləşdirilməsində, onların akademik potensialının inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli rol oynadığını bildirir.

Lalə müəllim bu ilin yeniliklərindən birinin də dərslik hazırlığı sahəsində olduğunu deyərək Təhsil İnstitutu nəzdində Tədris Resursları Mərkəzinin yaradıldığını və yeni məzmun konsepsiyası əsasında ümumtəhsil məktəbləri üçün ehtiyat dərsliklərin hazırlanmasına başlanmasını da müsbət hal kimi qiymətləndirib.

Təcrübəli müəllim xüsusilə bu ilin onun üçün ən yaddaqalan olduğunu, məhz başa çatmaqda olan 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görüldüyünü bildirib. Artıq üzərinə daha böyük məsuliyyət düşdüyünü söyləyən Lalə Abdullayeva dövlət başçısı İlham Əliyevin hər zaman təhsil işçilərinə diqqət və qayğı göstərdiyini xüsusi qeyd edib.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Pedaqoji Universiteti

Xüsusi pedaqogika (Defektologiya) üzrə
təlim proqramına sənəd qəbulu

## ELAN EDİR:

Təlim proqramının təşkilində məqsəd xüsusi təhsil sahəsində peşəkar xidmət göstərə biləcək mütəxəssislər hazırlamaqdır.

**"Xüsusi pedaqogika" proqramı aşağıdakı tədris modullarından ibarətdir:**

- *Oliqofrenopedaqogika* - intellektual pozulması olan (Əqli gerilik və Psixi inkişaf ləngiməsi) uşaqların təlim-tərbiyəsi ilə məşğul olan elm sahəsi.
- *Surdopedaqogika* - eşitmə pozulmaları (kar və zəif eşidən) olan uşaqların təlim-tərbiyəsi ilə məşğul olan elm sahəsi.
- *Tiflopedaqogika* - görmə pozulmaları (kor və zəif görən) olan uşaqların təlim-tərbiyəsi ilə məşğul olan elm sahəsi.
- *Loqopediya* - nitq pozulmaları olan uşaqların korreksiya işinin təşkili ilə məşğul olan elm sahəsi.

Təlimlər 27 yanvar 2020-ci il tarixdən 10 iş günü müddətinə ödənişli əsaslarla təşkil olunur. Təlimləri müvəffəqiyyətlə bitirən dinləyicilərə sertifikat verilir.

**Təlimlərdə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *Şəxsiyyət vəsiqəsinin surəti;*
- *Ali təhsil haqqında sənədin (diplomun) surəti;*
- *İş yerindən arayış (işləyənlər üçün);*
- *3sm x 4sm ölçüdə 2 ədəd fotoşəkil.*

Sənədlər 24 yanvar 2020-ci il tarixədək (şənbə və bazar günlərindən başqa) saat 10:00-dan 17:00-dək qəbul edilir.

**Ünvan:** Bakı şəhəri,
Akademik Həsən Əliyev küçəsi, 104,
ADPU-nun II tədris binası "Davamlı təhsil və innovasiyalar" şöbəsi (otaq 710)
**Telefon:** (+99412) 465-29-76
**E-mail:** davamli_tehsil@mail.ru

**REKTORLUQ**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

# Azərbaycan Dövlət Dəniz Akademiyası

vakant olan vəzifənin tutulması üçün müsabiqə

## ELAN EDİR:

**"İngilis dili" kafedrası:**
*kafedra müdiri - 1 yer, kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığı, elmi ad və dərəcə, ən azı 5 il elmi-pedaqoji təcrübə*

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir. Sənədlərin təqdim olunması elan dərc edildiyi tarixdən 30 gün müddətindədir.

**Ünvan:** Bakı şəhəri, Akademik Zərifə Əliyeva küçəsi, 18.
**Əlaqə telefonu:** (012) 498-56-32 (daxili 3240)

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Gəncə Dövlət Universiteti

aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedralar üzrə boş olan vəzifələr:**

| | |
|---|---|
| 1. Menecment və turizm işi | - kafedra müdiri; professor - 1 yer. |
| 2. Anatomiya, fiziologiya və zoologiya | - professor - 1 yer; |
| | - baş müəllim - 1 yer. |
| 3.Təsviri incəsənət | - professor - 1 yer. |
| 4. Azərbaycan tarixi | - dosent - 1 yer; |
| | - baş müəllim - 1 yer; |
| | - müəllim - 1 yer. |
| 5.Təhsilin pedaqogikası və metodikası | - dosent - 1 yer; |
| | - baş müəllim - 1 yer; |
| | - baş müəllim - 1yer, 0,5ştat; |
| | - müəllim - 1 yer. |
| 6.Botanika | - dosent - 1 yer. |
| 7.Fransız dili | - dosent - 1 yer; |
| | - baş müəllim - 1 yer. |
| 8.Rus dili | - baş müəllim - 2 yer; |
| | - müəllim - 1 yer. |
| 9. Praktik xarici dillər | - baş müəllim - 1 yer; |
| | - müəllim - 1 yer. |
| 10. Sosial fənlər | - müəllim - 1 yer. |
| 11.Ümumi tarix | - baş müəllim - 2 yer. |
| 12.İnformatika | - baş müəllim - 1 yer; |
| | - müəllim - 1 yer. |
| 13.Fiziki tərbiyə, çağırışaqədərki hazırlıq və mülki müdafiə | - baş müəllim - 1 yer. |
| 14. Bədən tərbiyəsi və idman | - baş müəllim - 1 yer. |
| 15. Leksika və ölkəşünaslıq | - baş müəllim - 1 yer. |
| 16. Qrammatika və ingilis dilinin tədrisi | - baş müəllim - 2 yer. |
| 17. ÜTF və texnologiya | - baş müəllim - 1 yer. |
| 18. Ekologiya və təbiəti mühafizə | - dosent - 1 yer. |

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.11.2017-ci il tarixli 5/5 nömrəli əmri ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması» və 401 saylı 07.08.1996-cı il tarixli əmri ilə təsdiq edilmiş «Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında» Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

**Ünvan:** AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 459.
Gəncə Dövlət Universiteti, əsas bina (I)
**Telefon:** (022) 266-70-33; (022) 266-01-89

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Lənkəran Dövlət Universiteti

vakant yerlər üzrə aşağıdakı qeyd olunan
vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**"Riyaziyyat və informatika" kafedrası üzrə:**

| | | |
|---|---|---|
| Dosent | - 1 ştat | - 2 yer |
| Baş müəllim | - 0,5 ştat | - 1 yer |

**"Kimya və fizika" kafedrası üzrə:**

| | | |
|---|---|---|
| Dosent | - 1 ştat | - 1 yer |
| Dosent | - 0,5 ştat | - 1 yer |

**"Coğrafiya və ekologiya" kafedrası üzrə:**

| | | |
|---|---|---|
| Baş müəllim | - 1 ştat | - 1 yer |

**"Tarix və onun tədrisi metodikası" kafedrası üzrə:**

| | | |
|---|---|---|
| Dosent | - 0,5 ştat | - 1 yer |
| Baş müəllim | - 1 ştat | - 2 yer |

**"Humanitar fənlər" kafedrası üzrə:**

| | | |
|---|---|---|
| Dosent | - 0,5 ştat | - 1 yer |

**"Xarici dillər" kafedrası üzrə:**

| | | |
|---|---|---|
| Baş müəllim | - 1 ştat | - 1 yer |

**"İbtidai təhsil və məktəbəqədər təlim" kafedrası üzrə:**

| | | |
|---|---|---|
| Dosent | - 1 ştat | - 1 yer |

**"İqtisadiyyat və innovativ idarəetmə" kafedrası üzrə:**

| | | |
|---|---|---|
| Professor | - 0,5 ştat | - 1 yer |
| Dosent | - 1 ştat | - 1 yer |
| Baş müəllim | - 0,5 ştat | - 1 yer |

Ərizələrin qəbulu bu elan dərc edildikdən sonra 1 ay müddətindədir. Əsasnaməyə uyğun olaraq sənədlər (kadrların şəxsi qeydiyyat vərəqəsi, tərcümeyi-hal, ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surəti, dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq edilmiş siyahısı) rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərilməli və ya şəxsən təqdim edilməlidir.

**Ünvan:** Lənkəran şəhəri,
H.Aslanov xiyabanı, 50.
**www.lsu.edu.az, E-mail:** office@lsu.edu.az
**Telefon:** (02525) 5-25-88 (daxili - 105).

**REKTORLUQ**

# Rusiyada "ağıllı" küçə lampası hazırlanıb



**Samirə KƏRİMOVA**

Uralda müəssisələrdən biri "ağıllı" küçə lampası, eləcə də onun idarə edilməsi üçün cihaz hazırlayıb. Lampanın işinin tənzimlənməsi dispetçer və ya smartfondakı tətbiqetmə vasitəsilə həyata keçirilir.

"İntellektual işıq cihazı"nın gələcəkdə şəhərin əsasını təşkil edən hissələrindən biri olacağı gözlənilir. Cihaz işıqlandırmanı və hərəkəti izləyən qurğularla təchiz olunub. Tənzimləyicilər yeni küçə lampasında parlaqlığın əlverişli rejimini qurublar.

**www.planet-today.ru** saytının məlumatına görə, "ağıllı" lampa bütün informasiyanı "ağıllı" sistemə ötürür, burada məlumatlar təhlil edilir və prosesə nəzarət edən bələdiyyə xidmətlərinə hesabat verilir.

Mütəxəssislərin fikrincə, cihazdan istifadə edərək böyük şəhərlərdə havada yayılan zərərli maddələrin tərkibini müəyyənləşdirmək də mümkün olacaq. Həmçinin səsötürücü kimi də istifadə edilə bilən qurğu kamera ilə də təchiz olunub.

Qeyd edək ki, rusiyalı mütəxəssislər bir neçə il əvvəl müəssisələrdə və bütövlükdə şəhərdə enerji istehlakını azaltmaq üçün LED fənəri və onun idarəetmə sistemini inkişaf etdirməyə başlayıblar.

# 800 milyon iş yeri azalacaq



"Bank of America Merrill Lynch" analitikləri iddia edirlər ki, iş yerlərinin azalması prosesi getdikcə sürətlənəcək. Əsas siyasi stimullardan biri Çin və ABŞ arasındakı ticarət müharibəsidir.

Şirkət avtomatlaşdırmanın yaradacağı təhlükələrlə bağlı yeni təhlil hazırlayıb. Əldə olunmuş nəticələr ciddi narahatlığa əsas verir. Belə ki, 15 il ərzində robot və alqoritmlər sayəsində təxminən 800 milyon iş yeri azalacaq.

**www.nanonewsnet.ru** saytının məlumatında bildirilir ki, ən böyük iş ixtisarı ofislərdə və xidmət sektorunda gözlənilir. Lakin digər sahələrdə də vəziyyət ürəkaçan deyil, çünki robotlar daha çox tapşırıqlar yerinə yetirməyi öyrənirlər.

İş yerlərinin azalması tempi ilk növbədə, avtomatlaşdırma xərclərinin azalması hesabına yüksəlir. 2005-ci ildən 2014-cü ilədək qiymətlər 27 faiz azalıb, 2025-ci ilədək daha 22 faiz azalacaq.

Çin avtomatlaşdırma sahəsində lider ola bilər. Analitiklərin fikrincə, 2020-ci ildə Amerika ilə bu ölkənin ticarət müharibəsi texniki silahlanmaya çevriləcək. Çin kvant hesablamaları, süni intellekt, mobil rabitə, robot texnikası və kibertəhlükəsizlik kimi sahələrdə lider olmağa çalışacaq. Bunun iş yerlərinin avtomatlaşdırılmasına təsiri qaçılmaz olacaq.

# Vətəndir



**Əlisa MƏMMƏDOV,**
*təqaüdçü müəllim*

Candan əziz bildiyim, ev-eşiyim bəzəyim,
Damarda axan qanım, mənim böyük ürəyim.
Göz bəbəyim, amalım, şirin arzu, diləyim,
Hər sözüm, hər söhbətim, canım Ana Vətəndir!

Odur şanım-şöhrətim, yenilməz bir qüdrətim,
Namus, arım, vicdanım, şərəfim, ləyaqətim.
Təəssübün çəkdiyim, anam-bacım, qeyrətim,
Qürurum, dəyanətim, şənim Ana Vətəndir!

Havasını udaraq, azad nəfəs aldığım,
Sinəsinin üstündə isti yuva saldığım.
Çörəyini, duzunu yeyib, nəfəs aldığım
Vüqarım, həm qamətim, şənim Ana Vətəndir!

Doğulanda beşiyim, öləndəsə məzarım,
Ulu babadan qalan, qəhrəmanlıq dastanım.

Hər otu, hər çiçəyi xəstəliyə dərmanım,
Şəfa yerim, səhhətim, şanım Ana Vətəndir!

Mavi göllər, düzənlər, meşələr, uca dağlar,
Yaşıl donlu, bəzəkli, dadlı meyvəli bağlar.
Neməti, sərvəti bol, bərəkətli torpaqlar
Şirin dadım, ləzzətim, şanım Ana Vətəndir!

Ləldir, cəvahirdir torpağımın hər donu,
Dəyişmərəm dünyanın bütün varına onu.
Yoxdur Ana Vətənə məhəbbətimin sonu
Mənim varım-dövlətim, anım Ana Vətəndir!

Kim sevmirsə Vətəni, yoxdur namus-qeyrəti,
İnsan deyil, yox onun qüruru, şəxsiyyəti.
Şərəfsizlər edərlər Vətənə xəyanəti
Adım-sanım, şöhrətim, canım Ana Vətəndir!

# Tarix unutmayacaq

Bakının sinəsinə ölüm saçan mərmilər,
Qanlı yanvar gecəsi tuşlandı neçə yerdən.
Vahiməyə büründü, qorxdu açılan səhər,
Su yerinə qan axdı o gecə küçələrdən.

Silahsız əhalini əhatəyə aldılar,
Məhv edib igidləri tank altına saldılar,
Qırdılar o qatillər amansızca milləti,
Şəhəri bürümüşdü bu soyqırım dəhşəti.

Kimi öz mənzilində öz qanına bələndi,
Neçə günahsız körpə asfalt üstə sərildi,
Nalə çəkib analar, əl atıb saçın yoldu,
Qız-gəlinin hiddətdən gözləri qanla doldu.

Uçuşduqca güllələr Xəzərin küləyində,
Ürəklərdə kin, qəzəb əli yalın insanlar
Küçələrə axışdı vətən dardadır deyə,
Onları qorxutmadı nə tank, nə şaxta, nə qar.

Qəzəblənmiş insanlar toplaşıb dəstə-dəstə
Qorxmadan yeriyirdi tankın, mərminin üstə.
Düşmənə hücum çəkir ölümdən dikilən xalq,
Əllərdə dalğalanır yenə üçrəngli bayraq.

Tarix unutmayacaq bu nahaq axan qanı,
Zaman-zaman duracaq şəhidlər xiyabanı,
Xalq azadlıq naminə qan vermir heç vaxt hədər,
Millətin qarşısında diz çökəcək düşmənlər!

# Azərbaycanım!



**Teymur ƏHMƏDOV,**
*Ağsu rayonu Xanbulaq kənd tam orta məktəbinin fiziki tərbiyə müəllimi*

Mən sənin qoynunda məskən salmışam,
Sən mənim qəlbimdə, Azərbaycanım!
Hər zaman uğrunda şəhid olmuşam,
Ölərkən dilimdə-Azərbaycanım!

Bir gün Qarabağda çalarıq zəfər,
Üçrəngli bayrağın Şuşanı bəzər.
Özüm verəcəyəm sənə şad xəbər,
Bayrağım əlimdə, Azərbaycanım!

Adın gələn yerdə fərəhlənirəm,
Baxıb qüdrətinə qüdrətlənirəm.
Sənli kamalımla mən yüksəlirəm,
Tək sənsən əqlimdə, Azərbaycanım!

Bir gün kəsilərəm sudan,çörəkdən,
Amma ki, doymaram Ana Vətəndən.
Ruhumla bağlıyam, Teymuru səndən,
Ayırmaz ölüm də, Azərbaycanım!

# Qarabağdan nigaranam

Vətənsizəm yenə bu yaz,
Həsrət məni yeyir az-az,
Ruhum orda edib pərvaz,
Ey qardaşım, atam, anam,
Qarabağdan nigaranam!!!

Nə gecəm var, nə gündüzüm,
Ağlayıram için-için,
Kosaları görmək üçün,
Bir quş olam, qanadlanam,
Qarabağdan nigaranam!!!

Görməmişəm mən vətəni,
Neynim yurdsuz xatirəni?!
Bəlkə unudubdu məni,
Gözəl Ağdam, Gözəl Şuşam?.
Qarabağdan nigaranam!!!

Deyil beş il, deyil on il,
Nələr çəkər ah... bu könül?..
Cıdır düzü... xarı bülbül...
Görən neynir nazlı sonam?!
Qarabağdan nigaranam!!!

Ayaq açıb dərd yeridi,
Həsrətdən cismim əridi,
Bəlkə ruhum dincələrdi,
O yurd üçün şəhid olam!
Qarabağdan nigaranam!!!

Mən Teymuram Qarabağlı,
Sinəm çalın-çarpaz dağlı,
Ayağa qalx, Vətən oğlu!
Ya qurtulam, ya da yanam!
Qarabağdan nigaranam!!!

# Məktəbimiz



**Rəsul RƏXŞANLI,**
*kimya üzrə fəlsəfə doktoru*

Bu memar incisi öz məktəbimiz,
Həvəslə gəlirik hər gün bura biz.
Sinif otaqları geniş, işıqlı,
Kabinetlər zəngin, çox yaraşıqlı.
Böyük pəncərələr, dümağ tavanlar...
Divarlarda alim şəkilləri var.
Burada verilir hər cürə bilik,
Onları dərindən öyrənən bizik.
Kimyada həmçinin təcrübə olur,
Uşaqlar təcrübi bilik də alır.
Hamı cuşa gəlir nəğmə dərsində,
Zil səs birisində, bəm birisində.
Əmək dərslərində məşğuluq işlə,
Oğlanlar qurmaqla, qızlar tikişlə.
Görünür hünəri idman zalında
Bizim oğlanların, həm qızların da.
Müəllimlər dərsdə ciddi, tələbkar,
Qəlblərində, amma, məhəbbət də var.
Dərsə hazır gəlir şagirdlərimiz,
Sevirik bu bilik ocağını biz.
Bizə doğma, əziz bu məktəbimiz,
Bağlıyıq buraya çox, hər birimiz.

# Kitab

Darıxanda qız, oğlan
Olar səndən soraqlı.
Nə qədər düşünsə də
Tapmaz səndən maraqlı.

Öyrənmək həvəsində
Olmayan kimsə varmı?
Bələlərindən səni
Aramayan olarmı?

Çətinliyə düşəndə
Səni axtarır hamı.
Düşünürəm, görəsən
Səndən ağıllı varmı?

Hər zaman da görürəm,
Düşməyirsən əllərdən.
Nədən ki, sevimlisən?
Çox güman anladım mən.

# Uzaq ol



**Qənirə MEHDİXANLI,**
*təqaüdçü müəllim*

Göydəki şahinə yerdən əl çatmaz,
Xainlər, paxıllar ucalmaz, artmaz,
Fağır-füqarəyə heç vaxt əl tutmaz,
Yoldaşın olsa da ondan uzaq ol.

Dostun ayağının altını eşər,
Arxanı çevirsən, küreyin deşər,
Səni xoşbəxt görsə, o xəstə düşər,
Sirdaşın olsa da ondan uzaq ol.

Peysəri qızarar, üzü qızarar,
Görsə ucalırsan gözü bozarar,
Xəyanət eyləyər, arxadan vurar,
Beş başın olsa da ondan uzaq ol.

Mehdixanlı, dostu düşmənindən seç,
Sadiq insanların körpüsündən keç,
İçdiyin suyu da üflə, sonra iç,
Pisi yaxşıdan seç, ondan uzaq ol.

# Nəyə gərək

Yalan dünya nəyə gərək,
Dünya içimdə yaşayır.
Yumruq boyda kiçik ürək,
Dünya boyda yük daşıyır.

Allah sözü dilimdədir,
"İncil", "Quran" əlimdədir,
Eşqin yükü belimdədir,
Kotana qoş, çək, daşıyır.

Gözlərimdə yaz yağışı,
Kirpiyimdə qarlı qışı,
Sinəm üstə Kəbə daşı,
Mehdixanlı tək daşıyır.

# Qayıt

Ayrılıq hökmünü yaman tez verdi,
Dənizdən geri dön, adaya qayıt.
Sənsiz dünya mənə dar bir qəbirdi;
Öz doğma evinə, obaya qayıt.

Təzəcə açılıb körpənin dili,
Arxanca uzanır yollara əli,
-Ata, -ata, -deyir, pozulur halı,
İsti ocağına, sobaya qayıt.

Vətənsiz bir insan şad ola bilməz,
Bal yesə, ağzında dad ola bilməz,
Qaynayıb-qarışıb yurd sala bilməz,
Qayıt, öz evinə, obaya qayıt.

Mehdixanlı, yalvar, gəl Tanrıya dön,
Allahına baş əy, səcdəyə də en,
Bir gün görəcəksən gəlib, çatıb son,
Ataya, anaya, babaya qayıt.

# Gətirin məni

Orda ilk eşqimin atəşi qalıb,
Orda sevgilimin göz yaşı qalıb,
Orda bir görüşün yaddaşı qalıb,
Bir də o yerlərə gətirin məni.

Orda bir aşiqi sevdim, inandım,
Orda bir baxışın oduna yandım,
Orda tez alışdım, tez alovlandım,
Keçmiş xəyallarda itirin məni.

Orda ayağımın ilk izi qalıb,
Sevirəm kəlməsi, ilk sözü qalıb,
Bəlkə xəyal deyil, o üzü qalıb,
Mehdixanlı, o yerə ötürün məni.

# Yazdan xəbər verir

Ağacların çiçəkləri,
Çiçəklərin ləçəkləri,
Həzin əsən küləkləri,
Bizə yazdan xəbər verir.

Narın-narın tökür yağış,
Gölməçələr qırış-qırış,
Göyərmiş ot bircə qarış,
Təzə yazdan xəbər verir.

Durnaların xoş avazı,
Salamlayır gələn yazı,
Qarşılayıb oğlan qızı,
Qıza yazdan xəbər verir.

Qızılgüllər puçur-puçur,
Nərgiz erkən ətir saçır,
Kəpənəklər qanad açır,
Düzə yazdan xəbər verir.

Mehdixanlı çıxır düzə,
Çəmənlikdə gəzə-gəzə,
Qanad verib söhbət-sözə
Sözə yazdan xəbər verir.

# Bu dünya



**Ofelya BABAYEVA,**
*"Şöhrət" ordenli, Əməkdar müəllim*

Yaşa bu dünyada bir az narahat,
Bir azca qüssəli, bir az pərişan.
Adımı dilinə gətirmə heç vaxt,
Qəlbində, könlündə yaşat hər zaman.

Səni kim itirə... məni kim tapa,
Taleyə bağlarıq ümidimizi.
Əriyər güneydə qar topa-topa,
Qüzeylər hifz edər izlərimizi.

Bu tale oyunu gizlənpaç deyil,
Qəm yemə, sən varsan,
mən varam, demək.
Bu dünya çiçəkmiş - lalə, qərənfil,
Bir azca tufanmış, bir azca külək.

# Dəniz yaxın olanda

Sularla bölüşüb insan qəmini,
Xatırlar... o uzaq görüş dəmini.
Gəzər sahillərdə öz həmdəmini
Dəniz yaxın olanda.

Uzadar ləpələr dodaqlarını,
Öpər bir gözəlin ayaqlarını.
Sevincə bürünər ömrün hər anı
Dəniz yaxın olanda.

Hər dalğa bir misra şeir deyilmi?
Sular kövrək təbli şair deyilmi?
Gözəllər məskəni sahil deyilmi
Dəniz yaxın olanda?

Cavanlar burada küsər, barışar,
Həsrətli könüllər yenə qovuşar.
Sükut öz dilində nəsə danışar
Dəniz yaxın olanda.

Yaşar xatirəmdə bir mavi səhər,
Dəyişər fəsillər, dəyişər illər.
Ürək nə qəm bilər, nə qüssə, kədər
Dəniz yaxın olanda.

# Dövran yaman dövrandır...

Min ildir yol gəlirəm,
Mənzilə çatmamışam.
Nə bir dost, nə bir həmdəm
Arayıb, tapmamışam.

Cismim dərdə aşiyan,
Ruhum göylərə uçdu.
Mənzilim göy, kəhkəşan,
Yolum eniş-yoxuşdu...

Mən dağlar övladıyam,
Anam dağ, atam zirvə.
Heç nə əbədi deyil,
Ömür yol gedir hələ...

Sanma dağ-daş əbədi,
Hər şey ürəkaçandı.
Sənə doğru, ilahi,
Yol gəlirəm haçandı...

Könül qırıq, ruh xəstə,
Sanki axır-zamandır.
Vaxt ötür asta-asta,
Dövran yaman dövrandır...

# Nur yağsın

**(Həmyerlim şəhid Elçin Şəfiyevin ölməz ruhuna)**



**Eyvaz GÜLƏLİYEV,**
*Qusar rayonu Cibir kənd orta məktəbinin riyaziyyat müəllimi*

Səs düşürdü Cibir kəndə
Dönəndə Elçin,
Gülərüzlü o qəhrəman
Örnək bu elçin.

İstiqanlı, xoş qılıqlı,
Həm də mehriban;
Dağ boydadır qartal kimi
Çevik o insan...

Qopdu zülmət bir gecədə
Kənddə hay-haray:
Ürək susdu, yer yarıldı,
Göy uçdu lay-lay.

Dondum yayın istisində,
Artdı üşütməm,
Belə ağrı, üzüntüdən
Çalxandı Vətən.

Gətiriblər Cibir kəndə
Məğrur Elçini,
Yıxdı namərd güllələri
Cəsur Elçini.

Xain yağı aldı onun
Qəlbini nişan,
Qaya boyda pəhləvana
Qıyarmış insan?..

Sındı beli atanın da
Dağ boyda dərdə,
Anasını göz yaşları
Boğur qəhərdə.

- Qismətinə belə acı
Ulaşdı, Elçin!
Şəhid kimi adın ərzi
Dolaşdı, Elçin!

Qanın axan o torpağa
Qurban bu canım,
Yoxsan deyə qürbət oldu
Kənddə dörd yanım.

Hər düşməni yuvasında
Öz kini boğsun,
Şəhidimin məzarına
Göydən nur doğsun!..

# Aşiqəm

Ürəkləri söz-söhbətlə dopdolu,
Danışmağı bacarana aşiqəm.
Yerişini, duruşunu qoruyub,
Həştad, yüzü aşırana aşiqəm.

Göy tağında boyunbağı yeddidir,
Göy qatına od dağımdan köz ötür,
Dünya böyük, sularında iz itir,
Gözü mənsiz yaşarana aşiqəm.

Dərbənddəydim... bir gimgədə
dayandım,
Ana dilin işığına boyandım,
Neçə dildə - bir Mehmanı bəyəndim, -
Təbi coşub-daşırana aşiqəm.

Yaman daldım gözəlliyin dadına,
Uzaq gedər minən eşqin atına.
Qucaq açıb, məni salan yadına
Öz elimlə güzərana aşiqəm.

**Səhifəni hazırladı:** *Samirə KƏRİMOVA*



# Kütləvi yenidən ixtisaslaşma

## Hazırkı uşaqların 65% bizə məlum olmayan peşələrin sahibi olacaq

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Ortaya şübhə düşüb: robotlar bu işdə səmimi və dəqiq davranırlarmı? Çünki onların verdikləri qərar insanın sistemə daxil etdiyi kriteriyalar əsasındadır. Bu kriteriya və ölçülər minlərlədir. Robot həmin göstəricilərə uyğun olaraq kredit müraciətini cavablandırır. Halbuki onun yerinə insan olsaydı, hissiyyatla bağlı bəzi məqamları son nəticədə nəzərə alardı. Məsələn, kreditə müraciət edən şəxsin hər hansı problemi və ya üstünlüyünü.

Belə bir reallıq onunla nəticələnir ki, bir çox hallarda alqoritmlərin qəbul etdiyi qərarlar qeyri-optimal, qeyri-effektiv və bəzən də qərəzli xarakter daşıyır. Bu baxımdan bəziləri düşünür ki, əgər biz süni intellektdən yararlanmaq niyyətindəyiksə, yaxşısı budur onları şirkətlərdə, ya da təşkilatlarda qərar qəbul edən insanların köməkçiləri, yaxud məsləhətçiləri - müşavirləri qismində istifadə edək. Başqa sözlə, hələlik insanlar robotlarla yola getmirlər...

İşgüzar dairələrdə bu vəziyyətdən tezliklə nəticə çıxarmağa başlayıblar. Bir sıra şirkətlər, məsələn, "Trust Science" bazara elə alqoritmlər çıxarıb ki, onların köməyi ilə ayrı-ayrı şəxslərin və ya təşkilatların etibarlılıq və davamlılıq profilini müəyyən etmək olur. Bu yenilik təbii olaraq belə bir məzmunlu sualın meydana çıxmasına səbəb olub: Həqiqətənmi süni intellektin "sosial" bacarığı var? Bu, çox vacib məqamdır, çünki etimad və etibar sosial hissiyyat tələb edir ki, bu keyfiyyət istisnasız olaraq məhz insana xas xüsusiyyətdir. İnsan emosiyalarını qavramaq, onun istəklərini başa düşmək şəxsiyyətin etibarlılığını müəyyən etmək üçün çox vacibdir və bu, insana xas unikal bacarıqdır. Hesab olunur ki, bu keyfiyyəti süni şəkildə yaratmaq çox çətindir, bəzilərinə görə isə mümkünsüzdür.

Beləliklə, süni intellektin tətbiqi şirkətlər və təşkilatlar. Liderlər və rəhbərlər üçün əsl çağırışa və sınağa çevrilir. İş yerlərinin rəqəmsallaşması dövrün tələbi olsa da, bəzi hallarda əksinə - başağrısına çevrilir. Məhz bu reallıq da ortaya belə suallar çıxarır: işgüzar prosesləri necə dəyişməli? İnsanlara necə izah etməli ki, süni intellekt onları işlərindən etməyəcək? Yaxud edəcəksə, əvəzinə yeni iş yerləri tapacaqlar? İnsanlarla onların rəqəmsal həmkarları arasında münasibətləri necə qurmalı və tənzimləməli? Bu sualların cavablandırılması və həyatda tətbiqi tək komandanın intellektual işinin nəticəsi ola bilməz. Rəhbərin sözünün çəkisi də əhəmiyyətli rol oynamalıdır. Beləliklə, təşkilat rəhbəri, yaxud şirkət sahibi bu problemin öhdəsindən gəlmək üçün nələr edə bilər?

### Ağrılı nöqtələr

Arxada qalan təcrübə göstərir ki, süni intellektin tətbiqi heç bir halda "texnologiyalar naminə" olmamalıdır. Yaxud da təhcizatçı təklif edib deyə qəbul edilməməlidir. Süni intellektin tətbiqi o vaxt rentabelli olacaq ki, bu, uzunmüddətli perspektivdə hansısa istiqamət üzrə üstünlük vəd edəcək və bu mümkünlüyü ilk növbədə rəhbər görməlidir. Bu prosesin "ağrılı yeri" tələbatın proqnozlaşdırılmasıdır. Məsələn, sağlam qida üzrə ixtisaslaşmış bir dünya lideri şirkət süni intellektin tətbiqi ilə proqnozlarını 20% dəqiqləşdirməyə nail olub. Nəticədə satılmayan məhsulun sayı təqribən 30% azalıb.

### İnnovasiyalar mərkəzi

Şirkətin, yaxud təşkilatın transformasiyasının vacib hissəsi eksperiment mədəniyyətinin yaradılmasıdır. Texniki inkişaf davamlı prosesdir. Buna görə də rəhbər uğursuz eksperimentlərə münasibətini dəyişməlidir. Uğursuzluq son deyil, dəyərli məlumatdır. Onun ehtimalını azaltmaq üçün daxildə müasir texnologiyaların tətbiqini əsas götürən proseslərə start vermək olar. Bir çox iri şirkətlər daxildə bir-birindən asılı olmayan müxtəlif startapların işə başlamasına şərait yaradırlar. Nəticədə onlardan hansınınsa əldə etdiyi perspektivli nəticəni daha geniş miqyasda - bütün şirkətə və ya təşkilata münasibətdə tətbiq etmək olar.

### Kadrların yenidən ixtisaslaşması

Süni intellektin tətbiqi tez-tez personal arasında narazılığa səbəb olur. Ona görə də vəziyyəti öz üzərinə rəhbər götürməlidir. Kim nə deyir desin, ancaq süni intellekt dövründə insanın dəyəri azalmır ki, artır. Vəziyyətə adaptasiya oluna bilən əməkdaş qızıl qiymətinədir. Əgər komandada rəhbərliyin iş yerlərini ixtisar etməməsi, yaxud yeni iş yerlərinin açılması ilə bağlı qətiyyətinə inam varsa, təşkilati müqavimətin gücü də azalır. Bir çox şirkətlər belə edirlər: süni intellektin tətbiqi ilə qənaət edilən pulu əməkdaşların yenidən ixtisaslaşmasına yönəldirlər. Nəticədə insanlar da razı qalır, robotlar da işləyir. Bəzi hesablamalara görə, hazırkı uşaqların 65% bizə məlum olmayan peşələrin sahibi olacaq və onlar həyatları boyu məşğulluqlarını orta hesabla 25 dəfə dəyişəcəklər.

### Hibrid korporativ mədəniyyət

İnsanların hələ də süni intellektin əməyinə şübhə ilə yanaşmalarının mühüm səbəbi var - onların tətbiq olunduqları yerdə əməyin sərt bölgüsü baş verib: bu iş insan üçündür, bu iş isə robot üçün. Ancaq ekspertlərə görə, bu bölgünün sərhədləri arasında tərəflərin əməkdaşlıq edə biləcəkləri sahə var. İnsanlar süni intellektə yeni nəyisə öyrədir və onların davamlılığını təmin edir, robotlar isə bizə yüksək qabiliyyətlər verir. Bu fenomenə "çatışmayan orta" deyilir. Hesab olunur ki, məhz bu sahə ilə bağlı peşələr də gələcəkdə insanlar üçün əsas "çörək pulu" mənbəyi olacaq.

### Mənəvi deformasiya

Süni intellekt məsələləri həll edir və qərarlar üçün yollar göstərir. Məsuliyyət isə yenə də insanın üzərində qalır. Buna deyirlər "deformasiya zonası". Ancaq bir də var "mənəvi deformasiya zonası". Sadə izahda baxaq: məsələn, qəzaya düşmüş avtomobil servisdə təmir olunur və nəticələr süni intellektə ötürülür. O isə servisin səviyyəsindən razı qalmır. Bax, bu halda işə servisin sahibi cəlb olunur. Buna deyirlər "mənəvi deformasiya zonası". Rəhbər çalışmalıdır ki, bu zona iş zamanı aktuallaşmasın.

Göründüyü kimi, süni intellektin tətbiqi insan fəaliyyətinin sonu deyil. Sadəcə olaraq adaptasiya və yenidən ixtisaslaşma problemidir. Guya tarix boyu belə hallar olmayıb? Tarixi formasiyaların keçidlərində olub, ancaq primitiv formada. Unutmayaq ki, həmin keçidlərdə insan intellekti də indiki qədər inkişaf yolu keçməmişdi. Odur ki, hər şey öz əlimizdədir.

## Peşə təmayüllü siniflərin şagirdləri Lənkəranda təcrübə səfərində

Peşə təmayüllü siniflərin şagirdləri üçün Lənkərana təcrübə səfəri təşkil edilib. Təcrübə səfərində Masallı, Cəlilabad, Şirvan, Sabirabad, Salyan və Biləsuvar üzrə ümumilikdə 6 məktəbdən 74 şagird iştirak edib.

Səfərin təşkilində məqsəd şagirdləri potensial iş yerləri ilə tanış etmək, onlara iş prosesini tanıtmaq və ixtisaslarla bağlı real iş mühitini göstərməkdir.

Təcrübə Lənkəran Springs Wellness Resort oteldə həyata keçirilib. Şagirdlər otelin müxtəlif departamentlərində təşkil edilən təlimlərdə iştirak edib, iş prosesi ilə yaxından tanış olublar.

Qeyd edək ki, X-XI sinif şagirdləri üçün nəzərdə tutulan peşə təmayüllü siniflərin yaradılmasında məqsəd təhsilalanların ümumi orta təhsil bazasında peşə ixtisaslarına aid səriştələrinin inkişaf etdirilməsi, onların peşələr üzrə ilkin bilik və bacarıqlarla təmin olunaraq əmək bazarına hazırlanmasının təmin edilməsidir.

Hazırda peşə təmayüllü siniflərdə ümumilikdə 420 şagird təhsil alır.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6484, **Sifariş** 4410

**Məsul növbətçi:** O.Mustafayev


## Etibarsız sayılır

**Bakı Politexnik Texnikumu** tərəfindən 1988-ci ildə Kiçikbəyov Coşqun Böyükağa oğluna verilmiş MT-I-285299 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Sarıcalar kənd tam orta məktəbinin IX sinfini 1994-cü ildə bitirmiş Eynullayeva Ülkər Əsəd qızına verilmiş B-088865 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2019-cu ildə Göyüşova Nigar Bahadur qızına verilmiş C-043677 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2016-cı ildə Zülfüqarov Bilal Məhsun oğluna verilmiş A-073899 nömrəli diplom və A-494691 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** Texniki təmayüllü liseyi 2011-ci ildə bitirmiş Əliyev Sərxan Eldar oğluna verilmiş A-059894 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Müşkür (köhnə Ekaterinovka) kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Tahirov Bəxtiyar Mikayıl oğluna verilmiş A-163445 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Dağkəsəmən kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Muradova (Əliyeva) Salatın Əhməd qızına verilmiş 049681 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti nəzdində Bakı Texniki Kolleci tərəfindən** 2016-cı ildə Süleymanov Qara Asif oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Mahmudov Ədalət İlqar oğluna verilmiş E-095160 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**"BSB" Tam Orta İnnovasiyalar Məktəbini** 2016-cı ildə bitirmiş İsmail Mohammad Abdulhakelm oğluna verilmiş A-496672 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhərində** yerləşən Zəngilan rayon 11 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Kərimov Samir Əfrayıl oğluna verilmiş B-341278 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2018-ci ildə Əliyeva Gülçöhrə Zülfü qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2018-ci ildə İslamov Nurlan Nizami oğluna verilmiş C-018152 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2017-ci ildə İbrahimov Əhməd İsmət oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 6 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Məmmədov Yalçın Məhəmməd oğluna verilmiş 100891 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Azadlı Ayşən Akif qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Texniki Kolleci** tərəfindən 2008-ci ildə Novruzov Sabir Nurəddin oğluna verilmiş BB-II-070744 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Qara Nuru kənd tam orta məktəbinin IX sinfini 1994-cü ildə bitirmiş Əhmədova Asiya Yadulla qızına verilmiş AK-339091 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Liman şəhər 1 nömrəli (keçmiş Port-İliç) tam orta məktəbi 1996-cı ildə bitirmiş Seyfullayev Rahim Mirzağa oğluna verilmiş A-017378 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Həsənsu kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Kərimov Vüsal Yusif oğluna verilmiş A-000695 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 1992-ci ildə Bayramova Səxavət Dilavər qızına verilmiş ЦВ-838798 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Baxçakürd kənd tam orta məktəbinin IX sinfini 1996-cı ildə bitirmiş Nağdalıyeva Aynurə Süleyman qızına verilmiş B-154067 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul rayon** Abdulabad kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Cəfərov Cavid Qərib oğluna verilmiş A-124566 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Blaband kənd tam orta məktəbini 2018-ci ildə bitirmiş Əliyev İslam Rövşən oğluna verilmiş E-159091 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Cavad adına şəhər tam orta məktəbin XI sinfini 2007-ci ildə bitirmiş Mahmudov Eynur Ülfət oğluna verilmiş A-472874 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Hacıalılar kənd ümumi orta məktəbinin IX sinfini 2018-ci ildə bitirmiş Nəsibova Brilliant Əlövsəd qızına verilmiş C-219580 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 283 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əliyev Ayxan Rza oğluna verilmiş B-316163 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Qarxun kənd tam orta məktəbini 2006-cı ildə bitirmiş Abbasəliyev Lütfü Məhərrəm oğluna verilmiş B-246243 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Qarxun kənd tam orta məktəbinin IX sinfini 2011-ci ildə bitirmiş Qədimov Həsən Seyfulla oğluna verilmiş A-001360 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi tanınmış təhsil işçisi, Əməkdar müəllim

**NƏCƏF NƏCƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 159 nömrəli tam orta məktəbin direktoru və pedaqoji kollektivi məktəbin direktor müavini Hökumə Camalovaya əzizi

**NƏCƏF NƏCƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 102 nömrəli tam orta məktəbin kollektivi məktəbin direktoru Mailə İsmayılovaya bacısı oğlu

**MAHİR AKİF OĞLU QASIMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Bu nağılda "BİZ" vardı

## Sağlamlıq imkanları məhdud uşaqların bayram sevinci



**Ruhiyyə DAŞSALAHLI**

Dekabr ayının üçüncü ongünlüyündə şənliklər keçirilməsinə vərdiş eləmişik. Elə ki, ayın 22, 23, 24-ü oldu, məktəblər, bağçalar, uşaqların olduğu müəssisələrin hər birində həyat canlanır, iş çoxalır. Sonra müəyyənləşdirdikləri gündə əzizlərini, sevdiklərini dəvət edir, hazırladıqlarını nümayiş etdirir, həm özləri əylənir, həm də qonaqlarını əyləndirirlər. Artıq ənənəyə çevrilən belə şənliklərdən birində "Azərbaycan müəllimi" də vardı...

### Birgə hazırlaşdılar...

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli xüsusi internat məktəbində hazırlıqlar çoxdan başlamışdı. Heç nəyə pul verib hazır almamışdılar. Müəllimlər, tərbiyəçilər, uşaqlar birləşib o günə birlikdə hazırlaşmışdılar. Məqsəd bəlliydi. Yaşadıqları diyarın ən sevilən bayramı - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram şənliyi keçirəcəkdilər. Ürəklərində sevgi, gözlərində həyəcan olan bu uşaqlar üçün bayram çoxdan gəlmişdi. Ruh yüksəkliyi, bayram ovqatı artıq çoxdan bu təhsil müəssisəsinin qapısından girmişdi. Girən kimi də hərə bir işin qulpundan yapışıb canla-başla hazırlıqlara öz töhfəsini vermək üçün özünə əl qatmışdı. Biri küknar ağacı kəsib, o biri ceyran düzəltmişdi. Bu gün burda olan rəngarəngliyə nail olmaq üçün texnologiya müəllimlərinin dəstəyi ilə maketlər, rəngli kardonlardan fiqurlar, meyvələr kəsmişdilər. Hazırladıqları kompozisiyalarda istifadə edəcəkləri hər detal, geyindikləri hər libas uşaqların əməyi ilə hazırlanmışdı. Səhnə dekorasiyaları, bədii tərtibat üçün lazım olan hər xırdalıq balaca əllərin işi idi. Kollektiv olaraq - müəllimi, tərbiyəçisi, şagirdləri, hətta direktoru birlikdə düşünüb-daşınıb, birlikdə qərar vermişdilər bu gün nəyi hara qoyacaqlarına, kimin nə edəcəyinə. Hər kəs öz üzərinə bir iş götürmüşdü. Səhnəciklər hazırlamaq, şeirlər seçmək, kompozisiyalar qurmaq və məktəb direktoru Ümnisə Nəcəfbəyovanın yazdığı ssenariyə uyğun hazırlaşmaq onlar üçün çətin olmamışdı. Həm bir yerdə iş görmüş, həm əylənmişdilər. Kollektiv işin nəticəsində maraqlı, əyləncəli bir şənliyin əsasını qoymuşdular. Yəqin elə buna görə onların nağılı hamınınkından fərqlənirdi. Bu nağıla hazırlaşdıqları zaman necə kollektiv idilərsə, səhnədə də kollektiv oldular. Heç kəs "mən" demədi. Bu nağılda "BİZ" vardı. Bəlkə də yeganə nağıl idi ki, orda qəhrəmanlar şərlə təkbaşına mübarizə aparmır, çirkin küpəgirən qarı az qala dünya gözəlidi. Qəhrəman necə tək ola bilər, axı bu uşaqlar onu bir yerdə yaradıblar. Cadugər necə çirkin olsun, axı, onların dünyasında çirkin heç nə yoxdu. Onların qulaqları şərə bağlı olduğu kimi, dilləri pis kəlmələr tanımır. İnsanları bir işarədən anlayır, onlara ancaq doğru işarələr verirlər. Bu gün də işarə verdilər. Dünyaya sevgi, həmrəylik ismarıcı ötürdülər. "Bizim kimi şərə, böhtana qulağınızı tıxayın!", "Biri-birinizi bir işarədən anlayın!", - dedilər.

2 nömrəli xüsusi internat məktəbin 185-190 şagirdinin fəal iştirakı ilə keçirilən şənliyə Təhsil Nazirliyinin əməkdaşları və KİV təmsilçiləri də dəvətliydi.



### Birgə əyləndilər...

İnternat məktəbinin astanasından içəri girən özünü Alisa kimi hiss edirsən. Elə bil möcüzələr diyarına düşmüsən. Heyvanlar, meyvələr, nağıl qəhrəmanları... Hələ yeni il əyləncələrinin maskalılarını demirəm. Kimi desən, hansı nağıl qəhrəmanını axtarsan, taparsan burda. Bir sözlə, özünü onlarla bir dünyada yaşayırsanmış kimi hiss edirsən. Ənənəvi qış şənliklərindən fərqli olaraq, bu nağılda hər kəs fəaldır. Müəlimindən şagirdinə, şagirdindən məktəb rəhbərliyinə hər kəs bu tədbirin bir parçasıdır. Biri olmazsa, olmaz. Geyimlərindən bilinir ki, hər kəsin öz vəzifəsi var. Hətta bəziləri, məsələn, gimnastlar boynuna bir neçə vəzifə götürüb. Vəzifəyə uyğun libas dəyişib səhnəyə qayıdanda fərqinə varırıq bunun.



Azərbaycanın himni səslənir. İnternat məktəbinin şagirdləri ifa edir himnimizi. Sonra ədəbi-bədii kompozisiya, milli və xarici rəqslər, səhnəciklər biri-birini əvəz edir. Uşaqlar Şaxta baba və Qar qızla birgə rəqs edir, mahnılar səsləndirirlər.

### Onlar biri-birindən stimul alır

Uşaqlarla bərabər oynayıb onlarla bərabər əylənən biri xüsusilə diqqətimizi çəkir. Daim hərəkətdədir, uşaqların səhnəyə çıxmağından tutmuş, səhnədəki hərəkətlərinə qədər hər şeyə hakimdir. Necə deyərlər, onun gözü uşaqlarda, uşaqların da gözü ondadır: yalnız onun hərəkətini izləyirlər. Çox vaxt rəqs zamanı hansı hərəkətin vaxtı çatdığını onun işarəsindən anlayırlar. O da şənlik boyu yorulmadan uşaqları müşayiət edir. Öyrəndik ki, adı Pərvanə Quliyevadır. Məktəbdə rejissor işləyir: "Uşaqlarla işləmək, onların sevincini görmək məni çox sevindirir. Müəllimlərin köməyi ilə uşaqlarla çox maraqlı işlər görürük. Əslində, nə edəcəklərini, nə vaxt edəcəklərini yaxşı bilirlər. Ancaq mənimlə özlərini daha rahat hiss edirlər. Onlarla bərabər hərəkət edərək onlara dəstək oluram, həyəcanlarının qarşısını almaqda kömək edirəm. Stimul verməyə çalışıram. İşimdən böyük zövq alıram".



P.Quliyeva deyir ki, iddialı şagirdləri də çoxdur. Düşünür ki, elə bu məktəbdə böyüyüb onun işini görə biləcək uşaqlar yetişməkdədi. Hətta dediyinə görə, indidən işini yüngülləşdirən uşaqları var: " V sinif şagirdi Aysel Əliyevaya həmişə deyirəm ki, sən müəllimlə eynisən. Onun bacarığından istifadə edirəm. Uşaqlarla o işləyir, onları yönəldir. Özü də yaxşı oxuyan şagirdlərimizdəndir".

### İnternat məktəbinin yarını başmağından tanıyan şahzadəsi

Məktəbin III sinif şagirdləri "Göyçək Fatma" nağılı ilə səhnəyə çıxırlar. Şahzadə rolunu səhnədə Fədai Cəlilov canlandırır. Fatmaya vurulan şahzadə sevdiyini itirsə də, tezliklə onu başmağından tanıyır. "Yarını başmağından tanıyan" Fədai dərslərini də yaxşı oxuyur. Yəni, nağıllar aləmində olduğu kimi, real həyatda da qətiyyətlidir.

Onların müəllimi Nəzakət Əsədullayevanın üzü gülür. Sinfinin "Göyçək Fatma"-nı səhnələşdirməsindən necə zövq aldığı gözlərindən oxunur: "Göyçək Fatma"nı biz qurduq. Uşaqlarımın incəsənətə, sənətə, təsviri incəsənətə, texnologiya dərslərinə çox böyük həvəsi var. Çox istedadlıdırlar. Yuxarı sinif şagirdlərimizlə Cəfər Cabbarlının "Dilbər" əsərini səhnələşdirdik. "Nəsimi" tamaşasını da hazırladıq. Həmin tamaşalarımızla müsabiqələrə qatılıb fərqləndik. Hər kəsin heyranlıqla izlədiyi səhnələr qurduq. Şagirdlərim riyaziyyatı, informatikanı da çox sevirlər. Kompüterlərlə təchiz olunmuş otağımız var. Təsəvvür edə bilməzsiniz, necə həvəslə gedirlər o otaqda dərs keçməyə".

Nəzakət müəllim hesab edir ki, uşaqlar özlərini yaradıcılıqla daha yaxşı ifadə edirlər. Danışmır, eşitmirlər. Müəllimləri deyir ki, öz dünyasını, daxili aləmini ifadə edə bildikləri üçün onlar daha çox rəsmə, rəqsə, bir sözlə, yaradıcı fəaliyyətlərə meyil edirlər: "Rəqsi çox gözəl bacarırlar, çünki musiqini yaxşı duyurlar. Məktəbimizdə ümumtəhsil məktəblərindən fərqli olaraq Ritmika fənni keçilir. Proqramlarımız da ümumtəhsil məktəblərindən daha yüngüldür. Mənə çox təkliflər edilib ümumtəhsil məktəblərindən. Onları qoyub getməmişəm. Bütün həyatımı bu uşaqlara həsr etməyə hazıram. Onların qayğısına qalmağı sevirəm. Fatimə Əmrahova, Ləman İsgəndərova, Fədai Cəlilov və başqa uşaqların hər biri mənim üçün doğmadır".

### Rəqs meydanında elə süzür ki, onun...

Azərbaycan milli rəqsinin gözəl ifaçısı Məryəm Baloğlanova isə 16 yaşındadır. 10-cu sinifdə oxuyur. Ailəsi ilə yaşayır. Hər gün internata gəlib-gedən 90 şagirddən biridir. Çox bacarıqlıdır. Rəqsləri ilə hamını valeh edir. Onun rəqsini görən rəqqasənin eşitmə məhdudiyyətli olduğuna inanmır. O da eşitmə və nitq məhdudiyyətli yoldaşları kimi rəqsi sayaraq öyrənir. Hərəkətdən hərəkətə keçmək üçün sayır, beləcə rəqsi mənimsəyir, etdiyi hərəkətə uyğun ritmi müəyyənləşdirir və etdiyi rəqsin musiqisini düşüncələrində canlandırır: "Müəllimlə üzbəüz dayanıram. Onun etdiyi hərəkəti eynilə təkrar etməyə çalışıram".

Təkrarladığı hərəkətlər bir müddət sonra onun ruhuna hopur. Nəticədə rəqs meydanında elə süzür ki, onun musiqini eşitmədən hərəkət etdiyinə inanmaq olmur. Rəqs edərkən heç çətinlik çəkmədiyini deyir. Ancaq ona çətin görünən işlər də var. Məsələn, deyir ki, riyaziyyat çox çətindir. Onu öyrənməkdə çətinlik çəkir. Ancaq kimya fənnini çox sevir. Buna baxmayaraq, gələcəkdə nə kimyaçı, nə də rəqqasə olmaq niyyətindədir. Anasının məsləhəti ilə bərbər olacaq: "Asandı, bu işi bacararam".

### Onların çoxu bərbər olmaq istəyir

"Burada oğlanların, o cümlədən qızların bərbərliyə həvəsi çoxdur. Əksəriyyəti bərbər olmaq istəyir".

Bunu da təhsil müəssisəsinin kimya müəllimi Könül Quliyeva deyir: "Şagirdlərim arasında kimyanı həvəslə oxuyanlar, hətta elementləri gecə yuxudan qaldırıb soruşsan, çaşmadan tanıyan şagirdlərim var. Ancaq gələcəyini elmlə bağlayan olmur. Buradan rəssamlıq məktəbinə gedənlərin sayı daha çox olur, nəinki hər hansı elm sahəsi üzrə təhsilini davam etdirən. Aralarında riyaziyyat, Azərbaycan dili və ədəbiyyata daha çox üstünlük verirlər. İmtahanlarda daha çox bu fənlərə ehtiyac olduğunu da nəzərə alırlar".

Nigar Süleymanzadənin əli isə rəsmə daha çox yatqındır. Toxumada da çox qabiliyyətlidir. Muncuqlardan güllər, güldanlar toxuyur. Rəsmləri və əl işləri ilə müsabiqələrə qatılıb uğur da qazanır. Toxuma və rəssamlıqda fərqləndiyi müsabiqələr belə var.

### Onlar tam müasir müəssisədə təhsil alırlar

Məktəbin direktoru Ümnisə Nəcəfbəyovanın sözlərinə görə, 2015-ci ildə təhsil müəssisəsinin tədris korpusu yenidən inşa olunub və peşəyönümlü emalatxanalar tikilib. Şagirdlərin peşəyönümlü təlimi üçün tədris emalatxanalarında dərnəklər (tikiş, aşbazlıq, toxuculuq, xalçaçılıq, çilingərlik) fəaliyyət göstərir. İnternat məktəbində rəqs, teatr, rəssamlıq kimi dərnəklər də təşkil olunub. Rəsm, musiqi ilə yanaşı, gimnastika ilə də məşğul olurlar. Riyaziyyata və idmana xüsusilə həvəslidirlər. Lakin məktəbdən 9 illik haqqında attestat alaraq gecə məktəblərində təhsillərini davam etdirirlər. Bu ildən isə Təhsil Nazirliyi xüsusi internat məktəbinin yataqxana korpusunu əsaslı təmir edib. İndi onların müasir tələblərə cavab verən yeməkxana, istirahət və yataq otaqları da var.

Məlumat üçün bildirək ki, sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli xüsusi internat məktəbi 1962-ci ildən uşaqların ixtiyarına verilib. Hazırda burada 210 şagird təhsil alır, onlardan 120 nəfəri müəssisədə gecələyir. Şagirdlərin təlim-tərbiyəsi ilə 39 müəllim və 28 tərbiyəçi məşğul olur. İnternat məktəbində ümumtəhsil fənlərindən əlavə, "Tələffüz və eşitmənin inkişafı üzrə fərdi iş", həmçinin "Mimika və daktioloji iş" dərsləri 13 loqoped müəllim tərəfindən fərdi şəkildə tədris olunur.

### Yeni il şənliyində sürpriz

Beləliklə, xüsusi internat məktəbinin mələklərinin daha bir Yeni il şənliyi başa çatır. Bu ovqatla müasir yeməkxanalarına yollanırlar. Onları burada sadəcə günorta yeməyi yox, həm də sürpriz gözləyir. Təhsil Nazirliyinin yeni il hədiyyələri. Masadakı hədiyyələri görən uşaqların sevincinə sevinc qarışır. Yeni il hədiyyəsinə kim sevinməz ki...